# Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin
# 2023-cü ildə görülmüş işlər barədə geniş
# HESABATI

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş **"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"**dən irəli gələn vəzifələr çərçivəsində dövlətimizin hədəflədiyi məqsədlərə nail olmaq üçün formalaşdırılan məqsədyönlü siyasət, həyata keçirilən islahatlar və bununla bağlı reallaşdırılmalı olan innovasiya siyasəti qlobal sosial-iqtisadi sahələrdə rolu və əhəmiyyəti daim artan əqli mülkiyyət sistemi qarşısında böyük vəzifələr qoymuşdur. "Milli Prioritetlər"in "dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat" və "rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı" istiqamətləri üzrə nəzərdə tutulan tədbirlər əqli mülkiyyətin müasir iqtisadiyyatın davamlı inkişafını təmin edən əsas faktorlardan birinə çevrilməsini zəruri etmişdir.

Ölkə Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı İllərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulan aidiyyəti vəzifələrin icrası çərçivəsində hesabat ilində ixtira və patent fəallığının artırılması, texnologiyaların kommersiyalaşdırılması və transferi, əqli mülkiyyət hüquqlarının beynəlxalq səviyyədə qeydiyyatının stimullaşdırılması, effektiv patent qeydiyyatı prosedurlarının qurulması, əqli mülkiyyətlə bağlı məlumatlılığın artırılması, patentlərə dair beynəlxalq göstəricilər əsasında ölkənin texnoloji profilinin (patent landşaftının) və tədqiqat sahələrinin müəyyən edilməsi, eləcə də texnoloji inkişaf səviyyəsinin qiymətləndirilməsi istiqamətlərində tədbirlər hesabat ilində də Əqli Mülkiyyət Agentliyi **(bundan sonra-Agentlik)** tərəfindən uğurla davam etdirilmişdir.

Agentlik əsas vəzifələrinin icrası ilə yanaşı, Strategiyada müəyyən edilmiş "Elmi tədqiqatların və innovasiyaların inkişafının, elm və təhsilin inteqrasiyasının təmin edilməsi" fəaliyyət istiqamətinə uyğun olaraq elmi potensialın gücləndirilməsi sahəsində təşviq mexanizmlərinin formalaşdırılması və Azərbaycan elminin dünya səviyyəsində mövqeyinin yüksəlməsi ilə bağlı səlahiyyətləri daxilində müvafiq işlərin yerinə yetirilməsində də fəal iştirak edir.

Hesabat ilində Agentlik Azərbaycan məhsullarının "Made in Azerbaijan" brendinin hədəf bazarlarında aktiv təşviqi və ixrac həcminin artırılması, mədəni və sosial inkişafın daha da sürətləndirilməsi məqsədilə bu sahədə yeni hüquqi və tənzimləyici infrastrukturun yaradılması, o cümlədən normativ hüquqi, statistika bazasının, əqli mülkiyyət, habelə idarəetmə üzrə mexanizmlərin formalaşdırılması istiqamətlərində həyata keçirilən tədbirlərin aktiv iştirakçısı olmuşdur.

**Ölkənin innovasiya siyasətinin həyata keçirilməsinə xidmət göstərilməsi** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uzaqgörən strateji siyasətindən irəli gələn institusional islahatlar çərçivəsində əqli mülkiyyətin yeniləşən mahiyyətinə uyğun olaraq unikal idarəetmə qurumu kimi yaradılan Agentliyin fəaliyyətinin əsas istiqamətini təşkil edir. Milli əqli mülkiyyət institutunun yeni çağırışlara uyğun dəyişmiş konteksti və konseptual evolyusiyası Agentliyin yalnız xidməti sahə olması, əqli mülkiyyət obyektlərinin ekspertizasının aparılması və qorunma sənədlərinin verilməsi ilə kifayətlənmir, qorunmanın səmərəliliyini nəzərə alan, analitik trendləri ölçən, bazarın rəqabət qabiliyyətinə təsir göstərən və bununla iqtisadi funksiyalar daşıyan, həmçinin qorunan obyektlərin sosial-mədəni hissəsini təhlil edən struktura və innovasiyaların fəal aktoruna çevrilir.

Dövlət başçımız Prezident İlham Əliyev uzaqgörənliyi ilə əqli mülkiyyət sahəsində aparılan konsentual və institusional islahatlar hesabına yaradılmış idarəetmə modelinin uğurlu və unikal olduğunu aşağıda qeyd etdiklərimiz bir daha təsdiq edir.

ÜƏMT müasir çağırışlara cavab verən milli əqli mülkiyyət ofislərinin yaradılmasına aid təlimatların hazırlanması məqsədilə dünya üzrə 204 ofis arasından 15 ölkənin mükəmməl idarəetmə strukturuna və inzibatçılıq mexanizmlərinə malik olan ofislərini seçərək, bu çərçivəyə Agentliyi də daxil edib və keçirdiyi "Əqli mülkiyyət idarəetməsi və inzibatçılığı modelləri mövzusunda tədqiqatda əksini tapmaq üçün onlayn sorğu vasitəsilə 15 suala cavab əldə edib.

Bununla yanaşı MDB məkanında fəaliyyət göstərən Avrasiya Patent Təşkilatı **(bundan sonra-APT)** əqli mülkiyyət sahəsində Azərbaycanın müsbət təcrübəsini nəzərə alaraq "Müasir əqli mülkiyyət ofisinin formalaşması və fəaliyyəti" mövzusunda geniş prezentasiya və məqalə sifariş edərək, onu Moskvada nəşr olunan tanınmış peşəkar **"Əqli mülkiyyət: Sənaye mülkiyyəti"** jurnalının xüsusi buraxılışında (2023, №5) dərc etdirmiş və APT-nin rəhbəri tərəfindən həmin təcrübədən geniş istifadə etmək tövsiyə olunmuşdur.

**Əqli mülkiyyət hüquqlarının qorunması və təminatı sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində aparılan tədbirlərin davamı olaraq** hesabat ilində 3 Qanuna əqli mülkiyyətləı bağlı dəyişikliklər edilmiş, bununla əlaqədar Azərbaycan Respublikası Prezidenti tərəfindən 2 Fərman və 1 Sərəncam imzalanmış, Nazirlər Kabinetinin 2 Qərarı və 3 Sərəncamı qəbul olunmuşdur.

Agentlik tərəfindən 35-dən çox qanunvericilik aktı layihəsinə rəy və təkliflər verilmişdir.

Əqli mülkiyyət hüquqlarının qorunması və təminatı sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində aparılan tədbirlərin davamı olaraq hesabat ilində Agentlikdə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "Patent haqqında" və "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər edilməsi ilə bağlı qanun layihələri hazırlanmışdır. Rəy və təkliflərin bildirilməsi üçün sənəd layihələri hazırda əqli mülkiyyət üzrə beynəlxalq ekspertlər tərəfindən öyrənilir.

**İnfrastrukturun təkmilləşdirilməsi və institusional dəyişikliklər çərçivəsində** Agentlikdə yaradılan "Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf" (PƏNAH) rəqəmli informasiya sistemi əqli mülkiyyət obyektləri, o cümlədən sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı sahəsində göstərilən xidmətlərin keyfiyyətinin, habelə ixtira və patent fəallığının daha da artmasına müsbət təsirini göstərmiş, bu sistem vasitəsi ilə tətbiq edilən "vahid pəncərə" və "istənilən yerdən xidmətə əlçatanlıq" prinsipi açıqlığı, operativliyi və şəffaflığı təmin etmiş, əqli mülkiyyət üzrə göstərilən dövlət xidmətlərinin səmərəsini və səviyyəsini yüksəltmişdir.

**Əqli mülkiyyət mədəniyyətinin formalaşdırılması istiqamətində** hesabat ilində daha bir uğurlu layihə həyata keçirilərək Agentliyin dəstəyi ilə Azərbaycan Memarlıq və İnşaat Universitetində "Əqli Mülkiyyət" kafedrası yaradılmışdır. Hazırda Universitetin müxtəlif fakültələrində **6** istiqamət üzrə Agentliyin mütəxəssisləri tərəfindən əqli mülkiyyət fənni tədris olunur, o cümlədən **54** qrup üzrə **290** tələbəyə bakalavr və **517** tələbəyə magistr səviyyələrində 1613 saat dərs keçirilmişdir.

Bakı Dövlət Universitetinin Əqli Mülkiyyət Hüququ kafedrasının Agentliyin nəzdində daha əvvəl yaradılmış filialının fəaliyyəti isə əqli mülkiyyət sahəsində hüquqşünas mütəxəssislərin hazırlanmasında əhəmiyyətli rol oynayır və bununla bağlı magistr səviyyəsində **15** məzuna və bakalavr səviyyəsində **404** tələbəyə 2020-2023-cü illərdə əıqli mülkiyyət hüququna dair fənlər tədris olunmuşdur.

Hər iki universitetin tələbələri üçün mühazirə və məşğələlər Agentlikdə müasir avadanlıqlarla təchiz edilmiş SMART tipli auditoriyalarda keçirilir.

"Əqli Mülkiyyət Milli Təlim Mərkəzi" tərəfindən ixtira və faydalı modelin patentləşdirilməsi üçün iddia sənədinin tərtibi, ekspertizası, patentlərin mühafizəsi mövzusunda Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Texniki Universiteti və Sumqayıt Dövlət Universitetini təmsil edən 15 nəfər və əmtəə nişanları və coğrafi göstəricilərin qeydiyyatı, istifadəsi və hüquqların qorunması mövzusunda AZPROMO, KOBİA və İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin 12 nəfər əməkdaşı üçün iki aylıq təlim kursları təşkil olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamı ilə yaradılmış Biznes mühiti və beynəlxalq reytinqlər üzrə **Komissiyanın nəzdində "Əqli mülkiyyət məsələləri üzrə" Xüsusi İşçi Qrupu yaradılmışdır.** Xüsusi İşçi Qrupu aidiyyəti dövlət qurumları ilə birgə beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin yaxşılaşdırılması və əqli mülkiyyətlə əlaqəli sahələr barədə məlumatlılığın artırılmasına dəstək göstərir, eləcə də digər işçi qruplar arasında əqli mülkiyyət sahəsində koordinasiyasını təşkil edir.

**Son illər əqli mülkiyyət sahəsində aparılan məqsədyönlü tədbirlər ölkəmizin beynəlxalq reytinqlərdə mövqelərinin davamlı olaraq möhkəmləndirilməsində əhəmiyyətli rol oynayır. 132 ölkəni əhatə edən** nüfuzlu "Qlobal İnnovasiya İndeksi (QİI) 2023 Hesabatı"nda Azərbaycan "İnnovativ resurslar" alt indeksi üzrə reytinqdə üç pillə irəliləyərək 76-cı yeri tutur.

"Əqli fəaliyyət işçiləri" indikatoru üzrə 62-ci (ötən il 65-ci), innovasiya əlaqələri üzrə 48-ci yerdəyik (ötən il 56-cı); "**biliklər və texnologiyaların nəticələri" blokunda ölkəmiz ixtiralar üzrə 63-cü (ötən il 71-ci), faydalı modellər üzrə 49-cu yerdədir.** "Startapların dəyərləndirilməsi" indikatoruna görə 48-ci yeri tutur. **"Kreativ fəaliyyətin nəticələri" blokunun "qeyri-maddi aktivlər" istiqamətində "əmtəə nişanları" əqli mülkiyyət indikatoru üzrə 66-cı yeri tutaraq ötən illə müqayisədə tutduğu yeri 14 pillə yaxşılaşdırmışdır.**

“Tədqiqat və inkişaf” inteqral göstəricisində ölkəmiz əvvəlki illərlə müqayisədə mövqeyini yaxşılaşdıraraq 73-cü yerə yüksəlib.

Patent Əməkdaşlıq Sazişi (PCT) beynəlxalq sistemi vasitəsilə xarici dövlətlərdə patentləşdirilməsi üçün Beynəlxalq Büroya göndərilmiş ixtiraya aid 2 iddia sənədi milli faza mərhələsində 2023-cü ildə qeydiyyata alınıb, o cümlədən patent ailəsini təşkil edən həmin iddia sənədlərindən biri Avrasiya Patent İdarəsində (bundan sonra-APİ) qeydiyyata alınıb.

Agentlik tərəfindən APİ-yə göndərilmiş iddia sənədləri üzrə **171** patent, o cümlədən 2023-cü ildə **54** patent verilib.

**“İxtiraçılıq fəaliyyətinin stimullaşdırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 15 iyun tarixli 1716 nömrəli Fərmanının** icrasını təmin etmək məqsədilə Nazirlər Kabinetinin 2022-ci il 9 dekabr tarixli 439 nömrəli Qərarı ilə təsdiq edilmiş Qaydaya uyğun olaraq, “Hava axını ventilyasiya olunan çəkmə məmulatının müştüyü “Minitox Fan (PCT/AZ2020/000004)” adlı ixtiranın PCT beynəlxalq sistemi vasitəsilə APİ-də patentləşdirilməsi və patentin ilk üç il müddətində (2020-2023-cü illər) qüvvədə saxlanılması üçün hüquq sahibi tərəfindən ödənilmiş vəsaitin 50 (əlli) faizinin 2023-cü ildə dövlət büdcəsindən Agentliyə bu məqsəd üçün ayrılmış vəsait hesabına maliyyələşdirilməsi barədə İdarə Heyəti tərəfindən müvafiq qərar qəbul edilmişdir.

İxtira və faydalı modelin PCT beynəlxalq sistemi vasitəsilə patentləşdirilməsi məqsədilə iddiaçının beynəlxalq faza mərhələsində ödədiyi xərclərin 50 (əlli) faizinin maliyyələşdirilməsi istiqamətində də Agentlik tərəfindən fəal iş aparılır.

**Patent sahibləri və kommersiyalaşma potensialı olan əqli mülkiyyət obyektlərinin vahid bazası yaradılmış, kommersiyalaşdırma potensialı olan əqli mülkiyyət obyektlərinin seçim meyarları müəyyən olunmuş** və ən yaxşı ixtiralar seçilərək **Türkiyə TechnoFest** müsabiqəsində nümayiş etdirilmişdir. Müsabiqənin qızıl, gümüş və bürünc medallarını qazanmış 5 ixtiraçıdan 3-ü “Inmerge Innovation Summit”də iştirak edərək, yarımfinal və final mərhələlərinə yüksəlmişdir.

2023-cü ildə İstanbul şəhərində Türkiyə Sənaye və Texnologiyalar Nazirliyinin, Türkiyə Patent və Əmtəə Nişanları Qurumunun (TÜRKPATENT), həmçinin Beynəlxalq İxtiraçılar Assosiasiyaları Federasiyasının (IFIA) təşkilatçılığı və Ümumdünya Əqli Mülkiyyət Təşkilatı **(bundan sonra-ÜƏMT)** və “Türkiyə Texnologiya Komandası”nın dəstəyi ilə keçirilən **“ISIF 23: 8-ci İstanbul Beynəlxalq İxtiralar Sərgisi”ndə 5 azərbaycanlı ixtiraçı ölkəmizi layiqincə təmsil etmiş, 1 qızıl, 2 gümüş, 2 bürünc medala və 1 “Ən yaxşı xarici ixtira” sertifikatına layiq görülmüşlər.**

Elm və sənaye arasında əməkdaşlığın gücləndirilməsi məqsədilə 11 ali təhsil müəssisəsi, müxtəlif elmi-tədqiqat institutları və texnoloji transfer ofisləri ilə iş aparılmış və texnologiyaların kommersiyalaşdırılması ilə bağlı tövsiyələr verilmişdir. Həmçinin qorunma müddəti bitməmiş prioritet ixtiraların kommersiyalaşması və tətbiqinə dair Agentlik tərəfindən Elm və Təhsil Nazirliyi və Dövlət Neft Şirkəti üzrə təhlillər aparılmış, Nazirliyin müəssisələrinə aid 84, Dövlət Neft Şirkətinin müəssisələrinə aid 29 ixtira patentləri üzrə izahlı arayış hazırlanaraq hər iki dövlət qurumuna göndərilmiş, həmin ixtiraların kommersiyalaşması barədə təkliflər verilmişdir. Hazırda ixtira patentlərindən 7-si SOCAR-ın ayrı-ayrı istehsalat sahələrində tətbiq olunur.

Bu istiqamətdə həyata keçirilən tədbirlərə dəstək məqsədilə prof. K.İmanovun müəllifi olduğu “Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzinin yaradılmasına dair Yaddaş kitabçası” (Azərbaycan və rus dillərində) və “Əqli mülkiyyət və elmi-tədqiqat işlərinin kommersiyalaşması” kitabçaları təkrar çap edilərək maraqlı şəxslər arasında yayılmışdır.

Agentlikdə aparılan təhlillər əsasında “Azərbaycanda ixtiraçılıq və patent analitikası” adlı 4 fəsildən ibarət 90 səhifəlik kitab (müəllif K.İmanov) hazırlanmışdır.

Hesabat ilində startapların inkişafı üçün zəruri İKT infrastrukturunun gücləndirilməsinə və istedad ehtiyatlarının yaradılması, o cümlədən vençur maliyyələşmə mexanizmlərinin formalaşdırılması və dövrün sonuna startapların inkişafı üçün istedad ehtiyatının artırılması sahəsində tədbirlərin həyata keçirilməsinə Agentliyin səlahiyyətləri daxilində dəstək göstərilməsi davam etdirilmişdir. Həmçinin “Elmi tədqiqatların və innovasiyaların inkişafının, elm və təhsilin inteqrasiyasının təmin edilməsi” fəaliyyət istiqamətinə uyğun olaraq elmi potensialın gücləndirilməsi sahəsində təşviq mexanizmlərinin formalaşdırılması, Azərbaycan elminin daha da inkişafı və dünya səviyyəsində mövqeyinin yüksəlməsi ilə bağlı görülən işlərin həcmi artmışdır.

Hesabat ilində də Agentlik Azərbaycan məhsullarının “Made in Azerbaijan” brendi altında hədəf bazarlarında aktiv təşviqi və ixrac həcminin artırılması, mədəni və sosial inkişafın daha da

sürətləndirilməsi məqsədilə bu sahədə yeni hüquqi və tənzimləyici infrastrukturun yaradılması, o cümlədən normativ hüquqi, statistika bazasının, əqli mülkiyyət, habelə idarəetmə üzrə mexanizmlərin formalaşdırılması istiqamətlərində həyata keçirilən tədbirlərin aktiv iştirakçısı olmuşdur.

Azərbaycan Prezidentinin yüksək diqqət və qayğısı nəticəsində yaradılmış Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi, Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi, Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi, Respublika Elmi-Texniki Kitabxanası və ÜƏMT təlim mərkəzlərinin statusuna bərabər olan "Əqli Mülkiyyət Milli Təlim Mərkəzi" MMC-nin (MMC Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi və Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin həmtəsisçiliyi ilə yaradılmışdır) fəaliyyəti Agentlik tərəfindən əlaqələndirilir.

Agentliyin İdarə Heyətinin sədri Kamran İmanovun **"Əqli mülkiyyət. Sənaye mülkiyyəti"** jurnalında dərc edilmiş ''Müasir əqli mülkiyyət ofisinin formalaşması və fəaliyyəti" adlı məqaləsində əqli mülkiyyətin idarəetmə sisteminin qurulmasında Azərbaycan təcrübəsi geniş təhlil olunmuşdur. APİ-nin prezidenti Q.İvliyev Azərbaycan təcrübəsinin öyrənilməsi və tətbiq edilməsini APT-nin üzv dövlətlərinə tövsiyə etmiş və müasir əqli mülkiyyət sisteminin idarəçiliyində Azərbaycan modelini ən yaxşı model kimi qiymətləndirərək Kamran İmanovun məqaləsində qaldırılan məsələlərin son dərəcə aktual və əhəmiyyətli olduğunu bildirmişdir.

2023-cü ildə Agentliyin Aparatının və tabeliyində olan qurumların 25 nəfər əməkdaşı ÜƏMT Akademiyasının distant təhsil və ixtisasartırma kurslarında, həmçinin əqli mülkiyyət sahəsi ilə bağlı milli və beynəlxalq kurs, seminar və konfranslarda iştirak edərək ixtisaslarını artırmışlar.

Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin nümayəndəsi 2023-cü il 27-28 aprel tarixlərində Moskva şəhərində APT, Rusiyanın Əqi Mülkiyyət üzrə Federal Xidməti (Rospatent), Rusiyanın "Ali İqtisadiyyat Məktəbi" Milli Tədqiqat Universitetinin "UNESCO-nun müəlliflik hüququ, əlaqəli, mədəni və informasiya hüquqları üzrə kafedrası" Beynəlxalq Elm-Təhsil Mərkəzi və Rusiya Dövlət Əqli Mülkiyyət Akademiyasının birgə təşkilatçılığı ilə "Müəllif" ("Автор/Author") hibrid şəkildə keçirilən III (üçüncü) beynəlxalq elmi-praktik konfransda iştirak edib.

29 sentyabr tarixində ADA Universitetində "Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin yaxşılaşdırılması ilə əlaqədar 2023-cü il üzrə Yol Xəritəsi"nin "Yerli elmi jurnalların nüfuzunun yüksəldilməsi və yenilərinin yaradılması istiqamətində zəruri tədbirlərin görülməsi" bəndi üzrə, Təhsildə Keyfiyyət Təminatı Agentliyi "Qlobal Əməkdaşlıq və Analitik Araşdırmalar Mərkəzi" İctimai Birliyi ilə birgə əməkdaşlıq çərçivəsində elmi redaktorlar üçün "Elmin inkişafında elmmetriyanın rolu: Nüfuzlu elmi jurnalların hazırlanması" Mərkəzin direktoru Nəcəf Quliyev "Elmdə etik qaydalar və alimin müəlliflik hüquqlarının qorunması" mövzusunda məruzə ilə çıxış edib.

27 oktyabr 2023-cü ildə Bakı Dövlət Universitetində (BDU) Karyera və məzunlarla əlaqə sektorunun və Azərbaycan Mühasiblər və Risk Peşəkarları Assosiasiyasının təşkilatçılığı ilə tələbələr üçün "Süni intellekt tərcümə proqramları" mövzusunda təlimi Mərkəzin əməkdaşı keçib.

ƏMHTM tərəfindən həmtəsisçisi olduğu "Əqli Mülkiyyət Milli Təlim Mərkəzi" MMC-yə fəaliyyətinin qurulmasında, təşkilati işlərin həyata keçirilməsi və təlim materiallarının hazırlanmasında dəstək göstərilib.

**Beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsi istiqamətində görülən işlər.** Dövri nəşrlər üçün (jurnal, qəzet və s.) beynəlxalq nömrələmə sistemi olan ISSN (Beynəlxalq Standart Seriya Nömrəsi) üzrə ölkəmizdə Milli Mərkəz funksiyalarını yerinə yetirən "Qlobal Əməkdaşlıq və Analitik Araşdırmalar Mərkəzi" İctimai Birliyi ilə əməkdaşlıq uğurla davam etdirilmişdir.

Milli Mərkəzi Agentlikdə akkreditasiyadan keçmiş "Qlobal Əməkdaşlıq və Analitik Araşdırma Mərkəzi" (QƏAAM) tərəfindən Acta Botanica Caucasica (onlayn versiyası), Lənkəran Dövlət Universitetinin "Texnika və aqrar elmləri" jurnalı (online versiyası), Lənkəran Dövlət Universitetinin "Elmi xəbərlər" humanitar elmlər seriyası (online versiyası), Lənkəran Dövlət Universitetinin "Riyaziyyat və Təbiət Elmləri" (online versiyası), Xəzər Universitetinin "Mediasiya və münaqişələrin idarə edilməsi üzrə bülleten" (çap versiyası), Azərbaycan Dövlət Pedaqoji Universitetinin Mahmud Kaşğarlı (online versiyası), Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun "Aqrar sahədə elmi araşdirmalar" (çap versiyası), Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət idarəciliyi: nəzəriyyə və təcrübə" (online versiyası) nəşrləri ISSN/E-ISSN və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin "Preschool and Primary Education", Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Public administration: Theory and practice", Lənkəran Dövlət Universitetinin "Texnika və aqrar" elmləri jurnalı,

Lənkəran Dövlət Universitetinin "Elmi xəbərlər" humanitar elmlər seriyası, Lənkəran Dövlət Universitetinin "Riyaziyyat və Təbiət Elmləri", "Miras" İctimai Birliyinin "Şuşa: tarixi-mədəni irsin tədqiqi" və Gəncə Dövlət Universitetinin "Elmi xəbərlər" nəşrləri DOİ (Digital Object İdentifier) prefiks nömrəsinin kodu ilə təmin olunub.

"Qlobal Əməkdaşlıq və Analitik Araşdırma Mərkəzi" (QƏAAM) tərəfindən 51 (əlli bir) ISSN/E-ISSN və 27 (iyirmi yeddi) DOİ (Digital Object İdentifier) prefiks nömrəsi kodu verilmişdir.

Beləliklə, qeyd edilən məsələlər üzrə aşağıda ayrı-ayrı bölmələrdə daha ətraflı məlumatlarla izah olunur:

**1. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iqtisadiyyat sahəsində islahatların aparılmasına dair fərman və sərəncamlarndan irəli gələn əqli mülkiyyət və iqtisadi inkişafla bağlı aidiyyəti vəzifələrin icrası.**

Hesabat ilində "Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 fevral tarixli 3722 nömrəli Sərəncamının icrası çərçivəsində əllə xalçatoxuma sənəti sahəsində unudulmaqda olan ənənələrin, bədii və texniki iş üsullarının, xalça çeşnilərinin bərpası və inkişaf etdirilməsi istiqamətində tədbirlər davam etdirilmiş, dövlət reyestlərində əvvəlki illərdə qeydiyyata alınmış və Azərbaycan Respublikasının ərazisində qüvvədə olan xalça sənətinə dair 4 əmtəə nişanı, 1 ixtira və 3 coğrafi göstəricinin qüvvədə olma müddətinin uzadılması barədə müvafiq qərar qəbul olunmuşdur.

"2018–2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 3 may tarixli 38 nömrəli Sərəncamının aidiyyəti üzrə icrası ilə bağlı Hesabat ilində yerli sahibkarların adına şərabçılıq məhsullarına aid 23 əmtəə nişanı qeydiyyata alınmışdır.

**"İxtiraçılıq fəaliyyətinin stimullaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 15 iyun tarixli 1716 nömrəli Fərmanı sənaye mülkiyyəti sahəsində fəaliyyətə böyük təkan vermişdir.** Fərmanın icrasını təmin etmək məqsədilə Nazirlər Kabinetinin 2022-ci il 9 dekabr tarixli 439 nömrəli Qərarı ilə "İxtiraların və faydalı modellərin Patent Əməkdaşlıq Sazişi (PCT) beynəlxalq sistemi vasitəsilə xarici dövlətlərdə patentləşdirilməsi və onların ilk 3 il müddətində qüvvədə saxlanılması üçün Azərbaycan Respublikasının vətəndaşı olan hüquq sahiblərinin ödədikləri xərclərin 50 (əlli) faizinin dövlət tərəfindən maliyyələşdirilməsi Qaydası"na uyğun olaraq, "Hava axını ventilyasiya olunan çəkmə məmulatının müştüyü "Minitox Fan (PCT/AZ2020/000004)" adlı ixtiranın PCT beynəlxalq sistemi vasitəsilə APİ-də patentləşdirilməsi və patentin ilk üç il müddətində (2020-2023-cü illər) qüvvədə saxlanılması üçün hüquq sahibi tərəfindən ödənilmiş 134 USD və 20 440 RUB vəsaitin, habelə həmin ixtira üzrə iddia sənədinin hazırlanıb ÜƏMT-nin Beynəlxalq Bürosuna göndərilməsinə görə ödənilmiş 30 manat vəsaitin 50 (əlli) faizinin 2023-cü ildə dövlət büdcəsindən Agentliyə bu məqsəd üçün ayrılmış vəsait hesabına maliyyələşdirilməsi barədə İdarə Heyəti tərəfindən müvafiq qərar qəbul edilmişdir.

İxtira və patent fəallığının artırılmasına dəstək məqsədilə ixtira və faydalı modelin PCT beynəlxalq sistemi vasitəsilə patentləşdirilməsi məqəsədilə iddiaçının beynəlxalq faza mərhələsində ödədiyi xərclərin 50 (əlli) faizinin maliyyələşdirilməsi istiqamətində də Agentlik tərəfindən işlərə başlanılmışdır. Bununla əlaqədar iddiaçının beynəlxalq faza mərhələsində ödədiyi xərclərin **(beynəlxalq iddia sənədinin milli patent ofisi vasitəsilə Beynəlxalq Büroya verilməsi, Beynəlxalq Axtarış Orqanı tərəfindən axtarışın aparılması, o cümlədən iddia sənədinin və beynəlxalq axtarış hesabatının dərc edilməsi üçün iddiaçının çəkdiyi xərclər nəzərdə tutulur)** 50 (əlli) faizinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 9 dekabr tarixli 439 nömrəli Qərarı ilə təsdiq edilmiş Qaydaya uyğun olaraq dövlət büdcəsindən ayrılmış vəsait hesabına maliyyələşdirilməsi proseduruna dair Agentlik tərəfindən Xidməti Təlimat hazırlanıb təsdiq edilmişdir. Maliyyələşdirmə yalnız iddia olunan ixtira və ya faydalı model patent qabiliyyəti şərtlərinə cavab verdiyi təqdirdə Beynəlxalq Axtarış Orqanının yazılı müsbət rəyi və Beynəlxalq Ekspertiza orqanının müsbət qərarı olduqda həyata keçiriləcəkdir.

**2. Qanunvericilik və normativ hüquqi bazanın təkmilləşdirilməsi.**

Hesabat ilində 3 qanun ("Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanunlar) və "Saxta əmtəə nişanlarının və coğrafi göstəricilərin istifadəsinin qabaqlanması və qarşısının alınması üzrə MDB iştirakçısı dövlətlərinin

əməkdaşlığı haqqında Saziş"in təsdiqi və "Müstəqil Dövlətlər Birliyinin Hökumət Başçıları Şurasının iclasında Azərbaycan Respublikasının Hökuməti adından imzalanmış "Yalançı əmtəə nişanlarından və coğrafi göstəricilərdən istifadənin qarşısının alınması və kökünün kəsilməsi tədbirləri haqqında" Sazişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 16 iyun tarixli 921-VIQ nömrəli Qanunu) qəbul edilmiş, bununla əlaqədar Azərbaycan Respublikası Prezidenti tərəfindən 2 Fərman və 1 Sərəncam imzalanmış, Nazirlər Kabinetinin 2 qərarı və 3 sərəncamı qəbul olunmuşdur.

**2.1. Azərbaycan Respublikası Prezidentinin fərmanları:**

1. "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında", "Sosial xidmət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", "İctimai iştirakçılıq haqqında", "Yaşıllıqların mühafizəsi haqqında", "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 812-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 383 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"də, 2021-ci il 22 iyun tarixli 1375 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 aprel tarixli 2090 nömrəli Fərmanı;

2. "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 702-VIQD nömrəli Qanununun tətbiqi və "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 avqust tarixli 749 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 fevral tarixli 2026 nömrəli Fərmanı.

**2.2. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı:**

"Saxta əmtəə nişanlarının və coğrafi göstəricilərin istifadəsinin qabaqlanması və qarşısının alınması üzrə MDB iştirakçısı dövlətlərinin əməkdaşlığı haqqında Saziş"in icrası ilə bağlı səlahiyyətli orqanların (qurumların) müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 10 iyul tarixli 3959 nömrəli Sərəncamı.

**2.3. Nazirlər Kabinetinin qərarları:**

1. "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı məsələlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 2 may tarixli 38 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 7 mart tarixli 75 nömrəli Qərarı;

2. "Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının statistik vahidlərin Dövlət registrinin yaradılması haqqında" 1992-ci il 9 sentyabr tarixli 496 nömrəli, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı məsələlər haqqında" 1997-ci il 2 may tarixli 38 nömrəli, "Müəlliflərin və əlaqəli hüquqların sahiblərinin əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatların qeydiyyatdan (akkreditasiyadan) keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2011-ci il 22 sentyabr tarixli 149 nömrəli və "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"nın təsdiq edilməsi haqqında" 2014-cü il 3 aprel tarixli 94 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 28 iyul tarixli 247 nömrəli Qərarı;

**2.4. Nazirlər Kabinetinin sərəncamları:**

**1.** "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında", "Sosial xidmət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", "İctimai iştirakçılıq haqqında", "Yaşıllıqların mühafizəsi haqqında", "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il

17 fevral tarixli 812-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 383 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"də, 2021-ci il 22 iyun tarixli 1375 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 aprel tarixli 2090 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 17 aprel tarixli 327s nömrəli Sərəncamı;

**2.** "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 702-VIQD nömrəli Qanununun tətbiqi və "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 avqust tarixli 749 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 fevral tarixli 2026 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 223s nömrəli Sərəncamı;

**3.** Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 817-VIQD nömrəli Qanununun icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 18 aprel tarixli 335s nömrəli Sərəncamı.

Əqli mülkiyyət hüquqlarının qorunması və təminatı sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində aparılan tədbirlər çərçivəsində hesabat ilində Agentlikdə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "Patent haqqında" və "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər edilməsi ilə bağlı qanun layihələri hazırlanmışdır. Rəy və təkliflərin bildirilməsi üçün sənəd layihələri hazırda əqli mülkiyyət üzrə beynəlxalq ekspertlər tərəfindən öyrənilir.

## 3. Əqli mülkiyyətin təhlili və siyasəti.

### 3.1. Əqli mülkiyyət hüquqlarının beynəlxalq səviyyədə qeydiyyatının stimullaşdırılması.

Hər il Agentlikdə mütəmadi olaraq əqli mülkiyyətə aid olan statistik məlumatları təhlil edilir və müvafiq hesabatlar (İxtiralarin iddia sənədlərinin mənşə ölkələri üzrə hesabatı; ixtiraların qeydiyyatı, patent sahibinin mənşə ölkəsi üzrə; iddia sənədlərinin verilmə tarixi üzrə; qüvvədə olan ixtira və faydalı modellərin iddia sənədlərinin mənşə ölkələri üzrə hesabatı; faydalı modellərin qeydiyyatı, qüvvədə olan faydalı modellər, sənaye nümunələrin iddia sənədlərinin mənşə ölkələri üzrə hesabatı; iddia sənədlərinin təsnifat sinifləri üzrə hesabatı; sənaye nümunələrin qeydiyyatı, siniflər üzrə; sənaye nümunələrin qeydiyyatı, qüvvədə olan sənaye nümünələri, qeydiyyat ili üzrə; əmtəə nişanların iddia sənədlərinin Əmtəə və xidmətlərin beynəlxalq Nitsa təsnifatının sinifləri üzrə hesabat; əmtəə nişanına dair iddia sənədlərinin mənşə ölkələri üzrə hesabatı; mənşə ölkələri üzrə kollektiv və sertifikasiya nişanları üzrə hesabat; prosedur qaydaları üzrə hesabat; əmtəə nişanların qeydiyyatı; qüvvədə olan əmtəə nişanları; qüvvədə olan kollektiv əmtəə nişanları, qeydiyyat ili üzrə; coğrafi göstəricilərin iddia sənədlərinin sayı üzrə hesabat) ÜƏMT-yə təqdim edilir.

ÜƏMT-nin saytında Azərbaycanın və ÜƏMT-yə daxil olan digər ölkələrin hər birinin özünəməxsus profili olur ki, həmin profil üzərindən dəyişiklikləri izləmək və təhlil etmək mümkündür. Ötən ilin aprel ayında Agentliyin şöbələrinin məlumatları təhlil edilərək ümumiləşdirilmiş və 2022-ci ilin statistik göstəriciləri ÜƏMT-yə göndərilmişdir.

### 3.2. Effektiv patent qeydiyyatı prosedurlarının qurulması və əqli mülkiyyət hüquqları ilə bağlı məlumatlılığın artırılması.

"İxtiraçılıq fəaliyyətinin stimullaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 15 iyun tarixli 1716 nömrəli Fərmanı qəbul edilmişdir. Fərmanın 1-ci hissəsində Azərbaycan Respublikasında ixtiraçılıq fəaliyyətini stimullaşdırmaq və bu sahəyə dövlət dəstəyi göstərmək məqsədilə ixtiraların və faydalı modellərin Patent Əməkdaşlıq Sazişi (PCT) beynəlxalq sistemi vasitəsilə xarici dövlətlərdə patentləşdirilməsi və onların ilk üç il müddətində qüvvədə saxlanılması üçün Azərbaycan Respublikasının vətəndaşı olan hüquq sahiblərinin ödədikləri xərclərin 50 (əlli) faizi dövlət tərəfindən maliyyələşdirilməsi öz əksini tapmışdır. Nazirlər Kabinetinin "İxtiraçılıq fəaliyyətinin stimullaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 15 iyun tarixli 1716 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə" 2022-ci il 24 iyun tarixli 369s nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Agentlik tərəfindən Ədliyyə Nazirliyinin

və Maliyyə Nazirliyinin rəy və təklifləri nəzərə alınmaqla layihəsi Agentlik tərəfindən hazırlanmış “İxtiraların və faydalı modellərin Patent Əməkdaşlıq Sazişi (PCT) beynəlxalq sistemi vasitəsilə xarici dövlətlərdə patentləşdirilməsi və onların ilk üç il müddətində qüvvədə saxlanılması üçün Azərbaycan Respublikasının vətəndaşı olan hüquq sahiblərinin ödədikləri xərclərin 50 (əlli) faizinin dövlət tərəfindən maliyyələşdirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Nazirlər Kabinetinin 2022-ci il 9 dekabr tarixli 439 nömrəli Qərarı qəbul edilmişdir.

Qaydanın qəbul edilməsi, ixtiraçılıq fəaliyyətinin stimullaşdırılmasına, beynəlxalq təşkilatlarda və xarici ölkələrin patent idarələrində ixtiraların Azərbaycan Respublikasının vətəndaşları olan hüquq sahibləri tərəfindən qeydiyyatı və qorunması sənədinin (patent) alınmasına öz müsbət təsirini göstərir.

Beynəlxalq PCT proseduru üzrə iddia sənədlərinin xarici ölkələrdə patentləşdirilməsi üçün Dövlət dəstəyinin təmin edilməsi xahişi ilə rezidentlərdən Agentliyə müraciətlər daxil olmuşdur.

**3.3. Agentlik ölkəmizdə innovativ inkişafın dəstəklənməsi, elm və sənaye arasında bağlantı, qarşılıqlı sifariş və təklif münasibətlərinin yaradılması, ixtiraçılıq fəaliyyətinin artırılması və ixtiraların tətbiqi xarakter daşıması ilə bağlı lazımı tədbirlər həyata keçirir.** Bu çərçivədə sənaye mülkiyyəti sahəsindəki mövcud vəziyyətin öyrənilməsi məqsədilə təhlillər və araşdırmalar aparılır, əqli mülkiyyətin başlıca məqsədlərindən olan investisiyaların cəlb edilməsi və innovasiyaların həyata keçirilməsinə metodiki dəstək göstərilir.

Milli ofis və APT tərəfindən patent verilmiş qüvvədə olan prioritet ixtiraların kommersiyalaşması və tətbiq olunması məqsədi ilə patentlərin sayı çoxluq təşkil edən qurumlar - Elm və Təhsil Nazirliyi, Dövlət Neft Şirkəti üzrə təhlillər aparılmışdır. Araşdırmaların nəticəsi olaraq Elm və Təhsil Nazirliyinin müəssisələrinə aid qüvvədə olan 84, Dövlət Neft Şirkəti müəssisələrinə aid qüvvədə olan 29 ixtira patentləri seçilmişdir. Agentlik tərəfindən həmin patentlərin təfərrüatlı izahlı-arayışı hazırlanaraq, Elm və Təhsil Nazirliyinə və Dövlət Neft Şirkətinə göndərilmiş, onların milli iqtisadiyyatda tətbiqinə və kommersiyalaşmasına yardım göstərilməsinə dair təklif verilmişdir.

Dövlət Neft Şirkətinin 2023-cü il 11 may tarixli cavab məktubunda SOCAR-ın “Neftqazelmitədqiqatlayihə” İnstitutunun Milli ofis və APT üzrə qüvvədə olan 29 ixtira patentlərindən 7-nin hazırda SOCAR-ın istehsalat sahələrində tətbiq olunduğu və bir neçə ixtira patentinin tətbiqini planlaşdırıldığı bildirilmişdir.

**3.4. Azərbaycan beynəlxalq reytinqlərdə.** 2007-ci ildən Kornell Universiteti (ABŞ), INSEAD Biznes Məktəbi (Fransa) və ÜƏMT-nin birgə nəşri olan “Qlobal İnnovasiyalar İndeksi”nin (QİI) 2023-cü ildə sayca 16-cı nəşri ÜƏMT-də prezentasiya edilmişdir. QİI 2023-cü ildə 132 ölkəni əhatə edir.

Cari ilin QİI reytinqi innovasiya fəaliyyətinin potensialı, səmərəliliyi və çərçivə şərtlərini əhatə edən 81 indikator əsasında tərtib edilmişdir. Təhlil edilən indikatorlar qanunvericilik, elm və təhsildən tutmuş bazar, biznes, infrastruktur və s. məsələlərin inkişafına qədər geniş məlumatlar dairəsini ehtiva edir. QİI-nin dərc edilməsinin əsas məqsədi ölkələrin innovasiya fəaliyyətinin mexanizmlərinin səmərəliliyinin qiymətləndirməsinə imkan verməkdən ibarətdir.

QİI-2023 reytinqi innovasiya fəaliyyətinin iki yekunlaşdırıcı - "innovasiya resursları" və "innovasiya nəticələri" alt indekslərə daxil olan 7 qrup indikatordan ibarətdir.

"İnnovativ resurslar" alt indeksi: 1-qurumlar 2-insan kapitalı və elmi tədqiqatlar; 3 - infrastruktur; 4 - daxili bazarın inkişafı və 5 - biznesin inkişafı beş qrupa bölünməklə, innovasiya prosesləri baş verən milli iqtisadiyyatın elementlərini dəyərləndirməyə imkan verir.

"İnnovativ nəticələr" alt indeksi: 6 - bilik və texnologiyaların yayılması və 7 - kreativ fəaliyyətin nəticələri iki qrupa bölünməklə, innovasiya fəaliyyətinin faktiki nəticələrini əks etdirir.

2023-cü ilin QİI-nin lideri İsveçrədir, onun ardınca İsveç, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Sinqapur gəlir. Ən innovativ ölkələrin ilk onluğuna eləcə də Niderland, Koreya, Almaniya, Finlandiya və Danimarka daxildir. Çin, reytinqdə 12-ci yeri alaraq, ikinci onluq ölkələr sırasına daxil olub.

Postsovet məkanı ölkələri arasında ən yaxşı göstəricilər Estoniyada - 16-cı yer, Litvada - 34-cü yer və Latviyadadır - 47-ci yer. Rusiya 51-ci yerdədir.

**2023-cü il reytinqində Azərbaycan 2022-ci illə müqayisədə göstəricilərini dörd pillə yaxşılaşdıraraq 89-cu yerdə qərarlaşıb.** Eyni zamanda qeyd olunmalıdır ki, əgər ötən il Azərbaycan 90-cı yerdən başlayan müqayisəli göstəricilərə malik dövlətlər qrupunda qərarlaşmışdısa, 2023-cü ildə - 85-ci yerdən başlayan dövlətlər qrupundadır.

2023-cü ildə Azərbaycanın “innovasiya resursları” alt indeksi üç pillə yaxşılaşaraq 76-cı yerdədir.

Azərbaycanın güclü tərəfləri kimi QİI-nin tərtibatçı-ekspertləri dövlət idarəetmə orqanlarının rolunu əks etdirən İnstitutlar blokunu qeyd edirlər. İnstitutlar bloku yüksək 42-ci yeri tutur.

Qrumlar blokunda Azərbaycan postsovet dövlətləri məkanında Özbəkistanı (55), Qazaxıstanı (61), Ermənistanı (69), Tacikistanı (90), Moldovanı (96), Ukraynanı (100), Rusiyanı (110), Qırğızıstanı (122), Belarusu (128) qabaqlayır. Bu blokda “institusional mühit” istiqamətini - 54-cü yer (2022-ci ildə - 53-cü yer), eləcə də ötən illə müqayisədə 23 pillə yaxşılaşan “hökumətin səmərəliliyi” göstəricisini - 58-ci yeri- qeyd etmək lazımdır. Bu blokda -“biznes mühiti”- 17-ci və "biznesin aparılması siyasəti" - 22-ci indikatorları yüksək yerlər tuturlar.

İnsan kapitalı və elm bloku MDB ölkələri Özbəkistanı (89), Ermənistanı (92) və Tacikistanı (99) qabaqlayaraq, reytinqdə 87-ci yeri tutur. “İnsan kapitalı və elm” blokunda Azərbaycan təhsil inteqral göstəricisi üzrə 76-cı yerdə qərarlaşıb ki, bu da ötən illə müqayisədə 16 pillə yaxşıdır. Bu sahədə Azərbaycan MDB daxilində Özbəkistanı (78), Tacikistanı (90), Ermənistanı (93) qabaqlayır.

Bu blokda yüksək yerləri “tələbə-müəllim nisbəti” - 17-ci, “tələbələrə dövlət sərmayəsi” - 28-ci, “tədqiqatçılar” - 44-cü yer, “elm və texnologiya sahəsi üzrə məzunlar”- 47-ci yer, indikatorları tutur. “Tədqiqat və inkişaf” üzrə inteqral göstərici 2022-ci ildəki 76-cı yerdən 2023-cü ildə 73-cü yerə yüksələrək, öz mövqeyini yaxşılaşdırıb.

İnfrastruktur blokunda ötən illə (71) müqayisədə “elektrik enerjisinin istehsalı” göstəricisi 4 pillə yaxşılaşmışdır - 67-ci yer.

Daxili Bazarın İnkişafı bloku üçün göstəricilərin əhəmiyyətli hissəsi üzrə məlumat reytinqdə əksini tapmayıb. Biznesin inkişafı bloku aşağıdakı postsovet məkanı ölkələrini qabaqlayaraq, reytinqdə 64-cü yeri tutub: Belarus (74), Qazaxıstan (75), Özbəkistan (78), Ermənistan (94), Moldova (101), Tacikistan (110), Qırğızıstan (114). Biznesin İnkişafı blokunda “Universitetlər və sənaye sahəsi arasında elmi-tədqiqat və təcrübi-konstruktor işləri sahəsində əməkdaşlıq”- 25-ci yer, “klaster inkişafı” - 28-ci yer”- indikatorları yüksək yerləri tuturlar.

“Elmi dərəcəsi olan məşğul qadınlar”, 55-ci yer, (57), “biznesin tədqiqat və işlənmələri maliyyələşdirilməsi” “biznes müəssisələri tərəfindən elmi-tədqiqat və təkmilləşdirmələrə çəkilən xərclər”, 57-ci yer, “əqli fəaliyyət işçiləri” indikatoru, 62-ci yer (65) indikatorları üzrə yerlər yüksəlmişdir. Bu blokda “innovasiya əlaqələri” Azərbaycan 48-ci yeri tutmuş və ötən illə müqayisədə (56-cı yer) reytinqi 8 pillə yaxşılaşdırmışdır.

“İnnovasiya nəticələri” alt indeksi mühüm nəticəvi indeksdir. Əgər “innovasiya resursları” alt indeksi innovasiya üçün əlverişlilik səviyyəsini əks etdirirsə, “innovasiya nəticələri” alt indeksi bu sahədə nailiyyətləri əks etdirir. Bu alt indeks nə qədər yüksək olarsa, bir o qədər innovativ imkanlardan tam və rasional istifadə olunur.

Biliklər və texnologiyaların nəticələri blokunda ixtiralar - 63-cü yer, ötən il 71-ci yer, PCT patentləri - 87-ci yer (91) və faydalı modellər - 49-cu yer (49) kimi əqli mülkiyyət indikatorları nisbətən yüksək yerləri tutur. “Biliyin təsiri” istiqaməti üzrə “əmək məhsuldarlığının artımı” indikatoru 20 pillə yaxşılaşıb - 62-ci yer (82), 48-ci yeri “startapların dəyərləndirilməsi” indikatoru tutur.

“Kreativ fəaliyyətin nəticələri” blokunun “qeyri-maddi aktivlər” istiqamətində “əmtəə nişanları” əqli mülkiyyət indikatoru 66-cı yeri tutaraq, ötən illə müqayisədə tutduğu yeri 14 pillə yaxşılaşdırmışdır. Qeyd etmək lazımdır ki, Azərbaycan üzrə “əmtəə nişanları” indikatoru MDB çərçivəsində Qazaxıstanı (85), Belarusu (88), Tacikistanı (104), Qırğızıstanı (102) qabaqlamışdır.

Eyni zamanda qeyd etmək lazımdır ki, reytinqin bütün indikatorlar kompleksini əhatə edən hər iki alt indeks, “innovasiya resursları” və “innovasiya nəticələri” çox mühüm əhəmiyyətə malikdir. "İnnovasiya nəticələri" və "innovasiya resursları" alt indeksləri qarşılıqlı bağlılıqdadırlar, çünki innovativ nəticələri maddi, maliyyə, intellektual, təşkilati resurslar qoymaqla əldə etmək olar. Azərbaycan müasir institutlar yaradıb, insan kapitalını, elmi və təhsil potensialını inkişaf etdirir, səmərəli biznes modellərini tətbiq edir, İKT sektorunu fəal şəkildə inkişaf etdirir, yəni ölkənin inkişafına mühüm resurslar yatırır ki, onlardan da nəticələr şəklində gözlənilən töhfələr olmalıdır.

Bu isə QİI-nin yaxşılaşdırılması üçün ehtiyatdır. QİI-nin tərtibatçı-ekspertlərinin qeyd etdiyi kimi, “Azərbaycan innovasiyalara investisiya qoyuluşu ilə müqayisədə onların nəticələrindən daha yüksək göstəricilər nümayiş etdirir.

Aşağıdakı cədvəllərdə 2015-2023-cü illər ərzində Agentliyin icraçısı olduğu indikatorlar üzrə dinamikası və Azərbaycanın göstəriciləri verilmişdir:

## Azərbaycan Qlobal İnnovasiyalar İndeksi Hesabatında

*Cədvəl 1*

| GİI İndeksi: 2015-2023-cü illər üzrə | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Göstəricilər | İllər | | | | | | | | |
| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
| **GİI** | 93 | 85 | 82 | = 82 | 84 | 82 | 80 | 93 | 89 |
| **İnnovasiya resursları (input)** | 89 | 81 | 78 | 76 | 77 | 76 | 74 | 79 | 76 |
| **İnnovasiya nəticələri (output)** | 103 | 94 | 89 | 87 | 90 | 86 | 91 | 110 | 104 |
| *Reytinqdə iştirak edən ölkələrin sayı: 2015 -141; 2016.-128; 2017-127: 2018-126; 2019-129; 2020– 131; 2021- 132; 2022-132; 2023-132;* | | | | | | | | | |

*Cədvəl 2*

| Göstəricilər | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Global İnnovation İndex**<br>***- rank***<br>***- value*** | **93<br>30,1** | **85<br>29,6** | **82<br>30,6** | **82<br>30,20** | **84<br>30,21** | **82<br>27,2** | **80<br>28,4** | **93<br>21,5** | **89<br>23,3** |
| 5.2.5. Patent ailələri<br>*- rank*<br>*- value* | 91<br>0,0 | 78<br>0,0 | 74<br>0,1 | 76<br>0,0 | 79<br>0,0 | 93<br>0,0 | 81<br>0,0 | 66<br>0,1 | 95<br>0,0 |
| 6.1.1. Rezidentlərin patent müraciətləri<br>*- rank*<br>*- value* | 61<br>1,0 | 60<br>1,2 | 59<br>1,3 | 60<br>1,1 | 60<br>1,1 | 64<br>1,0 | 56<br>1,3 | 71<br>0,7 | 63<br>0,9 |
| 6.1.2. Rezidentlərin PCT patent müraciətləri<br>*- rank*<br>*- value* | 99<br>0,0 | 94<br>0,0 | 99<br>0,0 | 72<br>0,1 | 67<br>0,1 | 74<br>0,1 | 76<br>0,0 | 91<br>0,0 | 87<br>0,0 |
| 6.1.3. Rezidentlərin faydalı model müraciətləri<br>*- rank*<br>*- value* | 57<br>0,1 | 46<br>0,1 | 46<br>0,1 | 53<br>0,1 | 53<br>0,1 | 50<br>0,2 | 39<br>0,4 | 49<br>0,2 | 49<br>0,2 |
| 7.1.2. Rezidentlərin əmtəə nişanlarının müraciətləri<br>*- rank*<br>*- value* | 77<br>22,4 | 76<br>22,2 | 91<br>16,5 | 91<br>17,0 | 91<br>16,7 | 91<br>21,2 | 80<br>26,0 | 80<br>27,1 | 66<br>35,2 |
| 7.1.4. Rezidentlərin sənaye nümunələrin müraciətləri<br>*- rank*<br>*- value* | 49<br>0,2 | 87<br>0,3 | 107<br>0,1 | 110<br>0,1 | 110<br>0,1 | 92<br>0,3 | 74<br>0,9 | 103<br>0,2 | 88<br>0,4 |

**4. Patent məlumatlarının beynəlxalq göstəriciləri əsasında ölkənin texnoloji profilinin (patent landşaftının) və tədqiqat istiqamətlərinin müəyyən edilməsi və texnologiya inkişaf səviyyəsinin qiymətləndirilməsi.**

**4.1. Ölkənin texnoloji profilinə (patent landşaftına)** dair ötən illərdə aparılmış tədqiqatlar davam etdirilmiş və Azərbaycan rezidentlərinin Beynəlxalq Patent Təsnifatının (BPT) bölmələrinə uyğun qüvvədə olan patentlərinə dair göstəricilərin “Patent Landşaftı” üzrə paylanması araşdırılmış və patent landşaftı tərtib edilmişdir.

Hesabat ilində qüvvədə olan ixtira patentlərinin əksəriyyəti “Kimya və metallurgiya”ya aid olmuşdur: 122 patent (və ya 37,1%). “İnsanın həyati tələbatlarının təmin edilməsi” bölməsinə 55 patent (və ya 16,7%), “Tikinti və dağ-mədən işi” bölməsinə 61 patent (və ya 18,5%) “Fizika” bölməsinə 25 patent (və ya 7,6%) aid olmuşdur.

Qüvvədə olan ixtira patentlərinin təhlilinin nəticələri göstərir ki, ölkədə yeni texnologiyaların drayveri rolunu kimya və metallurgiya, insanın həyati tələbatlarının təmin edilməsi və tikinti və dağ-mədən sahələrinə aid olan ixtiralar oynayır.

**4.2.** Əqli Mülkiyyət Agentliyi Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378

nömrəli Sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulmuş "3.2.1. Fəaliyyət istiqaməti: "İnnovasiya ekosisteminin inkişafı" Tədbir və layihələrin 6-cı "Patent məlumatlarının beynəlxalq göstəriciləri əsasında ölkənin texnoloji profilinin (patent landşaftının) və tədqiqat istiqamətlərinin müəyyən edilməsi və texnologiya inkişaf səviyyəsinin qiymətləndirilməsi" bəndini əsas tutaraq qüvvədə olan ixtira patentlərinin SWOT analizini aparır və beynəlxalq təsnifatlara uyğun Azərbaycan üzrə patent landşaftı tərtib edilmişdir (cədvəl 3).

***Cədvəl 3***

**Azərbaycanda rezidentlərin qüvvədə olan ixtira patentlərinin "Beynəlxalq Patent Təsnifatı" bölmələri, sinifləri üzrə paylanması**

| Bölmə | Siniflər | İxtiraların sayı | | |
|---|---|---|---|---|
| | | Cəmi | Milli ofis | Avrasiya Patent Təşkilatı |
| A. İnsanın həyati tələbatlarının təmin edilməsi | Kənd təsərrüfatı | 12 | 12 | - |
| | Qida məhsulları; tütün | 5 | 3 | 2 |
| | Şəxsi və ev əşyaları | - | - | - |
| | Səhiyyə; xilasetmə xidməti; əyləncə | 30 | 15 | 15 |
| B. Müxtəlif texnoloji proseslər, nəqletmə | Ayırma; qarışdırma | 8 | 6 | 2 |
| | Formalaşma (təşəkkül) | 3 | 2 | 1 |
| | Poliqrafiya | - | - | - |
| | Nəqletmə | 3 | 2 | 1 |
| | Mikrostruktur texnologiyaları; nano-texnologiyalar | 3 | 2 | 1 |
| C. Kimya və metallurgiya | Kimya | 117 | 96 | 21 |
| | Metallurgiya | 9 | 8 | 1 |
| | Kombinasiya edilmiş texnologiya | - | - | - |
| D. Toxuculuq və kağız | Digər siniflərə aid olmayan toxuculuq və ya oxşar elastik materiallar | 1 | 1 | - |
| | Kağız | 1 | 1 | - |
| E. Tikinti və dağ-mədən işi | Tikinti | 6 | 4 | 2 |
| | Torpaq və ya dağ süxurların qazıntısı; mədən işi | 26 | 6 | 20 |
| F. Maşınqayırma; işıqlandırma; isitmə; silah və döyüş sursatı; partlatma işləri | Mühərrik və ya nasoslar | 10 | 8 | 2 |
| | Ümumi maşınqayırma | 4 | 3 | 1 |
| | İşıqlandırma; istitmə | 1 | 1 | - |
| | Silah və döyüş sursatı; partlatma işləri | - | - | - |
| G. Fizika | Cihazlar | 17 | 14 | 3 |
| | Nüvə fizikası və texnikası, və əlaqəli elm sahələri | 1 | 1 | - |
| H. Elektrik | Elektrik | 9 | 9 | - |
| Yekun | | 266 | 194 | 72 |

**5. Əqli mülkiyyətin kommersiyalaşdırılmasına, texnologiyaların transferinə və innovasiyalara dəstək.**

**5.1. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə innovasiya ekosisteminin inkişafı, ixtiraçılıq fəaliyyətinin təşviqi və əqli fəaliyyət nəticələrinin kommersiyalaşdırılması və transferi yolu ilə elm və sənaye arasında bağlantının təmin olunması innovativ inkişafın əsas prioritetlərindən biridir.**

İnnovativ inkişafa və texnoloji nəticələrin tətbiq olunması üzrə imkanların yaradılmasına məsul olan strukturların fəaliyyəti Dövlət başçısı tərəfindən müəyyən edilmiş siyasətdən irəli gələn tendensiya və tələblərə uyğun olmalı, həyata keçirilən islahatlara dəstəyi təmin etməlidir.

Bununla əlaqədar hesabat ilində patent sahibləri və kommersiyalaşma potensialı olan əqli mülkiyyət obyektlərinin vahid bazası yaradılmış, kommersiyalaşdırma potensialı olan əqli mülkiyyət obyektlərinin seçim meyarları müəyyən olunmuş və ən yaxşı ixtiralar seçilərək Türkiyə TechnoFest müsabiqəsində nümayiş etdirilmişdir. Müsabiqənin qızıl, gümüş və bürünc medallarını qazanmış 5 ixtiraçıdan 3-ü "Inmerge Innovation Summit"də iştirak edərək, yarımfinal və final mərhələlərinə yüksəlmişdir.

2023-cü ildə İstanbul şəhərində Türkiyə Sənaye və Texnologiyalar Nazirliyinin, Türkiyə Patent və Əmtəə Nişanları Qurumunun (TÜRKPATENT), həmçinin Beynəlxalq İxtiraçılar Assosiasiyaları Federasiyasının (IFIA) təşkilatçılığı və ÜƏMT və "Türkiyə Texnologiya Komandası"nın dəstəyi ilə keçirilən "ISIF 23: 8-ci İstanbul Beynəlxalq İxtiralar Sərgisi"ndə 5 azərbaycanlı ixtiraçı ölkəmizi layiqincə təmsil etmiş, 1 qızıl, 2 gümüş, 2 bürünc medala və 1 "Ən yaxşı xarici ixtira" sertifikatına layiq görülmüşlər.

Elm və sənaye arasında bağlantının gücləndirilməsi məqsədilə 11 ali təhsil müəssisəsi, müxtəlif elmi-tədqiqat institutları və texnoloji transfer ofisləri ilə iş aparılmış, onlara texnologiyaların kommersiyalaşdırılması ilə bağlı tövsiyələr verilmişdir. Həmçinin qorunma müddəti bitməmiş prioritet ixtiraların kommersiyalaşması və tətbiqinə dair Agentlik tərəfindən Elm və Təhsil Nazirliyi və Dövlət Neft Şirkəti üzrə təhlillər aparılmış, Nazirliyin müəssisələrinə aid 84, Dövlət Neft Şirkətinin müəssisələrinə aid 29 ixtira patentləri üzrə izahlı arayış hazırlanaraq hər iki dövlət qurumuna göndərilmiş, həmin ixtiraların kommersiyalaşdırılması barədə təkliflər verilmişdir. Hazırda ixtira patentlərindən 7-si SOCAR-ın ayrı-ayrı istehsalat sahələrində tətbiq olunur.

Bu istiqamətdə həyata keçirilən tədbirlərə dəstək məqsədilə K.İmanovun müəllifi olduğu "Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzinin yaradılmasına dair Yaddaş kitabçası" (Azərbaycan və rus dillərində) və "Əqli mülkiyyət və elmi-tədqiqat işlərinin kommersiyalaşması" kitabçaları təkrar çap edilərək maraqlı şəxslər arasında yayılmışdır.

Ölkəmizdə innovasiya ekosisteminin inkişafı, ixtiraçılıq fəaliyyətinin təşviqi və əqli fəaliyyət nəticələrinin kommersiyalaşdırılması və transferi yolu ilə elm və sənaye arasında qarşılıqlı bağlantının təmin olunması məqsədilə yaradılmış Agentliyin tabeliyində Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzində hesabat ilində elm və sənaye arasında bağlantı, qarşılıqlı sifariş və təklif münasibətlərinin yaradılmasını, ixtiraçılıq fəaliyyətinin keyfiyyətcə artması və tətbiqi xarakter daşıması üçün texnologiyaların transferini və əqli fəaliyyət nəticələrinin kommersiyalaşdırılmasını həyata keçirən, innovativ inkişafın, o cümlədən startap layihələrin dəstəklənməsinə xidmət edən, elmi tədqiqatların nəticələrinin kommersiya və qeyri-kommersiya məqsədilə istifadəsi üçün transferinə, həmçinin bu nəticələrdən gəlir əldə etməyə yönəldilən, müştərilərə texnologiyaların və layihələrin hədəf bazarlarına çıxarılması xidmətlərinin göstərilməsi istiqamətlərində bir sıra tədbirlər həyata keçirilmişdir.

**5.2. Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzinin işçilərinin biliklərinin artırılması,** o cümlədən Agentliyin və Mərkəzin fəaliyyət istiqamətlərinə uyğun olaraq, texnologiyaların transferi və kommersiyalaşdırılması sahəsində onların həm nəzəri, həm də təcrübi biliklərinin artırılması məqsədilə işlər davam etdirilmişdir. İşçilərə "Texnologiyaların kommersiyalaşdırılması və transferi", habelə "əqli fəaliyyət nəticələrinin qorunması və qiymətləndirilməsi" mövzularda daxili təlimlər keçirilmişdir.

Bundan əlavə, ixtiraçıların məlumatlılığının artırılması məqsədilə müxtəlif formatlı təlim və sərgilərin keçirilməsinə başlanmış, müvafiq araşdırmalar aparılmış və təlim proqramı, sərgiyə çıxarılcaq ixtiraçıların siyahısı və müvafiq iş planları hazırlanmışdır.

"Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq Mərkəzin əsas öhdəliklərindən biri də informasiya ehtiyatlarının yaradılması, informasiya təminatının təşkil edilməsi və bu məlumatlara əlçatanlığın təmin edilməsindən ibarətdir.

Mərkəzin vebsaytının hazırlanması istiqamətində müvafiq tədbirlər həyata keçirilmiş, vebsaytın istifadəçi menyusu və vizual dizaynı ilə bağlı layihə hazırlanmış, istifadəçi menyusunun alt kateqoriyaları müəyyənləşdirilmiş və vebsayt istifadəçilərinin insanların daha rahat interfeyslə qarşılaşmaları təmin edilmişdir. Bununla da vebsaytın təklif olunmuş variantında həm ixtiraçılar, həm investorlar, həm də elmi-tədqiqat və ali təhsil müəssisələrinin nümayəndələri onları maraqlandıran sualların cavabını tapa biləcək və müvafiq sahə ilə bağlı çox rahatlıqla Mərkəzə müraciət edə biləcəklər.

Bundan əlavə, ötən ilin aprel ayında Mərkəzin sosial şəbəkələrdə hesabları yaradılmış və müntəzəm olaraq Agentlik və Mərkəzin fəaliyyəti barədə paylaşımlar edilməkdədir.

**5.3. Elm və sənaye arasında bağlantının təmin olunması üzrə görülmüş işlər.** Müxtəlif ali təhsil müəssisələri və elmi tədqiqat institutları, o cümlədən müstəqil və tabeli texnoloji transfer ofisləri ilə qarşılıqlı əlaqənin təmin olunması məqsədilə hesabat dövründə müvafiq əlaqələrin davam

etdirilməsi və dərinləşdirilməsi istiqamətində işlər görülmüşdür. Bununla əlaqədar 2023-cü ilin yanvar ayından etibarən müxtəlif ali təhsil müəssisələri və elmi tədqiqat institutları ilə əməkdaşlığın müxtəlif istiqamətləri ilə bağlı danışıqlar aparılmış və onların nəzdində texnologiyaların kommersiyalaşdırılması ofislərinin (TKO-ların) yaradılması planlaşdırılmışdır. Hal-hazırda Sumqayıt Dövlət Universitetində TKO-nun yaradılması ilə bağlı danışıqlar aparılır.

Ümumilikdə hesabat dövründə 11 ali təhsil müəssisəsi ilə danışıqlar davam etdirilmiş, onlara Mərkəz tərəfindən hazırlanmış anket-sorğu göndərilmiş və cavablar alınmışdır.

Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı Mühəndislik Universitetinə və Sumqayıt Dövlət Universiteti ilə Mərkəz arasında işçi qaydada görüşlər keçirilmiş, əməkdaşlığın əsas istiqamətləri müəyyənləşdirilmişdir.

Mərkəz tərəfindən texnologiyaların kommersiyalaşdırılması və transferi sahəsində fəaliyyətin stimullaşdırılması və vahid innovasiya ekosisteminin formalaşdırılması istiqamətində üzvlük sisteminin formalaşdırılması ilə bağlı işlər müvafiq hesabat dövründə də davam etdirilmiş və Agentlik və Universitetlərin əməkdaşlığı çərçivəsində yaradılacaq TKO-larla sıx əməkdaşlığın aparılması üçün işlər davam etdirilmişdir.

**5.4. Hüquq sahibləri ilə işin təşkili və kommersiyalaşdırma istiqamətində görülmüş işlər.**

Əqli mülkiyyət hüququnun sahibləri ilə işin təşkili, sıx və qarşılıqlı əlaqələrin təmin olunması məqsədlə, 2023-cü il ərzində patent sahibləri ilə əyani və müxtəlif texniki vasitələrin köməyi ilə sənaye mülkiyyət obyektləri ilə bağlı görüşlər keçirilmişdir. Keçirilmiş görüşlərin nəticəsinə və aparılmış qəymətləndirmələrə əsasən, kommersiyalaşdırılma potensialına malik olan əqli fəaliyyət nəticələri ümumiləşdirilərək vahid məlumat bazasına daxil edilmişdir. Bu görüşlər nəticəsində ilkin olaraq kommersiyalaşdırılma potensialı müəyyənləşdirilmiş aşağıdakı 3 əqli fəaliyyət nəticəsinin kommersiyalaşdırılması sahəsində işlərin davam etdirilməsi nəzərdə tutulmuşdur:

**1. Elastik diş qarnituru** - Ortopedik stomatologiyada hazırlanan protezlərdə dişlərin amortizasiyasını təmin etməklə çeynəmə zamanı çənə və damaq zədələnmələrinin qarşısını alır.

**2. İdman trenajoru qurğusu** - Bu əqli fəaliyyət nəticəsi idman qurğusu olub, ev, ofis və analoji şəraitdə yaydan ibarət köməkçi mexanizm vasitəsilə əzələlərin əsas qrupunun (sinə, qol, kürək, ayaq) məşqi üçün nəzərdə tutulmuşdur. Qurğu turnikdə dartınma, paralel qollarda enib-qalxma, oturub-durma kimi əsas hərəkətlərin yerinə yetirilməsini təmin edir.

**3. Bitki mənşəli homeopatik immunotrop preparat və homeopatik məlhəm -** Bitki mənşəli homeopatik preparat – 5 bitkidən hazırlanan preparat immun sisteminin zəifliyi, maddələr mübadiləsinin pozulması, yaddaş və diqqət pozğunluğu, ferment desifiti və s. problemlərin müalicəsində istifadə üçün yararlıdır. Məlhəmin damcı və qranul şəklində hazırlanması mümükündür.

Bitki mənşəli homeopatik məlhəm - 6 bitki qarışığından ibarət məlhəm səthi yanıqlar, revmatizm, travmatik zədələnmələr, köməkçi vasitə kimi bədxassəli şişlərin və digər xəstəliklərin müalicəsində istifadə oluna bilər.

Hazırda Elastik diş qarniturunun kommmersiyalaşdırılması istiqamətində işlər davam etdirilir. Araşdırmalara əsasən, qurğunun kommersiyalaşdırılması məqsədilə 150.000 manat investisiya tələb edilir. Belə ki, istehsal avadanlıqlarının ölkə ərazisində olmamasını nəzərə alaraq, investisiya həcminin müəyyən edilməsi məqsədilə laboratoriyanın qurulması üçün bir sıra Türk şirkətləri ilə danışıqlar aparılmış, laboratoriyanın qurulması üçün təkliflər alınmışdır. Təkliflər arasında ən ucuz təklif verən türk şirkəti ilə sonradan danışıqlar nəticəsində tələb olunan investisiya məbləği 234.000 manatdan 122.500 manata salınmışdır. Bu məbləğin realizasiya zamanı daha 10-15% aşağı salına biləcəyi ehtimal olunur.

Qurğunun kommersiyalaşma potensialının qiymətləndirilməsi məqsədilə Agentliyin işçiləri, stomatoloq, texnik və pasiyentlər arasında 250-yə yaxın sorğu göndərilmişdir. Bunlardan yalnız 120 nəfər sorğunun cavablandırılmasında iştirak etmişdir. Sorğuya cavab verən şəxslərdən 15%-i Agentliyin işçiləri, 57.5%-i stomatoloq, 15.8%-i texnik, 8.5%-i isə pasiyentdir.

Agentliyin Aparatından yönləndirilmiş əqli fəaliyyət nəticələri olan vətəndaşlarla da işçi qaydada görüşlər keçirilmiş, onları maraqlandıran suallar cavablandırılmış, çətinlikləri aradan qaldırılmış və müvafiq sahədə işlərə davam etmələri üçün təşviq edilmişdir.

Bundan əlavə, gənc ixtiraçılar, yenilikçi ideyalara malik şagirdlərlə əlaqələr qurulmuşdur. Belə ki, “Sabahın Alimləri” müsabiqəsinin müxtəlif illərdə uğur qazanmış şagirdləri ilə işçi qaydada danışıqlar aparılmış, həmçinin müvafiq sahədə marağı olan bu şagirdlərin valideynləri və elmi rəhbərləri ilə də

əlaqələr yaradılmışdır. Mövcud danışıqlar və işçi qaydada aparılmış görüşlər nəticəsində vahid məlumat bazası yaradılmış və oraya 26 əqli fəaliyyət nəticəsi daxil edilmişdir. Mərkəzin fəaliyyət istiqamətlərindən biri olan ixtiraçıların texnologiyaların kommersiyalaşdırılması və transferi sahəsinə təşviqi prioritet məsələ kimi qəbul edilmişdir.

Planlaşdırlan sərgilər də daxil olmaqla fəaliyyət proqramları və həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin böyük əksəriyyəti ixtiraçıların müvafiq sahə ilə bağlı maarifləndirilməsinə xidmət etməkdədir. Bu istiqamətdə müəyyənləşdirilmiş tədbirlər aşağıdakı üç fərqli istiqamətdə davamlı təlim və mentorluq proqramlarının təşkilidir:

**a) birinci istiqamət** ixtiraçıların, startap və spinautların əqli mülkiyyət və texnologiyaların kommersiyalaşdırılması və transferi sahələrində savadlılığının artırılması;

**b) ikinci istiqamət** ali təhsil müəssisələrindəki tələbələrin və gənc tədqiqatçıların müvafiq sahədə savadlılığının artırılması;

**c) üçüncü istiqamət** isə orta təhsil müəssisələrinin şagirdlərinin əqli mülkiyyət hüququnun etik və əxlaqi motivləri ilə bağlı (əqli mülkiyyət hüquqlarının pozulmaması, pirat və ya kontrafakt məhsulların alınmasından çəkinmə, yaradıcılığın təşfiqi və s.) maarifləndirilməsi.

Seçilən və kommersiyalaşdırılan ixtiraların mükafatlandırılmasına dəstək məqsədilə texnoloji innovasiyalar sahəsində verilən beynəlxalq və yerli mükafatlarla bağlı ixtiraçıları məlumatlandırmış və ixtiraçılardan bəziləri artıq beynəlxalq və yerli mükafatlar qazanmışdır. Qeyd edilən məlumatdırmanın əsas məqsədi, ixtiraçılığın təşviq edilməsi olmuşdur.

**5.5. Patent sahiblərinin və kommersiyalşma potensialı olan əqli mülkiyyət obyektlərinin vahid bazasının yaradılması və bunun üçün seçim meyarlarının müəyyən edilməsi istiqamətində görülən işlər.**

Əqli mülkiyyət hüququnun sahibləri ilə işin təşkili, sıx və qarşılıqlı əlaqələrin təmin olunması Mərkəzin əsas fəaliyyət prinsiplərindən birini təşkil edir. Bu məqsədlə, hesabat ilində 47 patent sahibi ilə əyani və müxtəlif texniki vasitələrin köməyi ilə 87 sənaye mülkiyyət obyekti ilə bağlı görüş keçirilmişdir. Qeyd olunan sənaye mülkiyyət obyektlərinin 62-si ixtira, 25-i faydalı modeldir.

Keçirilmiş görüşlərin nəticəsinə və aparılmış dəyərləndirmələrə əsasən, kommersiyalaşdırılma potensialına malik olan əqli fəaliyyət nəticələri müəyyənləşdirilərək vahid məlumat bazasına daxil edilmişdir. Bundan əlavə, layihələrin kommersiyalaşdırılması portfelinin keyfiyyətinin artırılması məqsədilə, Mərkəz Agentliklə birlikdə seçim kriteriyalarının təkmilləşdirilməsi istiqamətində işləri davam etdirməkdədir.

**6. Əqli mülkiyyət hüquqlarının obyektlərinin qeydiyyatı.**

2023-cü il ərzində Agentliyin Hüquq, apellyasiya və sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı şöbəsi tərəfindən qüvvədə olan mövcud qanunvericiliyə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq saziş və müqavilələrə uyğun olaraq sənaye mülkiyyəti obyektlərinin dövlət qeydiyyatı, müvafiq mühafizə sənədlərinin verilməsi, onların qüvvədə saxlanılması, sənaye mülkiyyəti obyektlərinin dövlət reyestrinin aparılması, dövlət reyestrində və şəhadətnamədə qeydiyyatla bağlı məlumatlarda dəyişikliklərin edilməsi və müvafiq bildirişlərin verilməsi, dublikatların verilməsi, reyestr məlumatlarından çıxarışların verilməsi, sənaye mülkiyyəti obyektləri üzrə hüquqların digər şəxslərə verilməsinə dair müqavilələrin, istifadə hüququnun verilməsi ilə bağlı lisenziya müqavilələrinin qeydiyyatına dair işlər həyata keçirilmişdir.

Hesabat dövründə Azərbaycan Respublikası ilə beynəlxalq təşkilatlardan ÜƏMT, Avropa Patent İdarəsi, APİ və bir sıra xarici ölkələrin patent strukturları ilə əməkdaşlıq əlaqələri inkişaf etdirilmişdir.

Carı il ərzində Hüquq, apellyasiya və sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı şöbəsinin Qeydiyyat sektoruna 7159 ədəd məktub daxil olmuşdur.

**6.1. İxtira, faydalı model və sənaye nümunəsi üzrə. Sənaye mülkiyyəti sahəsində dövlət xidmətlərinin yekunları ilə bağlı.** 2023-cü ildə ixtira, faydalı model və sənaye nümunəsinin patentləşdirilməsinə dair Agentliyə **302** iddia sənədi (2022-ci ildə **271** iddia sənədi), o cümlədən ixtiraya aid **201,** faydalı modelə aid **67**, sənaye nümunəsinə aid **34** iddia sənədi daxil olmuşdur**. Bu isə patentləşdirilmə üçün daxil olmuş iddia sənədlərinin sayı (ixtira fəallığı) 2022-ci illə müqayisədə 2023-cü ildə 11% artmışdır.**

PCT proseduru üzrə Beynəlxalq Büroya göndərilməsi üçün Agentliyə ixtiraya dair **6** beynəlxalq iddia sənədi və Avrasiya Patent İdarəsinə göndərilməsi üçün **35** iddia sənədi daxil olmuşdur. PCT proseduru üzrə ÜƏMT-nin Beynəlxalq Bürosundan isə ixtiraya dair **30** və faydalı modelə dair **1 (bir)**

iddia sənədi daxil olmuşdur.

Hüquqların növləri üzrə daxil olan iddia sənədləri, iddia sənədləri üzrə qanunvericilikdə müəyyən edilmiş qaydada iddiaçılara və digər maraqlı şəxslərə göndərilən (verilən) bildirişlərə, sorğulara və arayışlara dair statistik məlumatlar aşağıda Cədvəl 1-də verilmişdir:

**İxtira, faydalı model və sənaye nümunəsinin qeydiyyatı ilə bağlı iddia sənədləri barədə məlumat**

*Cədvəl 1*

| № | Hüquqların növləri üzrə hüquqi hərkətlər | Milli iddia sənədləri | | | PCT proseduru üzrə göndərilmək üçün milli iddia sənədləri | APT-yə göndərilmək üçün milli iddia sənədləri |
|---|---|---|---|---|---|---|
| | | İxtira | Faydalı model | Sənaye nümunəsi | | |
| | **İLKİN EKSPERTİZA ÜZRƏ** | | | | | |
| 1. | Daxil olan iddia sənədlərinin sayı | **201** | **67** | **34** | **6** | **35** |
| 2. | İlkin ekspertizanın müsbət nəticəsi haqqında bildiriş verilmiş iddia sənədlərinin sayı | **176** | **69** | **20** | | |
| 3. | İddia sənədlərinə verilmiş sorğuların sayı | **177** | **45** | **35** | | **2** |
| 4. | Kargüzarlığı dayandırılmış iddia sənədlərinin sayı | **29** | **10** | **16** | **3** | **1** |
| 5. | İddia sənədlərinə verilmiş müxtəlif növ (düzəlişlərin, dəyişilliklərin ödənişlərin edilməsi barədə) bildirişlərin sayı | **220** | **47** | **41** | **10** | **25** |
| 6. | İddia sənədlərinə dair aparılan axtarışların sayı | **52** | **6** | **165** | | |
| 7. | Hazırlanmış və BB-ya və ya AAPİ-yə göndərilmiş iddia sənədləri | | | | **3** | **31** |
| | **MAHİYYƏTCƏ EKSPERTİZA ÜZRƏ** | | | | | |
| 8. | Məlumatın dərci haqqında iddia sənədlərinə verilmiş rəy(qərar)ların sayı | **108** | **33** | **15** | | |
| 9. | İddia sənədllərinə verilmiş sorğularının sayı | **174** | **23** | **6** | | |
| 10. | Patent verilməsindən imtina haqqında qərarların sayı | **2** | **0** | **6** | | |
| 11. | Kargüzarlığı dayandırılmış iddia sənədlərinin sayı | **43** | **4** | **2** | | |
| 12. | İddia sədlərinə verilmiş müxtəlif növ (düzəlişlərin,dəyişilliklərin ödənişlərin edilməsi) bildirişlərin sayı | **45** | **8** | **12** | | |
| 13. | İddia sənədinin ixtiradan faydalı modelə çevrilməsi haqqında verilmiş bildirişlərin sayı | **14** | | | | |

***Beynəlxalq sənaye nümunələri üzrə iddia sənədlərinin sayı***

**Cəmi:** *ekspertizası müsbət nəticələnmiş iddia sənədlərinin sayı -* **184**
*ekspertizası imtina ilə nəticələnmiş iddia sənədlərinin sayı -* ***0***
*ekspertizası davam etdirilən iddia sənədlərinin sayı -* ***17***

Hesabat dövründə Agentliyə ixtiranın qeydiyyatı ilə bağlı **31** xarici iddia sənədi daxil olmuşdur ki, bunlardan **30** iddia sənədi PCT proseduru üzrə, faydalı modelin qeydiyyatı ilə bağlı isə **8** iddia xarici iddia sənədi daxil olmuşdur ki, bunlardan **1** iddia sənədi PCT proseduru üzrə daxil olmuşdur.

PCT proseduru üzrə Beynəlxalq Büroya ixtitaya dair **3** iddia sənədi, APT-yə ixtiraya dair **31** iddia sənədi göndərilmişdir.

Haaqa proseduru üzrə beynəlxalq sənaye nümunələrinə dair **184** iddia sənədinə dair axtarış aparılmış və axtarışı müsbət nəticələnmiş **184** iddia sənədi Agentliyin "Sənaye mülkiyyəti" bülletenində dərc edilmişdir.

İxtira səviyyəsinə dair tələblər ödənilmədiyinə görə qeydiyyat üçün təqdim edilmiş qurğuya aid **14** iddia sənədi iddiaçının vəsatəti əsasında “Patent haqqında” Azərbaycan Respublikası Qanununun 29-cu maddəsinin 9-cu hissəsinə uyğun olaraq ixtiradan faydalı modelə çevrilmişdir.

Hesabat dövründə Agentliyə ixtira və faydalı modellərin qeydiyyatı ilə bağlı PCT proseduru üzrə ixtiraya dair **30,** faydalı modelə dair **1** iddia sənədi və konvensiya ilkinliyi üzrə ixtiraya dair **0**, faydalı modelə dair **7** xarici iddia sənədi daxil olmuşdur. PCT proseduru üzrə Beynəlxalq Büroya ixtitaya dair **3** iddia sənədi, APT-yə ixtiraya dair **31** iddia sənədi göndərilmişdir.

**6.2. Əmtəə nişanları və coğrafi göstəricilər üzrə.** Hesabat ilində kargüzarlıqda olan iddia sənədləri üzərində ekspertiza aparılaraq əmtəə nişanlarına dair 5786 ədəd ilkin ekspertiza bildirişi, 3431 ədəd iddia sənədinin baxılmağa qəbul edilməsi haqqında arayış, 546 ədəd ekspertiza sorğusu, 759 ədəd iddia sənədinin geri çağırılması və verilməmiş sayılması haqqında bildiriş, 3042 ədəd əmtəə nişanının qeydiyyata alınması haqqında rəy (qərar), 830 ədəd əmtəə nişanının qeydiyyatından imtina haqqında rədd bildirişi, 737 ədəd əmtəə nişanının qeydiyyatından imtina haqqında rədd rəy (qərar), coğrafi göstəriciyə dair 1 ədəd ilkin ekspertiza bildirişi, coğrafi göstəricinin baxılmağa qəbul edilməsi haqqında 1 ədəd arayış, coğrafi göstəricinin qeydiyyatından imtina haqqında 3 ədəd rədd bildirişi, coğrafi göstəricinin qeydiyyatından imtina haqqında 3 ədəd rədd qərarı, coğrafi göstəriciyə dair iddia sənədinin geri çağırılması və verilməmiş sayılması haqqında 1 ədəd bildiriş tərtib edilərək iddiaçılara təqdim edilmişdir.

***Cədvəl 2***

| ***Əmtəə nişanlarının qeydiyyata alınması ilə bağlı daxil olan iddia sənədləri üzrə görülən işlər*** | ***Coğrafi göstəricinin qeydiyyata alınması ilə bağlı daxil olan iddia sənədləri üzrə görülən işlər*** |
|---|---|
| **Cəmi daxil olub - 3862** *(yanvar ayının 8-nə olan məlumat)*, **o cümlədən sürətli işlərin sayı - 1474**<br>*ekspertizası müsbət nəticələnmiş iddia sənədlərinin sayı -* ***3042*** *(2022 və 2023-cü ildə hesabat tarixinə daxil olan iddia sənədləri üzrə yanvar ayının 8-ə olan məlumat)*<br>*2981 qeydiyyat haqqında qərardan* ***<u>1885</u>*** *2023-cü ildə daxil olmuş iddia sənədləri üzrə müsbət nəticələnmiş ekspertizaya aiddir*<br>*ekspertizası imtina ilə nəticələnmiş iddia sənədlərinin sayı -* ***737*** *(2022 və 2023-cü ildə hesabat tarixinə daxil olan iddia sənədləri üzrə yanvar ayının 8-olan məlumat)*<br>*737 imtina haqqında qərardan* ***<u>410</u>*** *2023-cü ildə daxil olmuş iddia sənədləri üzrə imtina ilə nəticələnmiş ekspertizaya aiddir*<br>İmtina haqında Bildiriş - **830 ədəd**<br>Bildiriş - **5786 ədəd** (ilkin ekspertiza)<br>Arayış - **3431 ədəd** (ilkin ekspertiza)<br>İddia sənədinin geri çağırılması və verilməmiş sayılması haqqında bildiriş - **759 ədəd** (ilkin ekspertiza **(695)** və mahiyyət üzrə ekspertiza **(64)** | **Cəmi daxil olub – 0** *(yanvar ayının 8-nə olan məlumat)*<br>Bildiriş- **1 ədəd** (ilkin ekspertiza)<br>Arayış- **1 ədəd** (ilkin ekspertiza)<br>İddia sənədinin geri çağırılması haqqında bildiriş - **1 ədəd** (ilkin ekspertiza üzrə )<br>İmtina haqında Bildiriş-**3 ədəd**<br>ekspertizası imtina ilə nəticələnmiş iddia sənədlərinin sayı –**3 ədəd** |

**6.3. Beynəlxalq əmtəə nişanları üzrə.** Əmtəə nişanlarının beynəlxalq qeydiyyatına dair Madrid sazişi və ona dair protokol üzrə 2023-ci illin yanvar ayından noyabr ayının 28 kimi ümumilikdə **3314 ədəd** bildiriş daxil olmuşdur. İcraatda olan **4496 ədəd** bildiriş üzrə (2022-ci il və 2023-cü ilin yanvar ayına qədər daxil olmuş bildirşlər) Azərbaycanda hüquqi mühafizə verilməsi üçün əmtəə nişanının ekspertizası aparılmışdır. Onlardan **317 ədəd** əmtəə nişanının qeydiyyatına **(tam və ya qismən)** dair imtina qərarları, **64 ədəd** əmtəə nişanı barəsində tərkibində olan müəyyən elementlərə hüquqi mühafizə verilməməsi şərtilə qeydiyyata alınması haqqında qərarlar tərtib edilərək, ÜƏMT-yə göndərilmişdir. 2023-cü ildə yerli iddiaçılar tərəfindən beynəlxalq qeydiyyat üçün **17 ədəd** iddia sənədi təqdim olunmuşdur. İddia sənədlərinin tələblərə uyğun doldurulması yoxlanılmış və Nazirlər Kabinetinin 2019-cu il 27 may tarixli 247

saylı qərarı ilə müəyyən olunmuş haqq ödənildikdən sonra həmin iddia sənədləri ÜƏMT-nin Beynəlxalq Bürosuna göndərilmişdir.

***Cədvəl 3***

***Beynəlxalq əmtəə nişanları üzrə iddia sənədləri barədə məlumat***

**2023-cü il ərzində daxil olan iddia sənədləri nin sayı - 3314**
*(2023-cü ilin yanvar ayının 8-ə olan məlumat)*

**Ekspertizası aparılmış iddia sənədləri nin sayı - 4496**
*(2022 və 2023-cü ildə hesabat tarixinə yanvar ayının 8-ə kimi daxil olan iddia sənədləri üzrə olan məlumat)*

**Hesabat dövründə ekspertizası tam və ya qismən imtina ilə nəticələnmiş iddia sənədləri nin sayı - 317**

**Tərkibində olan müəyyən elementlərə hüquqi mühafizə verilməməsi şərtilə ekspertizası müsbət nəticələnmiş iddia sənədlərinin sayı – *64***

**6.4. Sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı və dövlət reyestrinə daxil edilməsi.**

2023-cü il ərzində müvafiq Dövlət reyestrində **ixtiralara dair** 103 ədəd patent qeydiyyata alınıb, onlardan **87** ədədi milli, **16** ədədi isə xarici hüquqi şəxslərə məxsus olmuşdur.




Cədvəllərdə və diaqramda 2023-cü ildə ixtiraya dair qeydiyyatdan keçmiş patentləri, onların Beynəlxalq patent təsnifatının sinifləri üzrə və ixtiraların sahiblərinin mənsub olduğu ölkələr üzrə paylanması göstərilmişdir.

| BPT-nin bölməsi | | İxtiralara dair patentlərin sayı | |
|---|---|---|---|
| | | 2023 | |
| | | milli | xarici |
| A | İnsanın həyatı tələbatlarının təmin edilməsi | 11 | - |
| B | Müxtəlif texnoloji proseslər; nəqletmə | 4 | 2 |
| C | Kimya; metallurgiya | 46 | 1 |
| D | Toxuculuq; kağız | 1 | - |
| E | Tikinti və dağ-mədən işləri | 11 | 10 |
| F | Maşınqayırma, işıqlanma, isitmə, silah və sürsat, partlama işləri | 6 | 2 |
| G | Fizika | 5 | 1 |
| H | Elektrik | 3 | - |
| **Cəmi** | | **87** | **16** |

| Ölkələr | Ölkənin kodu | İxtiralara dair patentlərin sayı |
|---|---|---|
| | | 2023 |
| Azərbaycan Respublikası | AZ | 87 |
| Niderland | NL | 9 |
| Türkiyə | TR | 2 |
| ABŞ | US | 2 |
| İrlandiya | IL | 1 |
| Cənubi Koreya | KR | 1 |
| İtaliya | IT | 1 |
| Cəmi | | 103 |

## FAYDALI MODELLƏR

Faydalı modellərə dair 2023-cü il ərzində 36 ədəd patent qeydiyyata alınıb. Onlardan 30 ədədi milli, 6 ədədi isə xarici hüquqi şəxslərə məxsus olmuşdur. **2022-ci ildə** faydalı modellərə dair 31 (onlardan 21 milli, 10 xarici) patent verilmişdir. **2022-ci illə müqayisədə faydalı modellərin qeydiyyata alınmasında 5 ədəd artım olmuşdur.**

Cədvəl və diaqramda 2023-cü ildə faydalı modelə dair qeydiyyatdan keçmiş patentlər və onların Beynəlxalq patent təsnifatının sinifləri üzrə paylanması göstərilmişdir.




| BPT | Faydalı modellərə dair patentlərin sayı | |
|---|---|---|
| | 2023 | |
| | milli | xarici |
| A | 3 | - |
| B | 1 | 1 |
| E | 16 | - |
| F | 6 | - |
| H | 2 | - |
| G | 2 | 5 |
| Cəmi | 30 | 6 |



# SƏNAYE NÜMUNƏLƏRİ

Sənaye nümunələrinə dair 12 ədəd patent qeydiyyata alınıb, onlardan 6 ədədi milli, 6 ədədi isə xarici hüquqi şəxslərə məxsus olmuşdur. **2022-ci ildə** sənaye nümunələrinə dair 22 (onlardan 12 milli, 10 xarici) patent verilmişdir. **2022-ci illə müqayisədə faydalı modellərin qeydiyyata alınması sayı bərabər olmuşdur.**

Cədvəllərdə və diaqramda 2023-cü ildə sənaye nümunəsinə dair qeydiyyatdan keçmiş patentlər və onların Sənaye nümunələrinin beynəlxalq təsnifatının sinifləri üzrə və sənaye nümunələrin sahiblərinin mənsub olduğu ölkələr üzrə paylanması göstərilmişdir.




| SNBT | Sənaye nümunələrinə dair patentlərin sayı | |
|---|---|---|
| | 2023 | |
| | milli | xarici |
| 07 | **-** | **1** |
| 09 | **4** | **4** |
| 12 | **-** | **1** |
| 25 | **2** | **-** |
| **Cəmi** | 6 | 6 |




| Ölkələr | Olkənin kodu | Sənaye nümunələrinə dair patentlərin sayı |
|---|---|---|
| | | 2023 |
| **Azərbaycan Respublikası** | **AZ** | **6** |
| **Türkiyə** | **TR** | **3** |
| **Rusiya Federasiyası** | **RU** | **1** |
| **Birləşmiş Ərəb Əmirlikləri** | **AE** | **1** |
| **Çin Xalq Respublikası** | **CN** | **1** |
| Cəmi | | 12 |

Patent Əməkdaşlıq Sazişi (PCT) beynəlxalq sistemi vasitəsilə xarici dövlətlərdə patentləşdirilməsi üçün Beynəlxalq Büroya göndərilmiş ixtiraya aid 2 iddia sənədi milli faza mərhələsində 2023-cü ildə qeydiyyata alınıb, o cümlədən patent ailəsini təşkil edən həmin iddia sənədlərindən biri APİ-də qeydiyyata alınıb.

Ümumilikdə isə 2018-2023-cü illər üzrə ölkəmizdən PCT beynəlxalq sistemi vasitəsilə xarici dövlətlərdə patentləşdirilməsi üçün patent ailəsinə daxil olan ixtira və faydalı modelə dair **18** iddia sənədi müxtəlif ölkələrdə və regional patent təşkilatlarında, o cümlədən 4 iddia sənədi APİ-də, 1 iddia sənədi ABŞ Patent və Əmtəə Nişanları Ofisi və APİ-də, 3 iddia sənədi APT-də, 2 iddia sənədi Almaniya Patent Ofisində, 1 iddia sənədi ABŞ Patent və Əmtəə Nişanları Ofisi və Avropa Patent Təşkilatında, 1 iddia sənədi Türkiyə Patent İdarəsi (TÜRKPATENT) və ROSPATENT-də, 3 iddia sənədi ROSPATENT-də və 2 iddia sənədi Azərbaycanda qeydiyyata alınıb.

Göstərilən dövrdə APİ-yə göndərilmiş **195** iddia sənədi üzrə **171** patent, o cümlədən 2023-cü ildə **54** patent verilib.

Patent Əməkdaşlıq Sazişi (PCT) beynəlxalq sistemi vasitəsilə xarici dövlətlərdə patentləşdirilməsi üçün Beynəlxalq Büroya göndərilmiş ixtiraya aid 2 iddia sənədi milli faza mərhələsində 2023-cü ildə qeydiyyata alınıb, o cümlədən patent ailəsini təşkil edən həmin iddia sənədlərindən biri APİ-də qeydiyyata alınıb.

## ƏMTƏƏ NIŞANLARI

Hesabat dövründə müvafiq Dövlət reyestrində 3145 ədəd **əmtəə nişanı** qeydiyyata alınmışdır, onlardan 2541 ədədi milli, 604 ədədi isə xarici fiziki və hüquqi şəxslərə məxsus olmuşdur. 2022-ci ildə müvafiq Dövlət Reyestrində qeydiyyata alınmış 2927 əmtəə nişanından 2208-i milli, 719-u isə xarici fiziki və hüquqi şəxslərə məxsus olmuşdu. **2022-ci illə müqayisədə əmtəə nişanlarının qeydiyyata alınmasında 218 ədəd, milli fiziki və hüquqi şəxslərdə 333 ədəd artım olmuşdur.**



2023-cü ildə əmtəə nişanlara dair qeydiyyatdan keçmiş əmtəə nişanlarının sahiblərininn mənsub olduğu ölkələr üzrə məlumatlar cədvəl və diaqramda göstərilmişdir.

| Sıra №-si | Ölkələr | Ölkənin kodu | Qeydiyyata alınmış əmtəə nişanlarının sayı |
|---|---|---|---|
| | | | 2023 |
| 1. | Azərbaycan Respublikası | AZ | 2541 |
| 2. | Birləşmiş Ərəb Əmirlikləri | AE | 50 |
| 3. | Bosniya və Herseqovina | BA | 1 |
| 4. | Belarus | BY | 1 |
| 5. | İsveçrə Konfederasiyası | CH | 18 |
| 6. | Çin Xalq Respublikası | CN | 54 |
| 7. | Kanada | CA | - |
| 8. | Almaniya Federativ Respublikası | DE | 11 |
| 9. | Danimarka Krallığı | DK | 7 |
| 10. | İspaniya Krallığı | ES | 4 |
| 11. | Fransa | FR | 14 |
| 12. | Böyük Britaniya | GB | 47 |
| 13. | Gürcüstan | GE | 8 |
| 14. | Yunanıstan | GR | 1 |
| 15. | Kipr | CY | 8 |
| 16. | Xorvatiya | HR | 9 |
| 17. | İrlandiya | IE | 7 |
| 18. | Hindistan | IN | 18 |
| 19. | İran | IR | 1 |
| 20. | İtaliya | IT | 3 |
| 21. | İordaniya | JO | 2 |
| 22. | Yaponiya | JP | 34 |
| 23. | Koreya Respublikası | KR | 14 |
| 24. | Qazaxıstan | KZ | 2 |
| 25. | Qırğızıstan | KG | 4 |
| 26. | Şri-Lanka | LK | 3 |
| 27. | Livan | LB | 1 |
| 28. | Litva | LT | 2 |
| 29. | Meksika | MX | 1 |
| 30. | Niderland | NL | 5 |
| 31. | Polşa | PL | 7 |
| 32. | Rusiya Federasiyası | RU | 30 |
| 33. | Səudiyyə Ərəbistanı | SA | 6 |
| 34. | İsveç | SE | 3 |
| 35. | Sinqapur | SG | 9 |
| 36. | San-Marino | SM | 12 |
| 37. | Honq-Konq | HK | 9 |
| 38. | Türkiyə | TR | 50 |
| 39. | Tayvan | TW | 1 |
| 40. | Ukrayna | UA | 1 |
| 41. | ABŞ | US | 125 |
| 42. | Virgin Adaları | VG | 2 |
| 43. | Kolumbiya | CO | 2 |
| 44. | Avstriya | AT | 2 |
| 45. | Avstraliya | AU | 1 |
| 46. | Pakistan | PK | 1 |
| 47. | Braziliya | BR | 1 |
| 48. | Qətər | QA | 2 |
| 49. | Birləşmiş Krallıq | UK | 6 |
| 50. | Malayziya | MY | 2 |
| 51. | Macarıstan | HU | 1 |
| 52. | İraq | IQ | 1 |
| | Cəmi | | 3145 |




## ÇOĞRAFİ GÖSTƏRİCİLƏR

Hesabat dövründə Coğrafi göstəricilərin Dövlət reyestrində milli hüquqi şəxslərə məxsus 2 ədəd coğrafi göstəricisi qeydiyyata alınmışdır. Qarabağ bölgəsində işğaldan azad edilmiş torpaqlarımızın reinteqrasiyası və genişmiqyaslı quruculuq işləri ilə bağlı bu ərazilərdə olan coğrafi göstəricilərin qeydiyyata alınması istiqamətində işlər davam etdirilir.

Hesabat dövründə patentlərin qüvvədə olma müddətinin uzadılması barədə 414 ədəd (2022-ci ildə 391 ədəd), şəhadətnamələrin qüvvədə olma müddətinin uzadılması barədə 769 ədəd (2022-ci ildə 698 ədəd), əmtəə nişanlarına dair - 1548 ədəd (2022-ci ildə 468 ədəd) və patentlərə dair-2 ədəd (2022-ci ildə 5 ədəd) dəyişiklər edilməsi haqqında bildiriş qeydiyyata alınmışdır, 34 ədəd (2022-ci ildə 59 ədəd) dublikat, 84 ədəd (2022-ci ildə 130 ədəd) çıxarış verilmişdir və 138 ədəd (2022-ci ildə 63 ədəd) sorğular göndərilmişdir.

Sənaye mülkiyyəti obyektləri üzrə 128 müqavilə qeydiyyata alınmışdır. Onlardan 105-i əmtəə nişanları üzrə hüquqların verilməsinə (413 əmtəə nişanına dair), 21-i əmtəə nişanları üzrə istifadə hüququna dair lisenziya verilməsinə (62 əmtəə nişanına dair (2022-ci ildə 12)), 2-i (2022-ci ildə 3-ü) patent üzrə hüquqların verilməsinə dair (2 patent üzrə (2022-ci ildə 8)) aiddir.

**5.3. Müəllif hüquqları sahəsində dövlət xidmətlərinin illik yekunları.** Hesabat ilində 386 müəllifin (hüquq sahibinin) **713** əsəri qeydiyyatdan keçirilmiş (2022-ci illə müqayisədə **20%** çox) və əsərin qeydiyyatı haqqında **717** şəhadətnamə verilmişdir. O cümlədən “Elektron xidmət” bölməsi vasitəsilə **324** müəllif (hüquq sahibi) tərəfindən **626** əsər qeydiyyatdan keçirilmişdir (2022-ci ildə elektron qaydada **131** müəllifə məxsus **169** əsər qeydiyyata alınmışdır) ki, bu da keçən illə müqayisədə **73%** çoxdur.

Əlaqəli hüquqların obyektləri üzrə **162** ifa (2022-ci ildə **46** ifa) və **37** kompüter proqramı (2022-ci ildə **18** kompüter proqramı) qeydiyyata alınmışdır.

**2022-2023-cü illər ərzində qeydiyyatdan keçirilmiş əsərləri haqqında müqayisəli məlumatlar**




**O cümlədən elektron qaydada qeydiyyatdan keçirilimiş əsərləri haqqında məlumat.**




**1996-2023-cü illərdə qeydiyyatdan keçirilmiş əsərlərin ümumi sayı (faizlə) (on-line qeydiyyat daxil olmaqla)**




| | | | |
|---|---|---|---|
| ▶ | Ədəbi əsərlər və kompüter roqramları | 4 417 | 28,37% |
| ▶ | Mətnli və mətnsiz musiqi və musiqili dram əsərləri | 4 169 | 26,77% |
| ▶ | Elmi əsərlər və dərs vəsaitləri | 3 017 | 19,37% |
| ▶ | Dizayn və digər təsviri və dekorativ tədbiqi sənət əsərləri | 991 | 6,36% |
| ▶ | Törəmə əsərlər və toplular (tərtibat əsərləri) | 875 | 5,62% |
| ▶ | Digər | 1 633 | 10,20% |

Əsərlərin rəsmi qeydiyyatının tətbiq edildiyi 1996-cı ildən 2023-cü il 31 dekabr tarixinədək Agentlikdə **15566** əsər və əlaqəli hüquqların obyektləri (bunlardan **1582** əsər "Elektron xidmət" bölməsi vasitəsilə) qeydiyyatdan keçirilmişdir.

**6. Kreativ sənaye.** Kreativ sənaye dünya ölkələrinin, o cümlədən ölkəmizin ümumi iqtisadiyyatında mühüm paya malikdir. Hesabat dövründə müəllif hüququna əsaslanan (kreativ sənaye) 2023-ci ilin 1 yanvar tarixinə olan vəziyyətə görə milli iqtisadiyyat sahələri üzrə faktiki statistik göstəricilər və dövlət büdcəsi rəqəmləri toplanmış və təhlil edilmişdir. Müəllif hüququna əsaslanan milli iqtisadiyyat sahələrində istehsalın həcmi müəyyən edildikdən sonra, bu sahələrin ölkə üzrə ümumi daxili məhsulda (ÜDM) xüsusi çəkisi hesablanmışdır. 2022-ci ildə Azərbaycanda müəlliflik hüququna əsaslanan sahələrdə istehsalın həcmi 5730,3 mln. manat təşkil etmişdir. Qeyd edək ki, ötən illə müqayisədə dəyər baxımında kreativ sənayenin mütləq artımı 14,8% təşkil edib. Bununla belə, 2023-ci ilin 1 yanvar tarixinə olan vəziyyətə görə ölkənin ÜDM-də onun payı ötən illə müqayisədə bir qədər azalaraq 4,3% təşkil edib. Payın miqdarı ölkənin ÜDM-nin əhəmiyyətli dərəcədə artması ilə bağlıdır.

2003-cü ildə ÜƏMT tərəfindən ölkənin ÜDM-də müəllif hüquqlarına əsaslanan sənayenin payının müəyyənləşdirilməsinə dair qəbul edilmiş Metodiki tövsiyələrə müvafiq olaraq kreativ sənaye sahələri dörd qrupda cəmləşir, o cümlədən əsas sahələr (bu sahə üzrə kreativ sənayenin payı **52,7%** təşkil edir); qarşılıqlı asılılıq münasibətlərində olan sahələr; müəllif hüququna qismən əsaslanan sahələr; köməkçi sahələr.

2003-cü ildə ÜƏMT tərəfindən ölkənin ÜDM-də müəllif hüquqlarına əsaslanan sənayenin töhfəsini müəyyənləşdirilməsinə həsr olunmuş “Guide on surveying the economic contribution of the copyright - based industries” adlı metodiki tövsiyələr qəbul edilmişdi. Metodiki tövsiyələrin məqsədi müəlliflik və əlaqəli hüquqlara əsaslanan sənayenin sahələri, istehsalları və digər bölmələrinin ölkənin iqtisadiyyatına verdiyi payının müəyyənləşdirilməsi ilə bağlıdır.




Öz növbəsində, əsas müəlliflik hüququ sahələri sektorunda ən böyük pay “elm, ali təhsil, proqram təminatı və verilənlər bazaları” sahəsinə düşür - 47,9%, daha sonra “mətbuat və ədəbiyyat - 22,4%.

**Azərbaycanın kreativ sənayesində müəlliflik hüququna əsaslanan sənayelərin payı (01.01.2023)**




Agentlikdə aparılan təhlil və hesablamalar göstərir ki, Azərbaycanın kreativ sənayesinin həcmi getdikcə artmaqdadır.

**7. Əqli mülkiyyət hüquqlarının təminatı, piratçılığa qarşı mübarizə və əqli mülkiyyət mədəniyyətinin formalaşdırılması.**

**7.1. Əqli mülkiyyət hüquqlarının təminatı.** Hesabat ilində pozulmuş müəlliflik hüququ və əlaqəli hüquqların bərpasına köməklik göstərilməsi ilə bağlı 2023-cü ilin 12 ayı ərzində Agentliyə **19** yazılı müraciət daxil olmuşdur.

Agentliyin səlahiyyətləri çərçivəsində 7 müraciət müsbət həll edilmiş, 9 müraciətə müvafiq izahat verilmiş, 3 müraciət üzrə qanunvericilikdə müəyyən edilmiş qaydada müvafiq işlər aparılmışdır.

Hesabat ili ərzində 50-dən çox əmtəə nişanından qeyri-qanuni istifadə faktına dair müraciətə baxılmış və müvafiq rəylər hazırlanaraq tədbirlərin görülməsi məqsədilə aidiyyəti üzrə göndərilmişdir.

Agentliyin Nizamnaməsinə uyğun olaraq, əqli mülkiyyət hüquqları sahəsinin inkişafını təmin edən, bu sahədə vahid tənzimləməni və nəzarəti həyata keçirən və fəaliyyəti əlaqələndirən dövlət qurumu kimi **80-**dən çox vəzifə və hüquqları vardır.

Bu vəzifə və hüquqlar sırasında, müvafiq dövlət və məhkəmə orqanlarının sorğusu əsasında ekspert rəyləri hazırlamaq, məhkəmədə və digər səlahiyyətli orqanlar tərəfindən keçirilən tədbirlərdə ekspert və nümayəndə qismində iştirak etmək kimi vəzəifələri vardır.

Agentlik bir çox hallarda cavabdeh və ya müstəqil tələb irəli sürməyən üçüncü şəxs qismində əqli mülkiyyət hüquqları ilə bağlı aparılan məhkəmə işlərinə cəlb olunur. Hesabat ilində Agentliyin nümayəndələri əqli mülkiyyət məsələləri ilə bağlı müxtəlif məhkəmə instansiyalarında keçirilmiş **50-yə** yaxın iş üzrə **80-**dək məhkəmə iclasında iştirak etmiş, hər bir iş üzrə ekspert rəyi hazırlanmış, hüquq sahibləri üçün maarifləndirmə tədbirləri, o cümlədən Agentliyin və İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə sahibkarlar və patent müvəkkilləri üçün "Əqli mülkiyyət obyektlərindən qanunsuz istifadənin mümkün riskləri və mənfi təsirləri" mövzusunda təlim-seminar keçirilmişdir.

Agentliyin sənaye mülkiyyəti ilə bağlı cavabdeh qismində inzibati məhkəmə icraatına cəlb edildiyi və 2023-cü ildə yekunlaşmış işlərin 91 faizi Agentliyin xeyrinə həll edilmişdir **(22 işdən 20-i).**

Proqram təminatı sahəsində müvafiq təşkilatlarla əməkdaşlıq davam etdirilmiş, ABŞ-ın “Microsoft”, “Oracle” və “Trimble Tekla” şirkətləri ilə məsləhətləşmələr aparılmış, onların proqram təminatı məhsullarının lisenziyalı istifadəsi və qarşılıqlı əlaqələrin perspektivləri müzakirə edilmişdir.










| | Agentliyin mövqeyi qanuni və əsaslı hesab edilmişdir | Agentliyin mövqeyinin ziddinə qərar qəbul edilmişdir |
|---|---|---|
| Cəmi | 20 | 2 |
| 2022 | 10 | 0 |
| 2021 | 6 | 2 |
| Digər | 4 | 0 |

***2022 və 2021-ci illər üzrə xanalarda Agentliyin** ***sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan Apellyasiya şurasına müvafiq olaraq həmin illərdə daxil olmuş işlərə dair verilən qərarların məhkəmədə mübahisələndirilməsi üzrə qəbul edilmiş yekun məhkəmə aktlarına dair göstəricilər verilmişdir***
*****Digər kateqoriyasında Agentliyin məhkəmə icraatına cəlb edildiyi patent və Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin qərarı ilə bağlı qəbul edilmiş yekun məhkəmə aktlarının göstəriciləri verilmişdir.***

Müəlliflik hüququnun təmin edilməsi məhkəmə mübahisələrində yekunlaşmış işlərin hamısında müəlliflərin hüquqlarının pozulması barədə iddiaların təmin edilməsinə nail olunmuş, müəlliflərin və hüquq sahiblərinin hüquqlarının bərpa olunması təmin edilmişdir.

**7.2. Müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompüter proqramı, məlumat toplusu, kitab) nüsxələrinə yapışdırmaq üçün nəzarət markalarının tətbiqi istiqamətində görülən işlər. Piratçılığa qarşı mübarizə.** Ötən ilin 12 ayında müstəsna hüquqların keçməsi ilə bağlı müəllif müqavilələrinin (lisenziya müqaviləsi) tərtib olunmasında müəlliflərə yardım göstərilərək hüquqi konsultasiya verilmişdir. Müəllif müqavilələrindən 12-si hüquqi şəxslə fiziki şəxs arasında, 7-si fiziki şəxslər arasında bağlanmışdır. Cəmi 2023-cü ildə **29** müqavilə qeydiyyatdan keçirilmişdir.

Nəzarət markalarının tətbiqi əqli mülkiyyət hüquqlarının təmin olunmasında əhəmiyyətli rol oynayır. Markaların tətbiqi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 9 iyun tarixli 191 nömrəli Qərarı ilə təsdiq olunmuş "Nəzarət markasının forması, uçotu, istifadəsi və verilməsi Qaydaları"na uyğun olaraq həyata keçirilir.

Hesabat ilində müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin nüsxələrinə yapışdırılması üçün hüquqi və fiziki şəxslərin müraciətləri əsasında mülki dövriyyədə istifadə olunan çap məhsullarına yapışdırmaq üçün “Dövlət Statistika Komitəsi”nə 87 kitab üçün 4821, “Dövlət İmtahan Mərkəzi”nə 19 kitab üçün 57000, fiziki şəxs Anar Azad oğlu Aslanova 1 kitab üçün 100 ədəd olmaqla cəmi **61921** ədəd nəzarət markası verilmişdir.

Beləliklə, aidiyyəti dövlət qurumları ilə görülən birgə tədbirlərin nəticəsi olaraq, 2005-ci illə müqayisədə piratçılığın səviyyəsi kitab satışı sahəsində 61%-dən **20%**-ə, audio-video məhsul bazarında 90%-dən **53%-ə**, proqram təminatında **96%-dən 70%-ə** düşmüşdür.







**7.2. Agentliyin Sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan Apellyasiya Şurasına 275 müraciət** (2022-ci ildə 243) **daxil olmuşdur.** Ötən dövr üzrə daxil olmuş və yekunlaşdırılmış işlər də nəzərə alınmaqla, **244** işə (2022-ci ildə 252 iş) baxılmış, **100** (əmtəə nişanına dair **99** ərizə, sənaye nümunəsinə dair **1** ərizə) iş (2022-ci ildə 105 iş) üzrə ərizənin təmin edilməsi, **45** iş (2022-ci ildə 35 iş) üzrə ərizənin qismən təmin edilməsi, **73** iş (2022-ci ildə 95 iş) üzrə ərizənin rədd edilməsi, **17** ərizənin (2022-ci ildə də 17 ərizə) baxılmamış saxlanılması, **7** ərizənin (2022-ci ildə olmamışdır) verilməmiş hesab edilməsi və **2** ərizə (2022-ci ildə olmamışdır) üzrə müddət axımının dayandırılması barədə qərarlar qəbul edilmişdir.

Hesabat ilində sənaye mülkiyyəti obyektlərinin mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi, Apellyasiya Şurasına müraciət zamanı sənədləşmə prosesinin, iş üzrə tərəflərin və ya Apellyasiya Şurası üzvləri tərəfindən kargüzarlığın aparılması ilə bağlı işlərin elektronlaşdırılması, sürətləndirilməsi və səmərəliliyinin artırılması məqsədilə Apellyasiya Şurasının Elektron Portalı yaradılıb.

**7.3. Hüquq məsləhətxanası, iddiaçı sorğusunun cavablandırılması, Agentliyin göstərdiyi xidmətlərə əlçatanlığın təmin edilməsi.** Agentliyin ictimai əsaslarla fəaliyyət göstərən “Hüquq məsləhətxanası” il ərzində müəlliflər və digər hüquq sahiblərinin istifadəsində olmuş, onların müraciətlərinə operativ reaksiya göstərilmiş, qaldırdıqları məsələlərin həllində, həmçinin iddia ərizələrinin tərtib edilməsində köməklik göstərmişdir.

İnfrastrukturun təkmilləşdirilməsi və institusional dəyişikliklər çərçivəsində Agentlikdə yaradılan “Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf” (PƏNAH) rəqəmli informasiya sistemi əqli mülkiyyət obyektləri, o cümlədən sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı sahəsində göstərilən xidmətlərin keyfiyyətinin, habelə ixtira və patent fəallığının daha da artmasına müsbət təsirini göstərmiş, bu sistem vasitəsi ilə tətbiq edilən “vahid pəncərə” və “istənilən yerdən xidmətə əlçatanlıq” prinsipi açıqlığı,

operativliyi və şəffaflığı təmin etmiş, əqli mülkiyyət üzrə göstərilən dövlət xidmətlərinin səmərəsini və səviyyəsini yüksəltmişdir.

Yeni infrastruktur layihələri sırasında yaradılmış “Çağrı Mərkəzi”nə hesabat dövründə **24** mindən çox müraciət daxil olmuş və hər bir müraciət operativ qaydada cavablandırılmışdır.

İl ərzində daxil olmuş 50-dən çox əmtəə nişanından qanunsuz istifadə halına dair müraciətə baxılmış və müvafiq rəylər hazırlanaraq müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqana (quruma) göndərilmişdir.

Agentliyin əməkdaşları əqli mülkiyyət sahəsində ictimai maariflənmənin həyata keçirilməsi üzrə tədbirlərdə də aktiv iştirak etmişlər. Həm Agentliyin “Əqli Mülkiyyət Təlim Mərkəzi” MMC tərəfindən, həm də Agentlik və İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən birgə təşkil olunmuş tədbirlərdə əqli mlükiyyət qanunvericiliyinin tələblərinin izah edilməsi baxımından müxtəlif auditoriyalarda çıxışlar edilmiş, təlimlər keçirilmişdir.

Agentlik tərəfindən əmtəə nişanlarından qanunsuz istifadə hallarının qarşısının alınması və əmtəə nişanlarından qanunsuz istifadə ilə bağlı haqsız rəqabətə yol açan fəaliyyət barədə ictimai maariflənmənin həyata keçirilməsi üzrə tədbirlərin keçirilməsi təmin edilmişdir. Belə ki, həm “Əqli Mülkiyyət Təlim Mərkəzi” MMC tərəfindən, həm də Agentlik və İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən birgə təşkil olunmuş tədbirlərdə əmtəə nişanlarına dair qanunvericiliyinin tələblərinin izah edilməsi baxımından müxtəlif mövzularda sahibkarlara, habelə bu sahədə fəaliyyət göstərən dövlət qurumunun əməkdaşlarına, elmi fəaliyyətlə məşğul olan şəxslərə təlimlər keçirilmiş və çıxışlar edilmişdir. Bundan əlavə olaraq BDU Hüquq fakültəsinin Əqli mülkiyyət hüququ kafedrasında və Azərbaycan Memarlıq və İnşaat Universitetində yeni yaradılmış “Əqli mülkiyyət” kafedrasında keçirilən dərslər çərçivəsində əmtəə nişanlarından qanunsuz istifadə və onun qarşısının alınması barədə müxtəlif mövzularda mühazirələr oxunmuşdur. Qeyd edilməsi zəruridir ki, BDU Hüquq fakültəsinin Əqli mülkiyyət hüququ kafedrasının dərsləri həmin kafedranın Agentlikdə olan filialında tədris edilir. Bununla da əqli mülkiyyət hüququ sahəsində rəqabətə davamlı peşəkar hüquqşünas kadrların yetişdirilməsi, habelə yaradıcı şəxslərin əqli mülkiyyət sahəsində biliklərinin artırılması istiqamətində işlər davam etdirilir. Agentliyin Hüquq, apellyasiya və sənaye mülkiyyət obyektlərinin qeydiyyatı şöbəsinin əməkdaşının cəlb edildiyi dərslər əqli mülkiyyət sahəsində praktiki və nəzəri biliklərin ötürülməsinin zəruri olduğu sahələri özündə ehtiva edir. Tədris edilən dərslərə misal kimi “Əqli mülkiyyətin əsasları”, “Rəqəmsal inkişaf və əqli mülkiyyət”, “Rəqabət hüququ”, “Əqli mülkiyyət üzrə məhkəmə praktikası”, “Əqli mülkiyyət sahəsində mübahisələrin həlli” və s. göstərilə bilər.

Bundan əlavə olaraq 2023-cü il ərzində daxil olmuş 50-dən çox əmtəə nişanından qanunsuz istifadə halına dair müraciətə baxılmış və müvafiq rəylər hazırlanaraq aidiyyəti tədbirlərin görülməsi məqsədilə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə göndərilmişdir. Habelə Xidmət tərəfindən bu müraciətlər üzrə keçirilmiş iclaslarda Agentliyin əməkdaşlarının mütəxəssis kimi iştirak etmişlər.

**Əqli mülkiyyət sahəsi ilə bağlı konfransların keçirilməsi, kitabların hazırlanması və nəşr edilməsi hesabat dövründə də** diqqət mərkəzində olmuşdur.

“Heydər Əliyev ili” çərçivəsində Agentlik tərəfindən silsilə tədbirlər davam etdirilmiş, o cümlədən **“Ümummilli lider Heydər Əliyev Azərbaycan əqli mülkiyyət sisteminin yaradıcısıdır”** mövzusunda elmi-praktik konfrans keçirilib.

Tədbirdə Agentliyin İdarə Heyətinin sədri Kamran İmanov Heydər Əliyev fenomeni, onun böyüklüyünü və bütün sahələrə aid gördüyü nəhəng işləri olduğu kimi tam şəkildə şərh etməkdə onun müasirləri aciz olduğunu vurğulayaraq yalnız illər, qərinələr ötəndən sonra bu tarixi şəxsiyyətin öz Vətəni və xalqı qarşısındakı xidmətlərinin əsl qiymətini zamanın verəcəyini bildirdi. Qeyd etdi ki, tarixin hökmü tarixi şəxsiyyətlərin çətinliklər və problemlər barədə izahını yox, çətinliklər və problemlər üzərində qələbəsini tanıyır. Ümummilli liderimizin həyatı və fəaliyyəti bütövlükdə yaşadığı dövrdə qələbələrlə zəngin olmuş, xalqımızın ən çətin anlarında ona uğur və zəfər qazandırmışdır.

Ümummilli Liderə həsr olunmuş Agentliyin tabeliyindəki Respublika Elmi-texniki Kitabxanası tərəfindən keçirilən Kitab sərgisi böyük maraqla qarşılanmış, Heydər Əliyev irsinin ən qiymətli əqli mülkiyyət olduğu bir daha nümayiş olunmuşdur.

Hesabat ilində Agentlik tərəfindən keçirilən bütün tədbirlərdə Heydər Əliyevin bütövlükdə milli əqli mülkiyyət sisteminin Yaradıcısı və Müəllifi olduğu, onun xalqımızın mədəni irsinin və adət-

ənənələrimizin qorunub saxlanmasına göstərdiyi böyük diqqət və qayğı Ulu Öndərin özünün imzaladığı onlarca qanun, fərman və qərarlarların, habelə bu mövzuda yazılmış kitablar vasitəsilə bir daha geniş ictimaiyyətin diqqətinə çatdırılmışdır.

**"Heydər Əliyev ili" çərçivəsində** 2023-cü il 26 aprel tarixində Agentlik və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə Beynəlxalq Əqli Mülkiyyət Gününə həsr olunan **"Qadınlar və əqli mülkiyyət. İnnovasiya və yaradıcılıq"** mövzusunda konfrans keçirilmişdir.

Tədbirdə Agentliyin İdarə Heyətinin sədri Kamran İmanov eyni adlı geniş prezentasiya və kitabı nəşr olunaraq konfrans iştirakçıları arasında yayılmışdır. Məruzədə əqli mülkiyyət institutunun müasir dövrdə yeni çağırışlarla rastlaşdığı, bunun səbəbinin ilk növbədə cəmiyyətimizin əhəmiyyətli texnoloji dəyişikliklərlə üz-üzə gəldiyi, yeni çağırışların əqli mülkiyyət landşaftına artan təsiri və əqli mülkiyyətin evolyusiyasını anlamaq üçün vacib olduğu vurğulanıb.

Agentliyin İdarə Heyətinin sədri əqli mülkiyyət sisteminin qarşısında duran vəzifələrin ölkənin innovasiya siyasəti ilə müəyyən edildiyini və ölkədə həyata keçirilən iqtisadi islahatlara xidmət etdiyini qeyd edərək, son illər əqli mülkiyyət sahəsində aparılan məqsədyönlü işlərin ölkəmizin beynəlxalq reytinqlərdə mövqelərinin möhkəmlədirilməsində əhəmiyyətli rol oynadığını bildirib. Xüsusi olaraq vurğulayıb ki, qadınlarımız istənilən millətin insan resurslarının çox əhəmiyyətli hissəsidir. Elm və texnologiyalar, innovasiyalar və kreativlikdə qadınlar istedad xəzinəsidir. Son illərdəki müşahidələr göstərir ki, gender assimmetriyasının azaldılması qadının rolunu ədalətli səviyyəyə qaldırmaqla yanaşı, iqtisadi inkişafa da müsbət təsir göstərir.

Konfransda "Qadın və əqli mülkiyyət: qadın yazıçı, şair və bəstəkar", "Qadın və əqli mülkiyyət: qadın yaradıcılığının inkişafında dövlətin və ailənin rolu", "Qadın və əqli mülkiyyət: qadın ixtiraçı", "Qadın və əqli mülkiyyət: sahibkar qadının fəaliyyətində əmtəə nişanının rolu", "Qadın və əqli mülkiyyət: qadın tədqiqatçılar" mövzularında məruzələr dinlənilmiş və geniş müzakirələr aparılmışdır.

Hesabat ilində K.İmanovun "Nə etməliyik ki, biznes və mədəniyyət müxtəlif qütblərdə yerləşməsinlər", "Kreativ iqtisadiyyat: gələcək naminə innovasiyalar", "Azərbaycana məxsus coğrafi göstəricilər", "Творчество как основа авторства", "Эволюция права интеллектуальной собственности и задачи офисов ИС в современных условиях", "Инновации и охрана ИС в евразийском пространстве", həmçinin ötən illərdə buraxılmış kitabları da təkrar çap edilərək yayılmışdır.

Kütləvi informasiya vasitələrində əqli mülkiyyət sahəsinə aid informasiya, maarifləndirici və təbliğat xarakterli 130-dən artıq məqalə və digər materiallar dərc edilmiş, "Əqli Mülkiyyət" jurnalının Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş 5-ci nömrəsi çapdan buraxılmış, TV və radio kanallarında 20-dən çox veriliş və süjetlər göstərilmiş, Agentliyin sosial media (Facebook, Instagram, Youtube, Twitter, Linkedin) hesabları üzərindən 800-dən çox paylaşım edilmişdir.

**8. Mədəni irsin qorunması və erməni plagiatina qarşı mübarizə.** Erməni yalanlarını, o cümlədən erməni ədəbi-mədəni oğurluqlarını (erməni plagiatçılığını) ifşa edən erməni əsilli və digər müəlliflərin əsərləri (məqalələri), arxiv materialları və qədim tarixi mənbələr əsasında və onlara istinad edilməklə Agentlik tərəfindən İdarə Heyətinin sədri Kamran İmanovun müəllifliyi ilə 20 addan çox kitab və broşura nəşr edilmişdir.

Nəşrlərə əlçatanlığın asanlaşdırılması məqsədilə onlar Agentliyin **copat.gov.az** saytında yaradılmış **"Erməni saxtakarlığının ifşası"** adlı xüsusi bölmədə yerləşdirilmiş, bir sıra kütləvi informasiya vasitələrində dərc edilmiş, əqli mülkiyyətə dair Bakıda keçirilən regional və beynəlxalq konfransların iştirakçıları, habelə Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin səfirlikləri və beynəlxalq təşkilatların nümayəndəlikləri arasında yayılmışdır.

Erməni yalanlarını tarixi sənədlər, qədim arxiv materialları və erməni mənbələri əsasında ifşa edən Agentlik tərəfindən hazırlanan kitablar və broşuralar 2016-cı ildən etibarən **"Don bəzəyər də, ifşa edər də"** seriyası ilə nəşr olunur. Bu seriyadan 7 adda kitab və broşur çapdan buraxılmışdır və bu seriyadan kitabların nəşrləri davam etdiriləcəkdir .

2009-cu ildən başlayaraq **"Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü"** münasibətilə Agentlik tərəfindən hər il keçirilən milli və beynəlxalq seminar və konfranslar erməni saxtakarlıqlarının ifşasına həsr olunur.

Milli mədəni irsimizin qorunması, erməni yalanlarının və erməni plagiatçılığının ifşa edilməsi və bu sahədə məlumatların geniş ictimaiyyətə çatdırılması 2023-cü ildə də Agentliyin fəaliyyətində əsas

istiqamətlərdən olmuşdur.

Qeyd edilməlidir ki, 2016-cı ildən başlayaraq bu tədbirlər **“Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir”** devizi altında keçirilir. Ölkəmizin görkəmli alimlərinin və tədqiqatçılarının, həmçinin xarici ölkələrin tanınmış alimlərinin iştirak etdikləri tədbirlərdə klassik mənbələr, tarixi sənədlər və faktlar əsasında ermənilərin maddi və qeyri-maddi mədəniyyət nümunələrimizə, eləcə də torpaqlarımıza olan iddialarının əsassızlığı göstərilir.

Hesabat ilində də “Heydər Əliyev ili” çərçivəsində bu mövzuda 20 aprel tarixində “Ümumdünya Kitab və Müəllifik Hüququ Günü”nə həsr olunan “**Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya əzəli Azərbaycan-Türk torpaqları olan Zəngəzur həqiqətləri**” mövzusunda konfrans keçirilmiş, tədbirdə Agentliyin İdarə Heyətinin sədri eyni mövzuda çıxış etmiş və onun təqdimat əsasında eyniadlı kitab (Azərbaycan, rus və ingilis dillərində) nəşr olunmuşdur. Kitab oxucular arasında böyük rezonans doğurmuşdur.

Agentliyin İdarə Heyətinin sədri K.İmanovun müəllifi olduğu erməni yalanlarını, o cümlədən erməni ədəbi-mədəni oğurluqlarını (erməni plagiatçılığını) ifşa edən kitablar əsasında Azərbaycan Televiziyası tərəfindən aşağıda adları göstərilən sənədli filmlər hazırlanmışdır:

**1) Tarixin izi ilə_ Zəngəzur tarixi faktlarla;**

**2) Tarixin izi ilə _ Toponimlər_ Tarixi-mədəni irsimiz;**

**3) Tarixin izi ilə_Keçmişin böyük yalanları_Armeniya və Hayastan.**

Erməni saxtakarlıqlarının və uydurmalarının ifşası ilə bağlı görülən işlər sırasında müxtəlif dillərdə onlarla məqalə, kitab və kitabçalar, o cümlədən “Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya işğaldan azad edilmiş ərazilərdə mədəni sərvətlərin sahibləri haqqında”, “Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya digər xalqların siyasi tarixini, tarixi coğrafiyasını və mədəniyyətini özününküləşdirməklə hay-erməni qədimliyinin qurulma cəhdləri”, “Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya “Armeniya” ərazisinin həqiqi sakinləri haqqında, “Qafqaz Albaniyası, onun sakinləri və işğaldan azad edilmiş ərazilərdə mədəni sərvətlər”, “Хайи-армяне, стремясь утвердить свое место среди исторических народов, не брезгуют ревизией текста Священного Писания и Термин“Армения”, будь то топонимилиэтноним, не имеет никакого отношения к нынешним армянам и присвоен ими” və s. təkrar çap edilərək yayılmışdır.

**9. Beynəlxalq əməkdaşlıq.**

**9.1.** Əqli mülkiyyət sahəsində beynəlxalq əməkdaşlıq çərçivəsində 2023-cü ildə ÜƏMT, APİ, APT və bir sıra dövlətlərin patent strukturları ilə əməkdaşlıq daha da genişləndirilmiş, ölkəmizin beynəlxalq müqavilələrdən və sazişlərdən irəli gələn öhdəliklərinin yerinə yetirilməsi istiqamətlərində işlər davam etdirilmişdir.

27-28 aprel tarixlərində Moskva şəhərində APT, Rusiyanın Əqi Mülkiyyət üzrə Federal Xidməti (Rospatent), Rusiyanın “Ali İqtisadiyyat Məktəbi” Milli Tədqiqat Universitetinin “UNESCO-nun müəlliflik hüququ, əlaqəli, mədəni və informasiya hüquqları üzrə kafedrası” Beynəlxalq Elm-Təhsil Mərkəzi və Rusiya Dövlət Əqli Mülkiyyət Akademiyasının birgə təşkilatçılığı ilə “Müəllif” (“Автор/Author”)III beynəlxalq elmi-praktiki konfransı keçirilib.

Tədbirin açılışında UNESCO kafedrasının direktoru professor Mixail Fedotov, Rospatentin rəhbəri Yuriy Zubov, APT-nın prezidenti Qriqoriy İvliyev, Ali İqtisadiyyat Məktəbinin rektoru Nikita Anisimov, Rusiya Federasiya Şurasının Elm, təhsil və mədəniyyət komitəsinin sədri Liliya Qumerova, Afrika Əqli Mülkiyyət Təşkilatının Baş direktorunun müavini Mondezir Ualu Panuala çıxış ediblər.

Konfransın Q.İvliyevin moderatorluğu ilə keçirilən plenar iclasında Agentliyinin İdarə Heyətinin sədri K. İmanov onlayn rejimdə “Cəmiyyət, mədəniyyət və hüquq məkanında müəllif” mövzusunda geniş məruzə ilə çıxış edib.

K.İmanovun məruzəsi tədbir iştirakçıları tərəfindən maraqla dinlənilib və rəğbətlə qarşılanıb, qaldırılan məsələlərin müəlliflik hüququ sahəsinin tədqiqi baxımından əhəmiyyətli olduğu vurğulanıb.

Q.İvliyev fənlərarası yanaşmanın imkanlarından mükəmməl şəkildə istifadə etməklə təqdim olunan bu məruzənin zəngin olduğunu qeyd edib və məruzənin UNESCO kafedrasının əqli mülkiyyətə dair elmi jurnalında yerləşdiriləcəyini qeyd edərək, belə materialların yalnız konfransda dinləməyə deyil, onların üzərində bir çox tədqiqatçıların sistemli işləməsinə imkan yaradılacağını diqqətə çatdırıb.

Agentlik dünya üzrə 204 milli əqli mülkiyyət ofisi arasından seçilərək ÜƏMT-nin “Əqli mülkiyyət idarəetməsi və inzibatçılığı modelləri” mövzusunda həyata keçirdiyi tədqiqata cəlb edilən müsbət təcrübəyə malik 15 ölkə üzrə milli patent ofisindən biri olmuşdur.

Agentliyin İdarə Heyətinin sədri K.İmanov ÜƏMT-nın sifarişi ilə Almaniyanın məşhur Fraunhofer Sistemlər və İnnovasiya Tədqiqatları İnstitutunun tədqiqatçı alimlərinin 15-dən çox sualını cavablandırmışdır.

Tədqiqatın əsas məqsədi əqli mülkiyyətin idarə edilməsi və inzibatçılığının müxtəlif formalarının öyrənilməsi, onların əsas xüsusiyyətləri və dinamikasının təsvir edilməsi, müsbət təcrübələrin tətbiqinin təşviq edilməsi və əqli mülkiyyət ofislərinə metodiki yardım göstərilməsi ilə bağlı tövsiyələr verilməsidir.

**9.2.** ÜƏMT Baş direktorunun müavini Hasan Kleybin başçılıq etdiyi nümayəndə heyəti 24-25 iyun tarixlərində ölkəmizdə rəsmi səfərdə olmuşdur. Cənab H.Kleyb İdarə Heyətinin sədri K.İmanovla ÜƏMT ilə müxtəlif sahələrdə əməkdaşlıq məsələləri müzakirə edilmiş, ÜƏMT rəsmisi yerli sahibkarların öz məhsullarının hazırlanması prosesində və onların bizneslərinin inkişafında əqli mülkiyyətdən səmərəli istifadə edilməsi üçün fərdi layihələrin işlənilməsi, treninq-tədrisin təşkili, eyni zamanda coğrafi göstəricilər daxil olmaqla Azərbaycanın əqli mülkiyyət obyektlərinin qlobal əqli mülkiyyət sistemindən faydalanması və yeni xarici bazarlara çıxışlar əldə etməsi üçün ölkəmizə texniki və məşvərətçi dəstək verilməsinə hazır olduqlarını bildirmişdir.

Səfər proqramına uyğun olaraq, “Müasir əqli mülkiyyət ekosisteminin inkişafı: milli əqli mülkiyyət ofislərinin təkamülü və mütəxəssislərin hazırlanması” mövzusunda dəyirmi masa keçirilmiş, tədbirdə Agentliyin İdarə Heyətinin sədri K.İmanov eyni adlı geniş məruzə ilə çıxış etmişdir.

“Dəyirmi masa”da nümayəndə heyətinin rəhbəri H.Kleyb ÜƏMT və Azərbaycan arasında əməkdaşlığın yeni istiqamətləri, o cümlədən bu beynəlxalq təşkilat tərəfindən ölkəmizdə fəaliyyət göstərən ali məktəblərdə əqli mülkiyyət sahəsində mütəxəssislərin hazırlanması, habelə orta və kiçik sahibkarlıq subyektlərinə dəstək məsələləri barədə təkliflərlə çıxış etmişdir.

Səfər çərçivəsində ÜƏMT-nın Azərbaycanda “Coğrafi göstəricilər” layihəsinə start verilmişdir.

ÜƏMT-nin nümayəndə heyətini səfər çərçivəsində Baş nazirin müavini Əli Əhmədov, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov, iqtisadiyyat naziri Mikayıl Cabbarov, xarici işlər naziri Ceyhun Bayramov və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov qəbul etmişlər.

ÜƏMT-nin nümayəndə heyəti ADA Universitetində olmuş, Universitetin kitabxanası və tələbə kampusu ilə tanış olmuş, professor-müəllim heyəti və tələbələrlə görüşmüşdür.

Nümayəndə heyəti ASAN İnnovativ İnkişaf Mərkəzi və "ABAD" yaradıcılıq Mərkəzi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən Cənubi Qafqaz regionunda ilk dəfə olaraq çoxşaxəli fəaliyyət sahələrini əhatə edən DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi ilə tanış olub.

**9.3. 2023-cü ilin 6-14 iyul tarixlərində Cenevrə şəhərində ÜƏMT üzv-dövlətlərinin Assambleyalarının 64-cü sessiyası keçirilmişdir.** Sessiyada Agentliyin İdarə Heyətinin sədri K.İmanovun rəhbərlik etdiyi nümayəndə heyəti hibrid formatda (nümayəndə heyətinin 3 nəfəri sessiyada fiziki iştirak etmişdir) iştirak etmişdir.

K.İmanov tədbirdə çıxış edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bütün sahələrdə uğurla həyata keçirdiyi islahatların müsbət nəticələrini, o cümlədən əqli mülkiyyətin iqtisadiyyat, sosiologiya və hüququn qarşılıqlı əlaqələri çərçivəsində təhlil və tətbiqinin zəruriliyini, dövlət başçısının səyləri nəticəsində iqtisadiyyatın diversifikasiyasının və innovativ inkişafın tərkib hissəsi olaraq əqli mülkiyyət sisteminin təkmilləşdirilməsinə yönəlmiş institusional islahatlar çərçivəsində yaradılan Agentliyin iqtisadiyyatın inkişafına layiqli töhfələr verdiyini qeyd etmişdir.

ÜƏMT Assambleyalarının vəzifəli şəxslərin seçkilərində K.İmanov yekdilliklə 180-dək üzv-dövləti birləşdirən ÜƏMT-nın müəllif hüquqlarının qorunması sahəsində ən böyük beynəlxalq müqaviləsi olan Ədəbi və bədii əsərlərin qorunması haqqında Bern Konvensiyası İttifaqı Assambleyasının sədri seçilib.

Qeyd edək ki, K.İmanov 2021-2023-cü illərdə ÜƏMT-nin Müəlliflik Hüququna dair Müqaviləsinin Assambleyasına sədrlik etmişdir.

Assambleyaların keçirildiyi günlərdə Agentliyin İdarə Heyətinin üzvü Sənan Tapdıqovun ÜƏMT-

nın Keçid və İnkişafda olan Dövlətlər bölməsinin rəhbəri Habip Asan ilə görüşündə 2024-2025-ci illərdə ÜƏMT-nın dəstəyi ilə keçirilməsi nəzərdə tutulan bir neçə əhəmiyyətli layihə müzakirə edilib. Assambleya çərçivəsində Tükiyənin Patent və Əmtəə Nişanları Qurumunun (Türkpatent) rəhbəri Cemil Başpınar ilə görüşdə iki qurum arasında iş birliyinin daha da gücləndirilməsi istəyi ifadə olunub və digər maraq doğuran məsələlər müzakirə edilib. Həmin günlərdə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi və Qazaxıstan Respublikasının Ədliyyə Nazirliyinin "Milli Əqli Mülkiyyət İnstitutu" arasında Əməkdaşlıq Memorandumu imzalanıb, eyni zamanda, Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi və Belarus Respublikasının Milli Əqli Mülkiyyət Mərkəzi arasında Anlaşma Memorandumu paraflanıb.

2023-cü il 14-16 noyabr tarixlərində APT-nin icraçı orqanı olan APİ-nin prezidenti Qriqoriy İvliyev ölkəmizə rəsmi səfərə gəlmişdir. Səfərin əsas məqsədi Azərbaycan ilə APT arasında əqli mülkiyyət sahəsində əməkdaşlığın perspektivlərinin müzakirəsi, ölkəmizdə bu sahədə görülən işlərlə tanışlıq, xüsusən Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi altında uğurla həyata keçirilən institusional islahatlar çərçivəsində yaradılan Agentliyin iş təcrübəsinin öyrənilməsi olmuşdur.

APİ rəhbərinin ölkəmizə səfəri şərçivəsində "Azərbaycan və Avrasiya Patent Təşkilatı arasında əməkdaşılığın prioritet istiqamətləri" mövzusunda dəyirmi masa keçirilmişdir. "Dəyirmi masa"da Agentliyin İdarə Heyətinin sədri K.İmanov Azərbaycanın fəal iqtisadi və institusional islahatlar ölkəsi olduğunu qeyd edərək, Prezident İlham Əliyevin müdrik siyasəti sayəsində həyata keçirilən genişmiqyaslı işlər, o cümlədən Qarabağ müharibəsində Böyük Qələbədən sonra işğaldan azad olunmuş torpaqlarımızda möhtəşəm quruculuq işləri - Böyük Qayıdış prosesi barədə məlumat vermiş, həmçinin Agentliyin əsas vəzifəsinin dövlət başçısı tərəfindən formalaşdırılan ən mühüm məqsədləri təmin etmək, ölkə rəhbərinin yaratdığı müstəqil əqli mülkiyyət idarəsinin aparılan islahatların real aktoruna çevirmək olduğunu vurğulayıb.

Q.İvliyev əqli mülkiyyət sisteminin inkişafına elmi, dərindən yanaşmasına görə şəxsən Kamran İmanova xüsusi təşəkkürünü bildirib və K.Imanovun "Əqli mülkiyyət. Sənaye mülkiyyəti" jurnalının 2023-cü ildə nəşr olunmuş 5-ci nömrəsində dərc edilmiş məqaləsində müasir əqli mülkiyyət ofisinin formalaşması və fəaliyyəti ilə bağlı fikirlərini yüksək dəyərləndirərək, Azərbaycan və APT arasında əməkdaşlığın prioritet istiqamətləri və 2028-ci ilə qədər APT-nin İnkişaf Proqramı haqqında məlumat verib. Q.İvliyev 2023-cü ilin may ayında 8 əsas iş istiqamətini özündə əks etdirən və regionda əqli mülkiyyət xidmətlərinin iddiaçılar üçün daha əlçatan və rahat olmasını nəzərdə tutan APT-nın 2028-ci ilə qədər İnkişaf Proqramının əhəmiyyətini vurğulayaraq, strateji inkişaf vektorlarını dəstəklədiyinə görə Azərbaycan tərəfinə təşəkkür edib.

Q.İvliyev Avrasiya Patent Müvəkkilləri Assambleyasının yaradıldığını, ixtiraçıların Avrasiya təşkilatlarının yaradılmasının nəzərdə tutulduğunu, APİ-nin Əczaçılıq Reyestrinin məlumatlarının statusunun təkmilləşdirilməsinin davam etdirildiyini, ÜƏMT ilə birlikdə texnoloji parklar üçün tematik layihənin həyata keçirildiyini, əqli mülkiyyət idarələrinin rəqəmsallaşdırılması sahəsində əməkdaşlığın milli qurumların işinin sadələşdirilməsi üçün ümumi elektron xidmətlərdən istifadənin genişləndirilməsinə kömək edəcəyini diqqətə çatdırıb. APİ-nin rəhbəri üzv-dövlətlərin dəstəyilə vahid Avrasiya əmtəə nişanının və vahid Avrasiya faydalı modelinin qeydiyyatı sisteminin yaradılmasına, əqli mülkiyyət sahəsində mübahisələrin həlli üzrə Avrasiya sisteminin formalaşdırılmasına hazır olduqlarını bildirmişdir.

Q.İvliyev APT-nin İnzibati Şurasının 2022-ci ilin sentyabrında Moskva şəhərində keçirilən 41-ci iclası zamanı Agentliyin İdarə Heyətinin sədri Kamran İmanovun APT-nin "İxtiraçılığa və patent işinə verdiyi töhfəyə görə" V.İ.Blinnikov adına qızıl medalı ilə təltif olunduğunu diqqətə çatdıraraq həmin medalı K.İmanova təqdim edib.

Səfər çərçivəsində Q.İvliyev yüksək səviyyəli görüşlər keçirəcəkdir.

Qeyd edək ki, APT 1994-cü ildə Avrasiya patent sisteminin fəaliyyəti və Avrasiya patentlərinin verilməsinə dair inzibati vəzifələrin yerinə yetirilməsi məqsədilə təsis olunub. Hazırda bu beynəlxalq təşkilata 8 dövlət (Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Rusiya Federasiyası, Tacikistan və Türkmənistan) daxildir. Azərbaycan Respublikası 1995-ci ildən APT-nin tam hüquqlu üzvüdür.

İndiyədək APT-yə Azərbaycandan ixtiralara görə 525 Avrasiya patent iddia sənədi verilib (2022-ci ildə 45, 2023-cü ildə isə 25). Hazırda Azərbaycan Respublikası ərazisində 9496 Avrasiya patenti qüvvədədir.

Patent iddia sənədləri içərisində əsasən mədən işi, əczaçılıq və dərmanlar, tibb və baytarlıq sahələri üstünlük təşkil edir. Azərbaycandan olan iddiaçılara 381 Avrasiya patenti verilib.

Ölkəmizdən ən aktiv müraciət edən təşkilatlara "Neftqazelmitədqiqatlayihə" İnstitutu, İdarəetmə Sistemləri İnstitutu, Sumqayıt Dövlət Universiteti, Azərbaycan Tibb Universiteti və akademik Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu daxildir.

Avrasiya patenti alınması üçün Azərbaycandan olan müraciətlərin 60%-i fiziki şəxslər tərəfindən verilib.

Q.İvliyev APT-nın İnzibati Şurasının 2022-ci ilin sentyabrında Moskva şəhərində keçirilən 41-ci iclasının qərarı ilə Agentliyin İdarə Heyətinin sədri K. İmanovun "İxtiraçılığa və patent işinə verdiyi töhfəyə görə" V.İ.Blinnikov adına Qızıl medalı ilə təltif olunduğunu bildirərək, mükafatı təqdim etmişdir.

K.İmanov V.İ.Blinnikov adına Qızıl medal ilə təltif edilməsinə görə ona verilən pul mükafatını Qarabağ Dirçəliş Fonduna köçürmüşdür.

Səfər çərçivəsində APİ-nın prezidenti Q.İvliyevin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Ə.Əhmədov, iqtisadiyyat naziri M.Cabbarov və xarici işlər naziri C.Bayramov tərəfindən qəbul edilmiş, Azərbaycanın müvafiq qurumları arasında əlaqələrin daha da gücləndirilməsi, patentlərin tətbiqi və texnologiyaların kommersiyalaşdırılmasının yeni iş yerlərinin yaradılmasındakı rolu və s. ikitərəfli maraq doğuran məsələlər müzakirə edilmişdir.

2023-cü il 5-7 dekabr tarixlərində APT-nın İnzibati Şurasının 43-cü (30-cu növbəti) iclası çərçivəsində APT və Rusiya Dövlət Əqli Mülkiyyət Akademiyasının təşkilatçılığı ilə "IP Avrasiya/IP Hindistan 23" mövzusunda əqli mülkiyyət və texnologiya üzrə beynəlxalq Avrasiya konfransına onlayn rejimdə iştirak edən K.İmanov "Əqli mülkiyyət iqtisadi artım prizmasında" mövzusunda geniş məruzə ilə çıxış etmişdir.

**9.4.** Hesabat ilində "Saxta əmtəə nişanlarının və coğrafi göstəricilərin istifadəsinin qabaqlanması və qarşısının alınması üzrə MDB iştirakçısı dövlətlərinin əməkdaşlığı haqqında Saziş" hesabat ilində Azərbaycanda qüvvəyə minmiş və "MDB iştirakçı dövlətlərinin informasiya-telekommunikasiya şəbəkələrində müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinə hüquqların qorunması və mühafizəsi üzrə əməkdaşlığa dair Saziş"in qəbul edilməsi üçün dövlətdaxili prosedurlar başa çatdırılmışdır.

14-15 mart tarixlərində Qazaxıstanın Astana şəhərində ÜƏMT-nin və APT-nin üzvü olan dövlətlərdə əqli fəaliyyət nəticələrinin kommersiyalaşdırılması sahəsində texnoparkların imkanlarının genişləndirilməsi üzrə regional görüş keçirilmişdir. Görüşdə Mərkəzin nümayəndəsi F.Əlizadə və Bakı Mühəndislik Universitetinin nəzdində fəaliyyət göstərən Texnoparkda "Yeni fikir" startap müsabiqəsi üzrə koordinator İsa Qasımov iştirak etmişlərdir. Regional görüşdə ölkəmizdə fəaliyyət göstərən texnoparklardakı vəziyyət, ƏM siyasəti, ƏM-in idarə olunmasının hüquqi bazası, Agentliyin bu sahədə gördüyü işlər, Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzinin yaradılması və fəaliyyət istiqamətləri haqqında məlumat iştirakçılara təqdim edilmişdir. Digər ölkələri təmsil edən iştirakçılarla münasibətlər qurulmuş, Rusiyanın Novosibirsk şəhərində fəaliyyət göstərən "Texnopark Akademqorodka" Fondu tərəfindən əməkdaşlıq təklif olunmuşdur.

22 noyabr tarixində Mərkəzin əməkdaşı T.Quliyeva AGEPI – Moldova Əqli Mülkiyyət Təşkilatı tərəfindən təşkil edilən "Women in Innovation and Business: Inspiring, Involving, Investing" adlı beynəlxalq konfransda iştirak etmişdir.

Konfransda qadınların biznes və innovasiya sahəsindəki mövcud rolunun təhlili və gələcək perspektivləri mövzularında müzakirələr aparılmışdır.

27 aprel – 1 may tarixlərində Türkiyə Respublikasının İstanbul şəhərində Türkiyə Respublikasının Sənaye və Texnologiyalar Nazirliyinin, Türkiyə Patent və Əmtəə Nişanları Qurumunun (Türkpatent), həmçinin Beynəlxalq İxtiraçılar Assosiasiyaları Federasiyasının (IFIA) təşkilatçılığı və ÜƏMT və Türk Texnologiyalar Komandasının dəstəyi ilə *"ISIF'23:* 8-ci İstanbul Beynəlxalq İxtiralar Sərgisi" keçirilmişdir.

Azərbaycan Respublikası Agentliyin tabeliyində olan Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzinin direktoru Faiq Əlizadənin rəhbərliyi ilə 10 patentin sahibi olan 5 Azərbaycanlı ixtiraçı sərgidə ölkəmizi layiqincə təmsil etmişlərdir.

Sərgi müddətində keçirilən Beynəlxalq İxtiralar Müsabiqəsi çərçivəsində seçilmiş əqli fəaliyyət nəticələrinin mükafatlandırılması baş tutmuşdur. Azərbaycanlı hüquq sahibləri təşkilatçılar tərəfindən 1 qızıl, 2 gümüş, 2 bürünc və 1 "Ən yaxşı xarici ixtira" sertifikatına layiq görülmüşlərdir. Bundan əlavə,

Şimali Makedoniyanın Sənaye Mülkiyyəti Obyektləri Ofisi biri qızıl medal olmaqla 2 Azərbaycanlı ixtiraçıya sertifikatlar təqdim etmişdir. Ümumilikdə sərgidə ABŞ, Avstriya, Almaniya, Kanada, Çin və digər ölkələrdən 400-500 ixtira nümayiş olunmuşdur.

"İSİF"23: 8-ci İstanbul Beyəlxalq İxtiralar Sərgisi"ndə 31 ölkədən 286 yerli və 138 xarici olmaqla ümumilikdə 424 ixtira nümayiş olunmuşdur. Sərgidə ölkəmizlə yanaşı, ABŞ, Çin, İndoneziya, Kanada və Şimali Makedonya kimi ölkələrin dövlət qurumları, özəl sektor və beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişlərdir.

**10. İnformasiya mübadiləsi, təhlükəsizliyi və dərcetmə sahəsində görülmüş işlər.**

**10.1. Hesabat ilində Aparatın və tabeliyində olan qurumların fəaliyyəti ilə bağlı vahid kompüter şəbəkəsinin idarə olunması, internet səhifələrinin təkmilləşdirilməsi, informasiya resurslarının idarə olunması, proqram təminatlarının yenilənməsi, informasiya təhlükəsizliyinin təmin olunması, elektron xidmətlərin işinin təşkili ilə bağlı bir sıra işlər görülmüşdür.**

"Heydər Əliyev İli" çərçivəsində Agentliyin veb saytında 2023-cü ilin əvvəlindən "Heydər Əliyev-100. Ziyalı sözü" rubrikası yaradılıb və Ulu Öndər haqqında fikirlər il ərzində mütəmadi olaraq paylaşılmışdır.

İl ərzində informasiya, maarfləndirici və təbliğat xarakterli 150-ə yaxın məqalə və yazıların kütləvi informasiya vasitələrində dərc olunmasına dəstək verilib, TV kanallarında əqli mülkiyyət sahəsinə dair 20-dən çox süjetlər göstərilib. Agentliyin sosial media (Facebook, Instagram, Youtube, Twitter, Linkedin) hesabları üzərindən 450-ə yaxın paylaşım edilib.

Hesabat ilində Agentlik tərəfindən "2024-2026-cı illər üzrə Əqli Mülkiyyət Agentliyinin Kommunikasiya strategiyası"nın layihəsi hazırlanaraq Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilib.

APT tərəfindən Agentlikdə rəqəmsal üçölçülü modellərin istifadəsini təmin etmək üçün pilot layihənin həyata keçirilməsinə qərar verilmişdir. İddia sənədlərinin 3D formatında qəbulu üzrə proqram təminatının Agentliyin mövcud informasiya resurslarına inteqrasiyası həyata keçirilmişdir. Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi tərəfindən sənaye mülkiyyəti obyektlərinin (ixtira, faydalı model, sənaye nümunəsi) qeydiyyatı ilə bağlı 3D-qrafik təsvirlərin rəqəmsal modellərinin verilməsi imkanı və qaydası barədə iddiaçıların məlumatlandırılması üçün elmi-tədqiqat, təhsil və digər müəssisələrin nümayəndələrinin iştirakı ilə təlim seminarı keşirilmişdir.

APT ilə əməkdaşlığın prioritet istiqamətlərindən biri patentlərin və dərc edilmiş ərizələrin açıq reyestrinin yaradılmasıdır. APT nümayəndə heyətinin 13-15 fevral 2023-cü il tarixlərində baş tutan səfərinin nəticələrinə əsasən, patentlərin və dərc edilmiş ərizələrin açıq reyestrinin yaradılmasına başlanılıb.

APT-nin İnzibati Şurasının İnformasiya Texnologiyaları üzrə Daimi İşçi Qrupunun 2022-ci il 21 noyabr tarixli iclasında ixtira və sənaye nümunələrinə dair iddia sənədlərinin materiallarına 3D formatda modellərin daxil edilməklə verilməsinə imkan verən "EAPO-ONLINE" sisteminin yenilənmiş versiyası təqdim olunub. İxtiralar və sənaye nümunələrinə patentlərin verilməsi üçün Avrasiya iddia iddia sənədlərinin pilot rejimdə qəbuluna, həmçinin "EAPO-ONLINE" sistemindən istifadə etməklə belə iddia sənədlərinin APT-na göndərilməsi ilə bağlı işlərə başlanılmış, rəqəmsal üçölçülü modellərin (3D) istifadəsini təmin etmək üçün pilot layihənin reallaşdırılmasına Agentlik tərəfindən dəstək verilmişdir.

Layihənin icrası çərçivəsində APT-nın üzv-dövlətləri arasında ilk təşəbbüs göstərən Agentlik tərəfindən ixtira, faydalı model və sənaye nümunələrinə dair iddia sənədlərinin qrafik materiallarının 3D model formatında daxil edilməsi planlaşdırılır. Bununla əlaqədar prosesə nəzarət edəcək mütəxəssislər müəyyən edilmiş və zəruri texniki işlər görülmüşdür.

Bu yenilik iddia sənədlərinin ekspertizası prosesini xeyli asanlaşdırmaqla, müraciət prosesini optimallaşdırmağa, iddia olunmuş obyektin xüsusiyyətlərini daha ətraflı müəyyənləşdirməyə və nümayiş etdirməyə imkan yaradır.

Agentliyin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasında istifadə olunan İRBİS-64 elektron kitabxana yaratmaq və saxlamaq üçün nəzərdə tutulmuş avtomatlaşdırma sistemi fərdi kompüterdən virtual serverə köçürülmüşdür. İRBİS-64 avtomatlaşdırma sisteminin yeni versiyası alınaraq kitabxanada istifadəsinə başlanmışdır.

**10.2. Hesabat ilində İdarə Heyətinin sədri K.İmanovun aşağıdakı kitabları, konfrans, “dəyirmi masa” və digər tədbirlərdə, o cümlədən beynəlxalq tədbirlərdəki çıxışları və prezentasiyaları nəşr olunmuşdur:**

- Milli Məclisin Mədəniyyət Komitəsində “Qeyri-maddi mədəni irs haqqında” Qanun layihəsinin müzakirəsində “Qeyri-maddi mədəni irs (QMMİ) anlayışı və onun istifadəsi” adlı təqdimatının (prezentasiyasının) və eyniadlı kitabı;
- “Heydər Əliyev ili” çərçivəsində 23 aprel – “Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü”nə həsr olunan “Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya əzəli Azərbaycan-Türk torpaqları olan Zəngəzur həqiqətləri” mövzusunda keçirilən konfransda etdiyi təqdimat əsasında eyniadlı kitabı (azərbaycan, rus və ingilis dillərində),;
- Əqli Mülkiyyət Agentliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə “Heydər Əliyev ili” çərçivəsində 26 aprel – “Beynəlxalq Əqli Mülkiyyət Günü”nə həsr olunan “Qadınlar və əqli mülkiyyət. İnnovasiya və yaradıcılıq” mövzusunda keçirilən konfransda etdiyi eyniadlı təqdimat və onun əsasında eyniadlı kitab;
- Moskva şəhərində APT, Rusiyanın Əqi Mülkiyyət üzrə Federal Xidməti (Rospatent), Rusiyanın “Ali İqtisadiyyat Məktəbi” Milli Tədqiqat Universitetinin “UNESCO-nun müəlliflik hüququ, əlaqəli, mədəni və informasiya hüquqları üzrə kafedrası” Beynəlxalq Elm-Təhsil Mərkəzi və Rusiya Dövlət Əqli Mülkiyyət Akademiyasının birgə təşkilatçılığı ilə “Müəllif” (“Автор/Author”)III beynəlxalq elmi-praktiki konfransında (27-28 aprel tarixlərində) çıxışı;
- Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş “Ümummilli lider Heydər Əliyev Azərbaycan əqli mülkiyyət sisteminin yaradıcısıdır” mövzusunda Agentlikdə keçirilən elmi-praktik konfransda (5 may) etdiyi “Heydər Əliyev irsi Azərbaycanın ən dəyərli əqli mülkiyyətidir” adlı çıxışı əsasında kitab;
- ÜƏMT-nın Baş direktorunun müavini Hasan Kleybin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində “Coğrafi göstəricilər” layihəsinin təqdimatında (25 iyun) etdiyi çıxışı əsasında kitab;
- ÜƏMT-nın üzv dövlətlərinin Assambleyalarının 64-cü sessiyasında (6-14 iyul) ingilis dilində etdiyi çıxışı;
- APT-nin icraçı orqanı olan APİ-nin prezidenti Q.İvliyevin Azərbaycana rəsmi səfəri çərçivəsində təşkil olunmuş “Azərbaycan və Avrasiya Patent Təşkilatı arasında əməkdaşlığın prioritet istiqamətləri” mövzusunda keçirilən dəyirmi masada (14-16 noyabr) çıxışı;
- APT və Rusiya Dövlət Əqli Mülkiyyət Akademiyasının təşkilatçılığı ilə “IP Avrasiya/IP Hindistan’23” mövzusunda Moskva şəhərində keçirilən əqli mülkiyyət və texnologiya üzrə beynəlxalq Avrasiya konfransında (6 dekabr) etdiyi “Əqli mülkiyyət iqtisadi artım prizmasında” adlı geniş məruzəsi əsasında eyniadlı kitabı;
- 2021-ci ildə 23 aprel – “Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü” və 26 Aprel – “Beynəlxalq Əqli Mülkiyyət Günü” münasibətilə “Azərbaycan” qəzetinə verdiyi müsahibəsi əsasında “Erməni miflərinin dağıldığı, həqiqət və ədalətin zəfər çaldığı tarixi dövr” adlı kitabı (təkrar nəşr);
- 2016-cı ildə Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə birgə ÜƏMT-nin Qızıl medalının təltif edilmə mərasimində etdiyi çıxışı əsasında “Ümumdünya Əqli Mülkiyyət Təşkilatından Azərbaycan şagirdinin qızıl medal alma mərasimi” adlı kitab (təkrar nəşr);
- «Musiqi dünyası» jurnalında müxtəlif illərdə dərc olunan məqalələri əsasında “Məqalələr” toplusu;
- Əqli Mülkiyyət Agentliyi və ÜƏMT-nın birgə təşkilatçılığı ilə keçirilən “Patent hüququ müqaviləsi”nə dair seminarın (2019-cu il, 5-6 mart) materialları əsasında eyniadlı kitab;
- “Azərbaycan” qəzetində (11 oktyabr 2023-cü il) dərc olunan “Səadətə aparan əqldir (Qutadqu-bilik)” adlı məqaləsi əsasında eyniadlı kitab;
- Moskvada nəşr olunan “Əqli mülkiyyət. Sənaye mülkiyyəti” jurnalında (2023. № 5) dərc olunmuş “Müasir əqli mülkiyyət idarəsinin formalaşdırılması və fəaliyyət göstərməsi məsələsinə dair” başlıqlı elmi məqaləsi əsasında eyniadlı kitab;
- “Videoyazıların Youtube portalına yüklənməsinin hüquqi təminatı” adlı kitab.

**Qeyd:** Agentliyin “Sənaye mülkiyyəti sisteminə dair normativ hüquqi aktlar toplusu” və “Müəllif hüquqları sisteminə dair normativ hüquqi aktlar toplusu” hazırlanaraq ümumi istifadə üçün nəşr edilmişdir.

**11. Kadrların peşəkarlığının artırılması, vətəndaşların müraciətlərinə baxılması və kargüzarlığın təşkili.**

**11.1. Kadrlarla iş və peşəkarlığın artırılması.**

Hesabat ilində kadrlarla iş və işə qəbulla bağlı prosedurlar dövlət qulluğu sahəsini tənzimləyən normativ hüquqi aktların və Əmək Məcəlləsinin tələblərinə uyğun aparılmış, Agentliyin Aparatına və tabeliyində olan qurumlara 32 nəfər işə qəbul edilmişdir. O cümlədən Agentliyin Aparatına 8 nəfər, Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinə 1 nəfər, Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinə 11 nəfər, Agentliyin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasına 5 nəfər, Agentliyin tabeliyindəki Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzinə 7 nəfər işə qəbul edilmişdir.

Agentliyin Aparatından 4 nəfər, Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzindən 6 nəfər, Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzindən 4 nəfər, Agentliyin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasından 9 nəfər, Agentliyin tabeliyindəki Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzindən 7 nəfər öz xahişi ilə işdən azad olunmuşdur.

Hesabat ilinin sonuna Agentliyin Aparatı və tabeliyində olan qurumlar üzrə işçilərin ümumi sayı 258 nəfər olmuşdur: Agentliyin Aparatında 68 nəfər, Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzində 29 nəfər, Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzində 72 nəfər, Agentliyin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasında 83 nəfər, Agentliyin tabeliyindəki Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzində isə 6 nəfər.

Agentlik tərəfindən Dövlət İmtahan Mərkəzinə təqdim olunmuş inzibati vəzifənin tutulması üçün müsabiqənin müsahibə mərhələsi üzrə 2 vakant yer elana çıxarılmış və həmin vakant yerlər üzrə müsahibədən müvəffəqiyyətlə keçmiş 4 nəfərdən (Əkbər Əliyev, Nurlan Əzim, İlahə Səmədova, Turan Babakişiyeva), 2 nəfər elan edilmiş vakant vəzifələrə, digər 2 nəfər isə staj müddəti ilə Agentlikdə vakant olan analoji vəzifələrə təyin olunmuşlar.

Agentlikdə vakant olan inzibati vəzifələrin tutulması üçün daxili müsahibəyə 5 yer çıxarılmış və müsahibədən müvəffəqiyyət qazanmış 5 nəfər müvafiq vəzifələrə təyin edilmişlər.

Hesabat dövründə 4 nəfərə növbəti ixtisas dərəcələri verilmişdir.

Cari dövrdə Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 186-cı maddəsini (Əmək və icra intizamının pozulmasına görə intizam məsuliyyəti) və Agentliyin İdarə Heyətinin 2019-cu il 15 mart tarixli 01 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin Daxili İntizam Qaydaları”nın müddəalarını pozduqlarına görə İnformasiya texnologiyaları şöbəsinin İnformasiyanın yayılması sektorunun müdiri Vüsal Əliyevə töhmət elan edilmiş, Agentliyin İnformasiya texnologiyaları şöbəsinin müdiri Elnur Müslümova, Agentliyin İnformasiya texnologiyaları şöbəsinin müdirinin müavini-mətbuat katibi Elnur Məmmədliyə ayrı-ayrı vaxtlarda iki dəfə və Agentliyin İnformasiya texnologiyaları şöbəsinin Nəşr sektorunun müdiri Kəmalə Baxışovaya xəbərdarlıq edilmişdir.

Hesabat dövründə Agentliyin Aparatının struktur bölmələrinin Əsasnamələri, işçilərin vəzifə təlimatları Agentliyin İdarə Heyətinin sədrinin 2023-cü il 10 iyul tarixli 43 nömrəli əmri ilə təsdiq edilmiş, “Təşkilati-hüquqi sənədlər və inzibati vəzifələr haqqında Məlumat Toplusu” hazırlanaraq Dövlət İmtahan Mərkəzi ilə razılaşdırılmışdır.

Agentliyin Aparatının və tabeliyində olan qurumların əməkdaşları ÜƏMT Akademiyasının distant təhsil və ixtisasartırma kurslarında, həmçinin əqli mülkiyyət sahəsi ilə bağlı 10-dan artıq milli və beynəlxalq kurs, seminar və konfranslarda iştirak edərək ixtisaslarını artırmışlar.

**11.2. Kargüzarlığın təşkili.** Hesabat dövründə Agentliyə **2113** sənəd daxil olmuşdur. Daxil olmuş sənədlərin **1682** icrası başa çatdırılmışdır. **92** sənədin icrası davam etdirilir və **339** sənəd məlumat xarakterlidir.

Agentliyin Aparatında və tabeliyində olan qurumlarda kargüzarlıq işləri Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”a uyğun aparılır.

Agentliyə dövlət qurumlarından və hüquqi şəxslərdən daxil olan çoxsaylı məktublara və vətəndaş müraciətlərinə baxılmasına və operativ cavablandırılmasına ciddi riayət olunur.

Agentlik icraya nəzarət mexanizminin təkmilləşdirilməsi, keyfiyyətli, operativ nəzarətin həyata keçirilməsinə imkan verən mərkəzləşdirilmiş elektron informasiya sisteminə də qoşulmuşdur. “Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında” Azərbaycan Respublikasının Prezidentinin 2018-ci il 27 oktyabr tarixli 314 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən Elektron Hökumət İnformasiya Sistemi infrastrukturunda Mərkəzləşdirilmiş elektron sənəd dövriyyəsi altsistemi yaradılmışdır. Rəqəmsal idarəçiliyin inkişafı, proseslərinin optimallaşdırılması və elektronlaşdırılmanın təmin edilməsi məqsədi ilə Agentlik hələ 2021-ci ilin əvvəlindən mərkəzləşdirilmiş elektron sənəd dövriyyəsi sisteminə inteqrasiya olunmuşdur.

**11.3. Vətəndaşların qəbulu.** Agentliyin Aparatının və tabeliyindəki qurumların əməkdaşları vətəndaşların qəbulunun təşkilində yaxından iştirak ediblər. Agentlikdə hər ilin sonu növbəti il üçün qəbul qrafiki təsdiqlənir, Agentliyin rəsmi internet saytında yerləşdirilir və Azərbaycan Respublikasının Prezidentinin Administrasiyasına təqdim edilir.

Vətəndaşların qəbulu və qəbulla əlaqədar kargüzarlığın aparılması üzrə iş “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 950 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası”na uyğun həyata keçirilmişdir.

Hesabat dövründə Agentliyin və tabeliyində olan qurumların rəhbərliyi və vəzifəli şəxsləri tərəfindən **607** vətəndaş qəbul edilmiş, qaldırılan problemlərin operativ şəkildə həll edilməsi üçün Agentliyin səlahiyyətləri çərçivəsində zəruri tədbirlər görülmüşdür.

Hökumət Evində yerləşən dövlət qurumları tərəfindən vətəndaşların qəbulunun vahid və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi məqsədi ilə yaradılmış Vətəndaşların Qəbulu Mərkəzində isə Agentliyin əməkdaşları tərəfindən **700** nəfərdən çox vətəndaş qəbul edilmiş, onlara müəlliflik hüququ və əlaqəli hüquq obyektlərinin qeydiyyatı, pozulmuş müəlliflik hüququ və əlaqəli hüquqların bərpası, şəhadətnamənin dublikatın verilməsi, nəzarət markalarının verilməsi və patent və əmtəə nişanının qeydiyyatı ilə bağlı məsləhətlər verilmişdir.

“KOB Evi”ndə isə il ərzində əqli mülkiyyət məsələlərinə dair Agentliyin nümayəndələri tərəfindən **62** vətəndaş müraciəti cavablandırılmışdır.

Hesabat dövründə vətəndaşlardan birbaşa Agentliyə 818 müraciət (onlardan 636 elektron qaydada) daxil olmuşdur. Müraciətlər əsasən müəllif hüquqları, sənaye mülkiyyəti məsələləri, əsərlərin qeydiyyatı, maliyyə məsələləri, dövlət qulluğu və kadr məsələləri, texnologiyaların kommersiyalaşdırılması və transferi məsələləri, qonorar məsələləri, nəzarət markalarına aid məsələləri əhatə edir.

Müraciətlərdən 662-si həll olunmuş, 3-ü qismən həll edilib, 107-nə müvafiq izahat verilmiş, 7-si baxılmaq üçün aidiyyəti qurumlara göndərilib, 24-ü əsassız sayılıb, 1-i baxılmamış saxlanılıb, 14-ü isə icradadır.

Vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına dair illik hesabat formaları hər il nəzərdə tutulduğu qaydada Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına göndərilir.

**Əqli Mülkiyyət Agentliyinə 2023-cü ildə daxil olan vətəndaş müraciətlərinə baxılmasının nəticələri barədə**

| Sıra nsi | Əsas göstəricilər | Ümumi sayı | Ərizə | Şikayət | Təklif | Nəzarət | Təkrar | Kollektiv |
|---|---|---|---|---|---|---|---|---|
| I | **Daxil olan müraciətlər,** o cümlədən: | **818** | **818** | | | | | |
| | - təşkilatın aparatına | **755** | **755** | | | **1** | | |
| | - tabe qurumlara | **63** | **63** | | | | | |
| II | **Müraciətlərin forması:** | | | | | | | |
| | - məktub | **182** | **182** | | | **1** | | |
| | - elektron məktub | **636** | **636** | | | | | |
| | - teleqram | | | | | | | |
| | - faks | | | | | | | |
| III | **Daxil olan müraciətlərin mövzuları:** | | | | | | | |
| | 1. Müəllif hüquqları ilə bağlı | **55** | **55** | | | | | **3** |
| | 2. Sənaye mülkiyyəti ilə bağlı | **247** | **247** | | | **1** | | **2** |
| | 3. Əsərlərin qeydiyyatı ilə bağlı | **492** | **492** | | | | | |
| | 4. Texnologiyaların kommersiyalaşdırılması və transferi məsələləri ilə bağlı | **1** | **1** | | | | | |
| | 5. nəzarət markaları ilə bağlı | **1** | **1** | | | | | |
| | 6. Maliyyə məsələləri ilə bağlı | **7** | **7** | | | | | |
| | 7. dövlət qulluğu və kadr məsələləri ilə bağlı | **11** | **11** | | | | | |
| | 8. Digər mövzular | **4** | **4** | | | | | |
| IV | **Müraciətlərə baxılmasının vəziyyəti:** | | | | | | | |
| | - həll olunub | **662** | **662** | | | **1** | | **2** |
| | - qismən təmin edilib | **3** | **3** | | | | | |
| | - rədd edilib (əsassız sayılıb) | **24** | **24** | | | | | |
| | - müvafiq izahat verilib | **107** | **107** | | | | | **2** |
| | - dövlət proqramlarında icrası nəzərdə tutulub | | | | | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | - icradadır | **14** | **14** | | | | | |
| | - baxılmaq üçün aidiyyəti təşkilatlara göndərilib | **7** | **7** | | | | | **1** |
| | - baxılmamış saxlanılıb | **1** | **1** | | | | | |
| **V** | **İcra müddəti pozulmaqla baxılan müraciətlərin sayı** | | | | | | | **-** |
| **VI** | **Təşkilatda baxılmış müraciətlərə verilən cavabların sayı** | | | | | | | **169** |
| **VII** | **Qəbul edilmiş vətəndaşların sayı,** o cümlədən: | | | | | | | **1325** |
| | - rəhbərin qəbulu (fərdi) | | | | | | | **10** |
| | - rəhbərin səyyar qəbulu | | | | | | | **-** |
| | - təşkilatın vəzifəli şəxslərinin qəbulu | | | | | | | **995** |
| | - tabe qurumlarda | | | | | | | **320** |

Yeni infrastruktur layihələri sırasında yaradılmış “Çağrı Mərkəzi”nə hesabat dövründə **24** mindən çox müraciət daxil olmuş və hər bir müraciət operativ qaydada cavablandırılmışdır.

**12. Agentliyin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanası (RETK)** hesabat ilində də biliklərin artırılmasında, kitab və oxu mədəniyyətinin yüksəlməsində fəal iştirak etmiş, nəticədə əqli mülkiyyət mədəniyyətinin gücləndirilməsi işinə əhəmiyyətli töhfələr vermişdir.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli Sərəncamı ilə elan edilmiş “Heydər Əliyev İli” münasibətilə Agentlik tərəfindən hazırlanmış Tədbirlər planı çərçivəsində Respublika Elmi-Texniki Kitabxanasında bir sıra tədbirlər, o cünlədən “28 May – Müstəqillik Günü” və ‘‘Heydər Əliyev 100’’ adlı konfranslar keçirilmiş, 15-19 noyabr tarixlərində Bakı “Ekspo Mərkəzi”ndə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş 9-cu Bakı Beynəlxalq Kitab Sərgisində fəal iştirak etmişdir.

Sərgidə Kitabxana üçün ayrılmış sahədə Ulu Öndərə həsr olunmuş xüsusi guşə təşkil olunmuş, milli əqli mülkiyyət sisteminin yaradıcısı olan xalqımızın Ümummilli Lideri Heydər Əliyevin bu sistemin formalaşmasında və inkişafındakı müstəsna xidmətlərindən bəhs edən kitablar nümayiş etdirilmişdir.

Agentliyin İdarə Heyətinin sədri K.İmanovun müəllifi olduğu əsərlər, o cümlədən onun erməni yalanlarını ifşa edən əsərləri, həmçinin elm,texnika və sənayenin müxtəlif sahələrinə - statistika, tarix, memarlıq, ekologiya, informasiya texnologiyaları, təbiət elmləri,neft, energetika, maşınqayırma, elektrotexnika, müəssisələrin idarə edilməsi və digər sahələrə dair kitab və jurnallar da sərgi iştirakçılarında xoş təəsürat yaratmışdır.

Azərbaycan Respublikasının mədəniyyət naziri, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, AMEA-nın elmi-tədqiqat institutlarının və təhsil müəssisələrinin nümayəndələri, ali məktəblərin rəhbərləri, habelə xarici qonaqlar RETK tərəfindən nümayiş etdirilən nəşrlərlə tanış olmuşlar.

Hesabat ilində AMEA-nın və Elm və Təhsil Nazirliyinin nəzdində olan institutlardan RETK-nın fondlarına bir sıra yeni elmi nəşrlər daxil olmuşdur. Bu nəşrlər sırasında “Azərbaycan Milli Elmlər Akademiyasının xəbərləri”, Riyaziyyat və Mexanika İnstitutunun Azərbaycan və ingilis dillərində çapdan

çıxmış “Azərbaycan riyaziyyat jurnalı”, “Riyaziyyat və Mexanika İnstitutunun əsərləri”, Fizika İnstitutunun “Azərbaycan fizika jurnalı”, “Fizika və lirika”, həmçinin “Azərbaycan Milli Aerokosmik Agentliyinin xəbərləri” və başqa nəşrləri göstərmək olar.

RETK-nın hesabat ilində fəaliyyəti barədə statistik göstəriciləri 2022-ci il ilə müqayisədə aşağıdakı kimi olmuşdur:

**Oxucuların sayı:**
2022-ci il - **613** nəfər 2023-cü il - **1206** nəfərə

Kitabxanaın fondunda saxlanılan nəşrlərin sayı:

**2022-ci il üzrə:**

Ümumi say – **13.920.235** çap vahidi, o cümlədən:
1. Kitab və kitabçalar -292538 çap vahidi
2. Dövrü nəşrlər – 582877 çap vahidi
3. Xarici ədəbiyyat – 108623 çap vahidi
4. Avtoreferatlar – 9927 çap vahidi
5. Xarici jurnallar – 108623 çap vahidi
6. Elmi texniki informasiya xarakterli məlumat materialları – 634294 çap vahidi
7. Respublika Patent Fondu – 12291619 sənəd
8. Yeni jurnallar – 137 nüsxə.

**2023-cü il üzrə:**

Ümumi say – **13.931.495** çap vahidi, o cümlədən:
1. Kitab və kitabçalar – 293375 çap vahidi (Azərbaycan dilində -9695, rus dilində - 283680)
2. Dövri nəşrlər – 583831 çap vahidi
3.Qəzet – 7778 çap vahidi
4. Xarici dil. kitablar – 443 çap vahidi
5. Xarici dil. jurnallar – 108631 çap vahidi
6. Avtoreferatlar – 1040 çap vahidi
7. Elmi texniki informasiya xarakterli məlumat materialları – 634294 çap vahidi
8. Respublika Patent Fondu – 12293103 sənəd
9. İl ərzində daxil olmuş ədəbiyyatın ümumi sayı - 5547 çap vahidi

**RETK-nın Gəncə filialının fonduna** 2023-cü ildə 1662 çap vahidi ədəbiyyat daxil olmuşdur. Hazırda bu fondda 16356 çap vahidi ədəbiyyat saxlanılır.

Gəncə filialı oxucularının sayı 2022-ci ildə 630 nəfər, 2023-cü ildə isə 743 nəfər olmuşdur.

**RETK-nın Patent fondunda** saxlanılan materialların ümumi sayı 2022-ci ildə **12.291.619** çap vahidi, 2023-cü ildə isə **12.293.105** çap vahidi olmuşdur.

İRBİS 64+ AKİS proqramı vasitəsilə neft sahəsinə aid nadir kitabların, həmçinin kitabxana fonduna daxil olan digər ədəbiyyatın elektron kartoçkalarının yazılması davam etdirilmişdir .

RETK-nın proqram təminatının dəstəyi ilə e-kataloqda Heydər Əliyev ili çərçivəsində yaradılan ‘‘Heydər Əliyev – 100’’ – Verilənlər Bazasında Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən elektron versiyalı kitablar yerləşdirilərək onlayn istifadəyə verilmişdir.

Kitabxana fondlarının və kitabxana işinin elektronlaşdırılması istiqamətində aşağıdakı işlər görülmüşdür:

1. İRBİS 64+ AKİS proqram təminatı yenilənmişdir;

2..Serverdə VB –verilənlər bazası (DATABASİS) yaradılmış və bu günə kimi daxil edilmiş ədəbiyyat daxili konvertasiya ilə VB-a yerləşdirilmişdir;

3. Sistemin bütün modulları üzrə iş davam edir;

4. Sistemin yaddaşına daxil edilən ədəbiyyat e-kataloqda həmin andan onlayn olaraq öz əksini tapır;

5. E-kataloq zaman və məkan məhdudiyyəti olmadan istifadəçilər üçün açıqdır;

6. Sistemin yaddaşına 79 775 adda 112031 nüsxə ədəbiyyat daxil edilmişdir (Bunların 47034 -ü ilk mərhələdə daxil edilən ədəbiyyatdır.);

7. Kitabxana fondunda olan 4800 adda kitab tammətnli olmaqla pdf formatına salınmış və e-kataloqa yerləşdirilmişdir;

8. Kitabxanada neft sahəsinə aid 1217 nadir ədəbiyyat pdf formatına çevrilmişdir;

9. Kitabxana fondunun aktiv ədəbiyyatı mütəmadi olaraq skan edilib e-kataloqda onlayn istifadəyə verilir.

Proqram təminatının verilənlər bazasına:

1.qədim kitablar - 53280 adda, 74687 nüsxə
2.yeni kitablar - 3334 adda, 4862 nüsxə
3.nadir fonda aid digər kitablar- 1217 adda, 1388 nüsxə
4.avtoreferatlar - 1698 adda, 1716 nüsxə
5.dövri mətbuatda 12605 adda jurnal və analitik yazı
6.tammətnli elektron kataloq bazasında 2000 adda 374000 səhifədən ibarət elektron versiyada kitab daxil edilmişdir.

RETK-nın saytında yerləşən elektron kataloq və elektron kitabxana səhifəsinə hər gün təxminən **200-250** oxucu daxil olur.

Kitabxana İRBİS 64+ proqram təminatına qoşulmaqla həm də EBNİT Assosiasiyasına üzv olmuşdur.

Bu nə deməkdir və bizə nə vəd edir?

Assosiasiyanın İP ünvanları ilə RETK-nın İP ünvanlarını mübadilə etməklə neft və neft məhsulları barədə XIX – XX cı əsrlərə aid ədəbiyyatın saxlandığı Nadir kitablar fondunun e-katoloqunu geniş oxucu kütləsinə təqdim edə bilərik. Yaxın günlərdə bunu təqdim edəcəyik. Bir qədər çox kitab yığılmasını, informasiya kütləsinin daha çox olmasının istəyirik. Hazırda biz Rusiya Publik Elmi-Texniki Kitabxanasının (ГПНТБ) elektron kataloq sisteminə qoşulmuşuq və Rusiyanın Regional Kitabxana Konsorsiumunun Birləşdirilmiş (Сводный) elektron kartotekasının “ARBICON ’’verilənlər bazasında elektron kataloqumuz açılır, yayımlanır. Bu da elektron kataloq istifadəçilərinin diqqətini cəlb etmişdir, həm də SOCAR-ın kompleks Qazma İşləri Trestində təşkil edilmiş “Səyyar kitabxana’’ və Bakı Beynəlxalq Kitab Sərgisində RETK-nın təmsil olunması da neft sənayesində çalışan mütəxəsislərin böyük marağına səbəb olmuşdur. İndiyədək Nadir kitablar fonduna aid 2500 nüsxə ədəbiyyat skan edilərək pdf fotmatına salınmışdır.

İstər bizim ölkəmizdə, istərsə də digər ölkələrdə zəngin fondlarına təlabat olan kitabxanalar bəzi hallarda ödənişli əsaslarla xidmət göstərir. Məsələn, Milli Kitabxana, Mərkəzi Elmi Kitabxana və s. Hesab edirik ki, biz e-kataloqda yerləşdirilmiş nadir ədəbiyyatın ilk üç səhifəsini açıq istifadədə, qalan səhifələri isə ödənişli istifadədə təqdim edə bilərik. Əldə olunacaq vəsaiti Kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsinə sərf etmək olar.

RETK-nın qiraət zalında Azərbaycan Memarlıq və İnşaat Universitetinin Əqli mülkiyyət kafedrasının müəllimləri bu ali məktəbin magistratura pilləsində təhsil alan tələbələrə “İKT və əqli mülkiyyət” fənnini tədris edirlər. Həmin tələbələr öz istəkləri ilə Abonentlərə xidmət şöbəsində oxucu kimi qeydiyyatdan keçmişlər.

Kitabxananın maddi-texniki bazasının gücləndirilməsi istiqamətində bir sıra işlər görülmüşdür:

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan RETK-nın istifadəsinə verilmiş Aşıq Alı, 5 ünvanında yerləşən qeyri-yaşayış sahəsində hesabat ilinin oktyabr ayından hörmətli Kamran müəllimin göstərişi ilə kitabxana əməkdaşlarının normal iş fəaliyyətini təmin etmək üçün təmir tikinti işlərinə başlanılmış,otaqların bəziləri və sanitar qovşağı işlək vəziyyətə gətirilmişdir. Ölkə Prezidenti İlham Əliyevin 2023-cü il 7 dekabr tarixli Sərəncamı ilə növbədənkənar Prezident seçkilərinin keçirilməsi elan olunduqdan sonra adı çəkilən ünvanda yerləşən binada 20 saylı Nərimanov 2-ci Seçki Dairəsinin 13 saylı seçki məntəqəsinin yerləşməsi ilə əlaqədar olaraq, Əqli Mülkiyyət Agentliyinin və Bakı Şəhər İcra Hakimiyyətinin rəhbərlikləri arasında olan razılaşmaya əsasən təmir işləri daha da sürətləndirilmiş və əlavə işlərin görülməsi də başa çatdırılmışdır. Binada fevralın 7-də növbədənkənar prezident seçkiləri uğurla keçirilmişdir. Qeyd etmək lazımdır ki, Məntəqə Seçki Komisiyyası qarşıdan gələn bələdiyyə seçkiləri zamanı da burada öz fəaliyyətini davam etdirəcəkdir.

2023-cü ilin mart ayında Nadir kitablar fonduna aid nüsxələrin qorunub saxlanmasını təmin etmək

məqsədilə yeni rəflər və 2 sərgi masası sifariş verilib hazırlanmışdır.

**Bütün bunlarla yanaşı, RETK-da həllini gözləyən bir sıra məsələlər var:**

Yuxarıda göstərilənlərlə yanaşı,RETK-nın işinin mövcud standartlara uyğun qurulması, onun maddi- texniki bazasının möhkəmləndirilməsi üçün aşağıda qeyd olunan təkliflərin həyata keçirilməsinin zəruriliyini bildirmək istərdik:

1. Kitabxananın əlahiddə yerləşən binasının olmaması və darısqal iş otaqlarında yerləşməsi ilə əlaqədar işçilərin funksional vəzifə borclarını lazımi səviyyədə həyata keçirə bilməməsinin səbəblərini aradan qaldırmaq məqsədilə Agentliyin Aşıq Alı, 5 ünvanında yerləşən qeyri-yaşayış sahəsinə ezam olunmuş işçi qrupuna dövri mətbuat və avtoreferat fondları ilə məşğul olan işçilərin daha bir qrupunu əlavə etmək;
2. Cari ilin oktyabr ayından Aşıq Alı, 5 ünvanında yerləşən qeyri-yaşayış sahəsində təmir işləri tamam yekunlaşandan sonra otaqların müvafiq rabitə və texniki vasitələrlə təmin olunmasını həll etmək;
3. RETK-nın fəaliyyətinin elektronlaşdırılması məqsədilə cari ilin əvvəlindən yenilənmiş İRBİS64+AKİS proqram təminatının tam qüvvəsi ilə işləməsi üçün köhnə və işlək vəziyyətdə olmayan kompüter və telekommunikasiya avadanlıqlarını yeniləri ilə əvəz etmək;
4. Fondda saxlanılan və əvvəllər nəşr olunmuş ədəbiyyatı skan edən, istismar dövrü bitmiş aparatın köhnəlməsi və tez-tez sıradan çıxması səbəbindən işin ləngiməsi hallarının qarşısını almaq məqsədilə yaxın zamanlarda yeni skanerin alınması məsələsini nəzərdə saxlamaq;
5. Kitabxananın Qara Qarayev, 57 ünvanında yerləşən qeyri-yaşayış sahəsində ən vacib təmir işlərinin həyata keçirilməsi üçün müvafiq təkliflər hazırlamaq;
6. Kitabxananın Azadlıq prospekti, 191 ünvanında yerləşən qeyri-yaşayış sahəsinə Agentliyin müvafiq strukturları ilə baxış keçirmək və baxışın nəticələri barədə arayış hazırlamaq;
7. Kitabxananın Gəncə şəhərində yerləşən filialı ilə bağlı məsələlərin həlli ilə əlaqədar fəaliyyət planı qəbul etmək.

**13. Kollektiv idarəetmə sahəsində aparılan işlər.**

**13.1. Kollektiv idarəetmə təşkilatlarının fəaliyyətinə davamlı olaraq dəstək verilməsi** bu sahədə yaradılmış ictimai birliklərin işinin səmərəliliyinin artmasına müsbət təsir göstərmişdir. Hesabat ilində “Azərbaycan Kinorejissorlar Gildiyası” İctimai Birliyi təkrar qeydiyyatdan (akkreditasiyadan) keçirilmiş və uzun fasilədən sonra “Azərbaycan Müəllifləri” İctimai Birliyi qeydiyyata alınmışdır.

2022-ci ildə akkreditasiyadan keçirilmiş “Müəllif Hüquqları Uğrunda” və "Rəqəmli və Audiovizual Yayım Sənayesi" ictimai birliklərinə təşkilati və hüquqi yardım göstərilmiş, il ərzində müəlliflərin əmlak hüquqlarının idarəçiliyi ilə yanaşı, ifaçıların, fonoqram istehsalçılarının və yayım təşkilatlarının əmlak hüquqlarının kollektiv əsasda idarəçiliyi də təmin edilmişdir.

Hesabat ilində “Azərbaycan Kinorejissorlar Gildiyası” İctimai Birliyi tərəfindən 96583 (doxsan altı min beş yüz səksən üç) manat, Müəllif Hüquqları Uğrunda” İctimai Birliyi tərəfindən 258070 (iki yüz əlli səkkiz min yetmiş) manat, "Rəqəmli və Audiovizual Yayım Sənayesi" İctimai Birliyi tərəfindən 67800 AZN (altmış yeddi min səkkiz yüz) manat, “Azərbaycan Müəllifləri” İctimai Birliyi tərəfindən 7300 (yeddi min üç yüz) manat müəllif qonorarı yığılaraq aidiyyəti üzrə müəlliflərə (hüquq sahiblərinə) çatdırılmışdır.

**13.2. Müəllif qonorarı.** Kollektiv idarəetmə təşkilatlarının fəaliyyət göstərmədiyi sahələrdə Agentlik bu işi təşkil etmiş, müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının idarə edilməsi sahəsində fəaliyyət göstərən kollektiv idarəetmə təşkilatlarına hər cür metodiki və hüquqi yardım göstərilmiş, fəaliyyət sahələri üzrə qarşılaşdıqları problemlərin həllində köməklik göstərilmişdir.

Hesabat ilində müəlliflərin əmlak hüquqlarının idarəçiliyini təmin etmək nəticəsində (teatr-tamaşa təşkilatlarında əsərlərdən istifadəyə görə) 176017.17 manat müəllif qonorarı yığılmış və təyinatı üzrə bölgüsü aparılmışdır: Azərbaycan müəlliflərinə 128997.84 manat, xarici müəlliflərə 19770.92 manat qonorar ödənilmişdir.

Dövlət varidatı sayılan əsərlərə görə yığılan qqonorarın məbləği 5197.64 manat olmuş, yığılan müəllif qonorarlardan tutulan gəlir vergisi 21103.47 manat təşkil etmişdir. Eyni zamanda qonorar hesablanan yerli və xarici müəlliflərin adları, soyadları və mənsub olduqları ölkələr barədə məlumatların dəqiqləşdirilməsi istiqamətində mütəmadi iş aparılmışdır. Agentliyin hesabına daxil olmuş 178533.27 manat müəllif qonorarından köçürmə yolu ilə 135086.96 manat Azərbaycan müəllifllərinə, qonorardan tutulmuş gəlir vergisi 22084.14 manat vəsait dövlət büdcəsinə, 472.83 manat bank xidməti üçün və

663.00 manat kart sifarişi üzrə ödəniş köçürülmüşdür.

Son illər xidmət edilən müəlliflərin sayında davamlı olaraq artım müşahidə olunmuşdur. Məsələn, 2018 - ci ildə xidmət göstərilən müəlliflərin sayı 3380, 2019 - cu ildə 3430, 2020 - ci ildə 3470, 2021 - ci ildə 3518 nəfər, 2022 - ci ildə isə 3549 nəfər, 2023 - cü ildə isə 3607 nəfər olmuşdur. 2023-cü ildə Agentliyin qonorar yığımını əhatə etdiyi istifadəçi təşkilatlarda Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində olan teatr-tamaşa müəssisələrində müəllif qonorarının hesablanması və ödənilməsi üzrə müəyyən iş aparılmışdır.

Hesablanmış qonorar barədə 658 nəfər müəllifin müraciətlərinə baxılmış, müvafiq izahatlar verilmişdir. Qonorar hesablanmış 487 nəfər müəllifə çatacaq qonorar məbləğlərinin Visa elektron kartları vasitəsi ilə ödənilməsi təmin edilmişdir.

## 14. Agentliyin maliyyə-təsərrüfat fəaliyyətinin nəticələri.

**14.1. Maliyyə fəaliyyətinin nəticələri.** Azərbaycan Respublikası Prezidentinin büdcə vəsaitlərinə münasibətdə verdiyi tapşırığa uyğun olaraq, hesabat ilində büdcə vəsaitləri qənaətlə xərclənmişdir. 2023-cü ildə Agentliyin Aparatı üzrə tədbirlərinin həyata keçirilməsi ilə bağlı insan resurslarının idarə edilməsi və saxlanılması və tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının saxlanması, fəaliyyətinin təmin edilməsi üçün dövlət büdcəsində nəzərdə tutulan 3510 353.00 (üç milyon beş yüz on min üç yüz əlli üç) manat vəsait daxilində aparılmışdır.

İllik smeta xərclərinə uyğun olaraq bu vəsaitin 2665792,8 (iki milyon altı yüz altmış beş min yeddi yüz doxsan iki manat 80 qəpik) manatı əmək ödənişlərinə (o cümlədən, 1921907,56 manat ştatda olan işçilərin əmək haqqının ödənilməsinə və 184638,38 manatı əməyin ödənişi ilə bağlı digər pul ödənişləri,19840 manatı ştatdankənar işçilərin əmək haqqının ödənilməsinə, 23401,86 manatı müavinət və iş qabiliyyətinin müvəqqəti itirilməsinə görə), 516005 manatı DSMF-na, işsizlikdən sığorta ayırmalarına və icbari sığorta ayırmalarına xərclənmişdir. Agentliyin Aparatının saxlanması ilə bağlı digər işlərin görülməsi üçün 17160,88 manatı və 6395,95 manatı bank xərcləritəşkil etmişdir. Agentliyin Aparatı üzrə cəmi faktiki büdcə xərcləri 2689349,63 (iki milyon altı yüz səksən doqquz min üç yüz qırx doqquz manat 63 qəpik) manat olmuşdur.

Agentliyin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanası 100 ştat vahidinə malikdir və Kitabxana "Mədəniyyət haqqında", "Kitabxana işi haqqında" Azərbaycan Respublikası qanunlarını və həmin qanunlardan irəli gələn qanunvericilik aktlarını, qərar, əmr, sərəncamları rəhbər tutaraq fəaliyyət göstərir və onun fəaliyyəti dövlət büdcəsi hesabına maliyyələşdirilir.

Kitabxananın illik smeta xərclərinə uyğun olaraq ayrılmış vəsaitin 820887,92 (səkkiz yüz iyirmi min səkkiz yüz səksən yeddi manat 92 qəpik ) manatı əmək haqqı ödənişlərinə 605586.15 (o cümlədən, 587056.81 manatı ştatda olan işçilərin əmək haqqının ödənilməsinə, 9000, 0 manatı sair pul ödənişlərinə, 9529.34 manat müavinət və iş qabiliyyətinin müvəqqəti itirilməsinə görə), 131185.92 manatı DSMF-na ayırmalara, 11926.01 manatı icbari tibbi sığortaya, 2981.51 manatı işsizlikdən sığorta haqqına, 3398.11manatı bank xərclərinə, 65788.89 manatı kitabxananın saxlanması üçün digər işlərin görülməsinə xərclənmişdir. Kitabxana üzrə cəmi faktiki büdcə xərcləri 820866.59 (səkkiz yüz iyirmi min səkkiz yüz altmış altı manat 59 qəpik) manat olmuşdur.

Cəmi faktiki büdcə xərcləri 3510216,22 (üç milyon beş yüz on min iki yüz on altı manat 22 qəpik) manat olmuşdur.

Əldə olunan vəsait hesabına Agentliyə 2023-cü ildə cəmi daxilolma 4760875 (dörd milyon yeddi yüz altmış min səkkiz yüz yetmiş beş) manat olmuşdur. O cümlədən: Madrid Sazişinə uyğun olaraq ÜƏMT-nin Maliyyə Xidmətindən Agentliyin hesabına 2023-cü il üzrə 1534397 (bir milyon beş yüz otuz dörd min üç yüz doxsan yeddi) manat (759452 fr), Haaqa Sazişinə uyğun olaraq isə 25631 (iyirmi beş min altı yüz otuz bir) manat (12686 fr) vəsait daxil olmuşdur, Azərbaycan ərazisində qüvvədə olan Avrasiya patentlərinin qüvvədə saxlanlması üçün APT-nin Avrasiya Patent Bürosundan Agentliyin hesabına daxil olan vəsaitin məbləği 1362742 (bir milyon üç yüz altmış iki min yeddi yüz qırx iki) manat (72486251 rub) təşkil etmişdir, "İxtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanları və coğrafi göstəricilərin hüquqi mühafizəsi sahəsində göstərilən xidmətlərə görə" 1548338 (bir milyon beş yüz qırx səkkiz min üç yüz otuz səkkiz ) manat, audiovizual əsərin, fonoqramın, kompyuter proqramının, məlumat toplusunun, kitabın nüsxələrinə yapışdırılan nəzarət markasının alınmasına görə 9308 (doqquz min üç yüz səkkiz) manat, Depozit faizindən əldə edilən vəsait 280 000(iki yüz səksən min)

manat, Dövlət varidatı elan edilmiş əsərlərə görə 459,45 (dörd yüz əlli doqquz manat 45 qəpik) manat.

Agentliyin əldə olunan vəsait hesabına cəmi yekun xərci 2023-cü ildə 2858401,56(iki milyon səkkiz yüz əlli səkkiz min dörd yüz bir manat 56 qəpik) manat olmuşdur. O cümlədən, Aparatının işçilərinə (mükafat, maddi yardım, əmək haqqına əlavələr və onlardan məcburi tutulmalar, işçilərin icbari sığortası) **404073,11** manat, ezamiyyə və təh-təl hesab xərclərinə **10391,59** manat xərclənmişdir. Agentliyin Mərdanov qardaşları, 124 ünvanında yerləşən daşınmaz əmlakı ilə bağlı xərclər **162204,69** manat olmuşdur (o cümlədən: mühafizə xərci - **107564.63** manat, elektrik enerji xərci **-28032,00** manat, təbii qaz haqqı- **11616,75** manat, su haqqı – **5272,00** manat, dezinfeksiya xərcləri **4500,00** manat, lift xidməti **1628,00** manat, kommunal xidmət – **1594.08** manat və əmlak sığortası **1996.83** manat).

İl ərzində inventar alınmasına **4980.00** manat, digər maşın və avadanlığın alınmasına və Agentliyə xidmətlərin göstərilməsi görə **4765.4** manat, qəzet və jurnallara abunə, sayt, sms paket yazılmasına **11897.31** manat, dəftərxana xərclərinə **12597.95** manat və təsərrüfat xərclərinə **4766.01** manat vəsait sərf olunmuşdur.

Nəqliyyat vasitələri ilə bağlı xərclər **69502.01** manat (avtomobil sığortası, təmiri, yanacaq haqqı, gömrük rüsumu), iki ədəd xidməti minik avtomobilinin alınması **67800.00** manat, kommunal xidmətləri üzrə xərclər (Hökumət evi üçün) **68580.00** manat, avadanlıq alınmasına **4685.59** manat, cari təmir və digər təmir xidmət xərcləri **9530.99** manat, rabitə ilə bağlı xərclər **13515.41** manat, internet abunəsi **37203.40** manat, poçt və yük daşıma xidməti üzrə xərclər **2223.60** manat, proqram təminatlarına xidmət üzrə - **18821.00** manat, idarənin digər xərcləri (suvenirlər, kitab alışı, mətbəə xərci, reklam, tədbirlərin keçirilməsi, dövlət qulluğu üzrə müsabiqə və müsahibə mərhələsi ilə bağlı xərclər, auditxidməti, texniki pasport ucun rüsum ödənişi və s.) **61537,25** manat, bank xərcləri **2961.77** manat və s. təşkil etmişdir.

2023-cü ildə Agentliyin əldə etdiyi vəsaitdən qardaş Türkiyədə zəlzələdən zərər çəkənlərə dəstək üçün **50000.00** manat vəsait köçürülmüşdür.

İddiaçılar tərəfindən səhv olaraq ödənilən **6987,00** manat vəsait yazılı müraciətləri əsasında onların hesablarına qaytarılmışdır.

"Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 iyul tarixli 222 nömrəli Fərmanının 4.8-ci bəndinə uyğun olaraq, Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin və Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin 2023-cü il üçün saxlanma xərcləri Agentliyin fəaliyyəti nəticəsində əldə olunan vəsait hesabına ödənilmişdir. O cümlədən: Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin saxlanılma xərcləri **404070,15** (dörd yüz dörd min yetmiş manat 15 qəpik) manat, Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin saxlanılma xərcləri **1212557,54** (bir milyon iki yüz on iki min beş yüz əlli yeddi manat 54 qəpik) manat, Agentliyin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanası üçün saxlanma xərcinə əlavə **- 90746,79** (doxsan min yeddi yüz qırx altı manat 79 qəpik) manat, Agentliyin tabeliyində olan Texnoloqiyaların Kommersialaşdırılması və Transferi Mərkəzinin saxlanılma xərcləri **122003,00** (bir yüz iyirmi iki min üç) manat təşkil etmişdir.

Hesabat ilində Agentliyin "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan xidmətləri göstərdiyinə və hüquqi hərəkətləri həyata keçirdiyinə görə dövlət büdcəsinə **224 000 (iki yüz iyirmi dörd min)**manat dövlət rüsumu köçürülmüşdür.

Agentlik tərəfindən qanunvericiliklə müəyyən edilmiş xidmətlərin göstərilməsinə görə 2023-cü ildə daxil olan xidmət haqlarının məbləği **4 760875** (dörd milyon yeddi yüz altmış min səkkiz yüz yetmiş beş) manat, xərclər isə 2858401,56 (iki milyon səkkiz yüz əlli səkkiz min dörd yüz bir manat 56 qəpik) manat olmuşdur. Beləliklə, gəlir **1902473.44** (bir milyon doqquz yüz iki min dörd yüz yetmiş üç manat 44 qəpik ) manat təşkil etmişdir. Bu da 2023-cü illə müqayisədə **237825.44** (iki yüz otuz yeddi min səkkiz yüz iyirmi beş manat 44 qəpik) manat çoxdur.

**14.2. Təchizat və təsərrüfat fəaliyyəti.** Agentliyin Aparatının İşlər şöbəsi 2023-cü il ərzində Agentliyin Aparatının və Agentliyin tabeliyində olan qurumların təchizat və təsərrüfat xidməti üzrə işləri həyata keçirmişdir.

Agentliyin M.Qardaşları küçəsi 124 ünvanında yerləşən inzibati binasının ərazisində quraşdırılmış və fövqəladə hallar üçün nəzərdə tutulmuş iki ədəd elektrik generatoru, bu sahədə aparıcı şirkət olan "GENERGY" MMC ilə müqavilə bağlanaraq əsaslı və cari təmir edilərək tam işlək vəziyyətdə istifadəyə verilmişdir. Onlardan biri Agentliyin İnzibati binasının 3-cü mərtəbəsini, server otağını və eləcə də giriş-

çıxış məntəqələrini, digəri isə Agentliyin tabeliyində olan Respubıika Elmi-Texniki Kitabxanasının yerləşdiyi binanı fövqəladə hallar zamanı elektrik enerjisi ilə təmin edir.

Agentliyin təsərrüfat mallarına olan ehtiyaclarının təmin edilməsi məqsədi ilə müqavilə bağlanmış və həmin müqaviləyə əsasən ehtiyac olan təsərrüfat mallarının planlaşdırılmış şəkildə müəyyən edilmiş çərçivə daxilində sifariş edilərək Agentliyə gətirilməsi təmin edilmişdir.

Agentliyin Bakı şəhəri, Ü.Hacıbəyli 84, Hökumət Evi, giriş 5, mər. 1-də yerləşən xidməti otaqlarında və M. Qardaşları, 124 ünvanında yerləşən inzibati binasında sıradan çıxmış qızdırıcı radiatorların 2023-cü il ərzində yeniləri ilə əvəzlənməsi təmin edilmişdir.

Agentliyin balansında olan xidməti minik avtomobillərinin texniki vəziyyətini yüksək səviyyədə saxlamaq və hərəkətin təhlükəsizliyini təmin etmək məqsədilə, habelə dövlət vəsaitinin səmərəli istifadəsi baxımından “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 21.1.2-ci maddəsi tətbiq edilməklə, cari ilin sonunadək hər bir avtomobilin təmiri və ona texniki xidmətin göstərilməsi üçün müvafiq istehsalçıya aid texniki servislə birbaşa müqavilə bağlanmışdır.

Agentliyin Bakı şəhəri, Ü.Hacıbəyli 84, “Hökumət Evi”ndə yerləşən xidməti sahəsində məxfi otağın təmiri başa çatdırılıb, siqnalizasiya və tələb edilən tədbirlər icra edilərək istifadəyə verilib.

Agentliyin İdarə Heyətinin sədrinin tapşırığına əsasən Agentliyin M.Qardaşları küçəsi, 124 ünvanda yerləşən inzibati binasının həyətində yaşıllıq sahəsinin artırılması məqsədilə yeni dibçəkdə olan dekorativ gül və ağaclar alınaraq Agentliyin həyətində əkilmişdir.

16 ədəd yeni stasionar telefon aparatları alınaraq, Agentliyin struktur bölmələrində zərurət yarandıqca quraşdırılmışdır. Həmçinin 4 ədəd smart-rəqəmsal tipli çox funksiyalı telefon aparatları alınmış və Agentliyin struktur bölmələrində quraşdırılmışdır.

Agentliyin M.Qardaşları küçəsi, 124 ünvanda yerləşən inzibati binasının dayanıqlı su təchizatı ilə təmin edilməsi üçün yeni Espa Prisma 355MN markalı bir dəst su nasosu alınaraq quraşdırılmışdır.